RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 232 (9111) BAZAR, 23 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Keçmiş məcburi köçkünlər xilaskarı doğma evlərində qarşılayırlar



**"Əlbəttə, mən deyirdim ki, biz mütləq qayıdacağıq. Deyirdim ki, öz torpaqlarımıza qayıdacağıq və qayıtdıq. İndi burada yaşayırıq".**

Prezident İlham Əliyevin oktyabrın 19-da Zəngilanın Ağalı kəndinin sakinləri ilə görüşdə qürurla söylədiyi kimi, zəfərlə başa çatan Vətən savaşı sayəsində Azərbaycan xalqı olaraq arzularımızın ən uca məqamına, torpaqlarımızın azadlığına yetdik. İndi Böyük qayıdışa hazırlaşırıq.

30 ilə yaxın ayrı qaldığımız o doğma yurdlardan yenidən ünümüzün gəlməsini, hənirimizin duyulmasını, ev-eşiklərdə ocaqlar qalanmasını, sevinc sədalarının ucalmasını çox arzulamışdıq.

Bir zamanlar hər birimizə möcüzə kimi görünən bütün bu işlər Ağalının timsalında dönüb gerçək olub.

Cəmi iki il əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan Ağalı doğma sakinlərinə qovuşub, burada həyat yenidən canlanmağa başlayıb.

Oktyabrın 19-da isə ağalılılar öz evlərində ən əziz qonaqlarını - Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılamağın qürurunu yaşadılar.

Həmin tarixi gündə İlham Əliyev Ağalıdan bir daha bütün keçmiş məcburi köçkünlərə səslənərək bildirdi ki, tezliklə onlar da öz yurdlarına qovuşacaqlar: "Sizin də qayıdışınız bunu göstərir ki, keçmiş köçkünlərin hamısı öz doğma torpaqlarına qayıdacaq".

### Könüllərdən keçən Vətən

30 il…

Onlar bu zaman üçün qısa, insanlıq üçün böyük vaxt ölçümü ərzində nələr yaşamamış, necə mənəvi məhrumiyyətlərə düçar olmamışdılar ki?!

İsti yuvalarından, doğma yurdlarından quruca canlarını götürüb çıxmışdılar. Qurulu evlərinin qapısını bağlayıb bir gün mütləq qayıdacaqları ümidi ilə sadəcə açarlarını, bir də ana yurddan bir ovuc torpaq götürmüşdülər özləri ilə. Bu illər ərzində həmin açarları ən qiymətli əmanətləri kimi qoruyub saxlamışdılar. Ötən illər ərzində o bir ovuc torpaq daha da azalmışdı. O qədər ki, daha nə Vətən həsrəti ilə bu dünyadan köçən əzizlərinin məzarına səpməyə çatardı, nə də doğma yurdun ətrini almağa yetərdi…

→ 4

## 2023 HEYDƏR ƏLİYEV ili



## Ulu Öndərin yadigarı da uzunömürlü beynəlxalq neft-qaz sərgisidir

Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli"(AÇG) yataqlarının tammiqyaslı işlənməsi üçün sazişin imzalanmasına cəmi bir neçə ay qalırdı. Amma bu barədə hələ qəti bir söz demək mümkün deyildi. Danışıqlar davam edirdi. Bu zaman Ümummilli Lider Heydər Əliyev elə bir tədbirin keçirilməsinin təşəbbüskarı və təşkilatçısı oldu ki, o, həmin qlobal müqavilənin imzalanmasına dəstək verdi, yol açdı.

1994-cü il mayın 24-də Bakıda ilk dəfə beynəlxalq neft-qaz sərgisi keçirildi. Azərbaycana gəlmiş xarici şirkətlər burada ölkəmizə olan maraqlarını ifadə etdilər.

→ 5

## Prezident İlham ƏLİYEV: "Gələcək bax budur"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Ağalı kəndində olarkən buradakı orta məktəbin şagird-müəllim kollektivi və sakinlərlə görüşdülər. Dövlət başçısı məktəbdə təhsil alan şagirdləri salamlayaraq: "Uşaqlar, gedək məktəbi göstərin mənə, gəlin gedək," - dedi.

Uşaqlar məktəbin qarşısında dayanmışdılar. Birinci xanım sanki onların ürəyindən keçənləri duyaraq İlham Əliyevə müraciət etdi: "Dayanıblar, bəlkə, əvvəl şəkil çəkdirək?"

Prezident dərhal razılaşdı: "Şəkil çəkdirək, elə məktəbin önündə". Mehriban xanım üzünü şagirdlərə tutaraq: "Gəlin şəkil çəkdirək", - dedi.

Uşaqlar Prezidentin və birinci xanımın ətrafında sıx birləşdilər. Təbii ki, hər birinin qəlbindən onlara daha yaxın dayanmaq keçirdi. Axı bu, adi bir görüş deyildi. Dövlət başçısı onların məktəbinə gəlmişdi. Həm də təzəcə köçüb gəldikləri kənddəki təzə məktəbə. Bu uşaqlar dünyaya göz açdıqları gündən məcburi köçkün adı daşımışdılar. İndi isə artıq köçkün deyillər, öz doğma bölgələrində, doğma kəndlərindədirlər.

→ 4

## Qardaşlığın, əbədi birliyin ifadəsi

Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmələri qürurdoğurucu haldır və Türkiyənin həmişə Azərbaycanın yanında olduğunun parlaq ifadəsidir. Bu iki qardaş ölkə daim bir yerdədir və bu birliyi heç bir qüvvə sarsıda bilməz.

Türkiyə Prezidentinin Zəngilana bu dəfə ki, səfəri də bunu bir daha təsdiqləyir. Bu səfər Azərbaycan dövlətinə, xalqına, Prezident İlham Əliyevə göstərilən böyük qayğıdan, uğurlarımıza bəslənilən hörmətdən, Azərbaycanın böyük gələcəyinə olan yüksək inamdan qaynaqlanır.

İşğaldan azad olunmuş ərazilərdə - Zəngilanda Beynəlxalq Hava Limanının açılışında Azərbaycan Prezidenti cənab İlham Əliyevlə bərabər Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı olduqca qürurvericidir. Bu bir millət, iki dövlətin qardaşlığının, əbədi birliyinin ifadəsidir.

Həm də dövlətimizin rəhbərinin düşünülmüş siyasətinin, Azərbaycan iqtisadiyyatının gücünün və davamlılığının təntənəsidir. Artıq Azərbaycan xalqı öz arzularına, müqəddəs istəklərinə qovuşub. İnsanlar tərk etdikləri od-ocaqlarına qayıdırlar, şəhər və kəndlərimiz yenidən qurulur, sürətlə tikilir və abadlaşdırılır. Əlbəttə, bu, hər bir azərbaycanlını, bizimlə daimi bir olan türk qardaşlarımızı da ürəkdən sevindirir.

Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilana səfərləri və eləcə də ərazidə beynəlxalq hava limanının açılışı bilavasitə bu rayonun gələcək inkişafına hesablanmışdır. Dövlətimizin rəhbərinin söylədiyi kimi, işğaldan azad olunan ərazilər cənnətə çevriləcək. Artıq bu real işlərdə öz əksini tapır. Həyata keçirilən mühüm layihələr, tədbirlər hər bir vətəndaşımızı sevindirir və gələcək böyük uğurlarımızdan xəbər verir.

→ 3

## Zəfər tarixini birgə yazan qardaşlar

Əlbəttə ki, Azərbaycan və Türkiyənin birgə addımlaması, qardaş prezidentlərin sarsılmaz bağları dünyada nümunəyə çevrilib və bütün bunlar hər bir azərbaycanlıya fəxarət hissi yaşadır.

Ona görə ki, qardaş ölkələrin əlaqələrinin dünyaya nümunə olacaq müttəfiqlik səviyyəsinə yüksəlməsi tarixi təməllərə söykənir. Təbii ki, xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir.

→ 3

## Azərbaycan qonşu ölkələrə qarşı heç bir cəbhədə yer almır

### İrandakı bəzi dairələr isə ölkəmizin regionda sülh missiyasına mane olmağa çalışır

Son günlər İranın Azərbaycanla sərhəddə hərbi təlimlər keçirməsi birmənalı qarşılanmayıb. Bunun əsas səbəbi isə Azərbaycan torpaqlarının işğal altında olduğu 30 ilə yaxın müddətdə burada heç bir təlimin keçirilməməsidir.

Yəni bu təlim Azərbaycanın yalnız ərazi bütövlüyünü təmin etdikdən sonra dövlət sərhədində reallaşdırılan tədbirdir.

Qonşu dövlətlə sərhəddə hansısa məqsədlə təlim keçirən ölkə anlamalıdır ki, Azərbaycanın məqsədi qurub-yaratmaqdır, nəqliyyat kommunikasiyasını inkişaf etdirməklə ölkələrarası əlaqələri daha yüksək səviyyəyə çatdırmaqdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Azərbaycana səfərində Prezident İlham Əliyevlə mətbuata birgə bəyanatında bu məsələyə toxunaraq qeyd etdi ki, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq reallıqdan uzaqdır: "Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq-Qərb, Orta dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək".

Amma Azərbaycanın gördüyü işlərdən, xüsusən, Zəngəzur dəhlizinin reallaşacağından qorxuya düşən bəzi antiazərbaycançı qüvvələr gerçəkliyi qəbul etməyərək yanlış addımlar atırlar. Bu isə xoş niyyət deyil. Hər kəs anlamalıdır ki, bu dəhliz regionun inkişafı baxımından önəmlidir və əsas məqsəd də sülhə, əmin-amanlığa töhfə verməkdir.

→ 3

**◆ Hüseyn Cavid - 140**

## Cavid sözünün qüdrəti

Ədəbi-ictimai fikir tariximizin parlaq dühalarından olan, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin dünyaya gəlməsinin 140-cı ildönümü tamam olur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə 24 sentyabr 2022-ci il tarixdə "Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdır. Sərəncamda böyük şairin irsinə yüksək qiymət verilir və xüsusi vurğulanır ki, Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır: "Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmişdir".

→ 12

## Pambığın alış qiymətinin artırılması fermerlərə yaxşı gəlir əldə etməyə imkan verir



→ 5

# Dinamik inkişaf edən Azərbaycan-Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur

## Macarıstanın Prezidenti zati-aliləri xanım Katalin Novaka

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi və xoş arzularımı çatdırıram.

Dinamik inkişaf edən Azərbaycan-Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Yüksək səviyyəli siyasi əlaqələrimiz iqtisadi, ticari, enerji, humanitar və digər sahələrdə səmərəli qarşılıqlı faydalı əməkdaşlığımız ilə müşayiət olunur.

İnanıram ki, strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi, beynəlxalq strukturlar, xüsusilə də Avropa İttifaqı çərçivəsində əməkdaşlığımızın genişləndirilməsi istiqamətində səylərimizi xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 oktyabr 2022-ci il*

# Azərbaycan energetiklərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda energetika sahəsinin inkişafında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**
Əliyev Vüqar İsmayıl oğlu
İbrahimov Hüseynqulu Xəlfə oğlu

**"Tərəqqi" medalı ilə**
Abbasova Alimə Səməd qızı
Ağayev Xasay İspar oğlu
Ağayev Nazim Mikayıl oğlu
Babayev Rafiq Ənvər oğlu
Cəfərov Təvəkkül Elbəyi oğlu
Əliyev Elçin Vəliş oğlu
Əliyev İlqar Bayram oğlu
Əliyev Təyar Adış oğlu
Əlizadə Hicran Müseyib qızı
Nəciyev Tahir İbiş oğlu
Piriyev Məcnun Barat oğlu
Rəsulov Səlvər Baxış oğlu
Rzayev Həsənbala Əlibala oğlu
Rzayev Ramazan Qüdrət oğlu
Tağıyev Mübariz Sabir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2022-ci il*

# İqtisadi Şuranın növbəti iclası keçirilib

Oktyabrın 21-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın növbəti iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarından irəli gələrək, işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlərin icrası, o cümlədən investisiya təşviqi mexanizmi, Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təşkili ilə bağlı görülmüş işlər, həlli vacib məsələlər və növbəti addımlar, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanunlarının layihələri, dövriyyədə olan xarici valyuta nominallı dövlət istiqrazlarının bir qisminin geri alınması və "AqrarKredit" QSC Bank olmayan Kredit Təşkilatı ilə bağlı bir sıra aktual məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Samir Şərifovun, Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərovun, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynovun, "Aqrarkredit" QSC-nin İdarə Heyətinin sədri Məmməd Musayevin məruzələri dinlənilib.

İclasın yekununda işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bir sıra layihələr və müzakirə olunan digər məsələlər barədə qərarlar qəbul olunub, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# İƏT İnformasiya Nazirlərinin İstanbul toplantısının Bəyannaməsinə Ermənistanda Azərbaycan xalqına məxsus abidələrin dağıdılması ilə bağlı bənd daxil edilib

Oktyabrın 22-də Türkiyənin İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin informasiya nazirlərinin 12-ci iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbirdə 57 dövlətdən məsul nazirlər və səlahiyyətli nümayəndələrin iştirak etdikləri iclasda Azərbaycan da nümayəndə heyəti ilə təmsil olunub.

Tədbirdə üzv dövlətlərin informasiya sahəsində əməkdaşlığının gücləndirilməsi, müasir və qlobal çağırışlar, feyk-nyus və dezinformasiya ilə birgə mübarizə kimi vacib məsələlər müzakirə edilib.

İclasın sonunda İstanbul Bəyannaməsi və müvafiq qətnamə qəbul edilib. Bəyannamə və qətnaməyə Azərbaycan tərəfindən aşağıdakı bəndlər əlavə edilib:

- İƏT Baş Katibliyinin İnformasiya Departamentinə humanitar mina problemi, hərbi təcavüz və münaqişələr nəticəsində islam mədəni irsinin dağıdılması kimi ciddi çağırışlarla üzləşən üzv dövlətlərə jurnalist səfərlərinin təşkil edilməsinə çağırış edir.
- Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycan ərazilərində islam dininə aid tarixi və mədəni abidələrin və izlərin qəsdən dağıdılması və təhqir olunması kimi səhv hallarının başqa ərazilərdə qarşısının alınması məqsədilə bu kimi məlumatların media və sosial şəbəkələrdə daha geniş yayılmasına çağırış edir.
- Üzv dövlətlərin media qurumlarını qeyri-müsəlman ölkələrində, xüsusilə yerli müsəlman icmalarının etnik təmizləməyə məruz qaldığı ərazilərdə islam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi hərəkətləri haqqında qlobal məlumatlılığı artırmağa çağırış edir.

Sonuncu bənddə Ermənistan ərazisində tarixən Azərbaycan xalqına məxsus olmuş mədəni və dini abidələrin qəsdən dağıdılması və izinin itirilməsinə eyham vurulur.

Bildiyimiz kimi, Ermənistan tarixi Azərbaycan torpaqlarında böyük cinayətlər törədib. Qərbi Azərbaycanda abidələrimizin, qəbiristanlıqlarımızın sökülməsi, o cümlədən İrəvanda Təpəbaşı məhəlləsindəki irsimizin hücuma məruz qalması bəşəri irsə aid olacaq abidələrimizin məhv edilməsi prosesinin tərkib hissəsidir. Ermənilər azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini silməklə yanaşı, onlara məxsus toponimlərə qarşı da soyqırımı həyata keçiriblər. Monoetnik dövlətin rəhbərliyi əvvəllər azərbaycanlıların məşkunlaşdıqları 703 yaşayış məntəqəsinin adını dəyişdirərək erməniləşdirib.

Ermənistanın uzun illərdir apardığı məqsədyönlü siyasət nəticəsində xalqımızın Ermənistan ərazisində yüz illərlə tarixə malik mədəni irsi tamamilə yox olmaq təhlükəsi ilə üzləşib, bir çox mədəni irs nümunələri məhv edilib. İndiki Ermənistan ərazisində əsrlər boyu yaşayan azərbaycanlıların XX əsr ərzində deportasiyası nəticəsində hazırda bu ölkədə bir nəfər də azərbaycanlı belə qalmayıb. Ermənistan tərəfindən həyata keçirilmiş mədəni soyqırımı azərbaycanlıların etnik təmizlənməsi ilə müşayiət olunub. Ermənilər bu gün də Azərbaycan xalqının mədəni irsini talayır, dağıdır, özününküləşdirir və mənşəyini dəyişdirirlər.

İstanbulda qəbul edilən bəyanat və qətnaməyə Azərbaycan xalqına məxsus olmuş mədəni və dini abidələrin qəsdən dağıdılması və izinin itirilməsi ilə bağlı bəndin daxil edilməsi beynəlxalq aləmin, o cümlədən qeyri-müsəlman ölkələrin diqqətini bu məsələyə çəkmək baxımından çox önəmlidir. Bu sənəd Azərbaycanın ermənilər tərəfindən silinməkdə olan tarixi-mədəni irsinin beynəlxalq təşkilatlarda qaldırılması, məsələnin qlobal platformalarda müzakirəyə çıxarılması üçün baza rolunu da oynaya bilər. Bundan əvvəl Ermənistandakı Azərbaycan irsinin və ölkəmizin işğaldan azad edilmiş torpaqlarında dağıdılmış mədəni abidələrin araşdırılması məqsədilə missiyanın göndərilməsi üçün UNESCO-ya da müraciət olunub. Təəssüf ki, bu təşkilat tərəfindən sözügedən istiqamətdə indiyədək hər hansı bir addım atılmayıb.

Qeyd edək ki, İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin informasiya nazirlərinin növbəti iclasının Azərbaycanda keçirilməsi barədə qərar qəbul olunub.

# Bakıda Beynəlxalq Xeyriyyə Yarmarkası təşkil olunub






Oktyabrın 22-də Bakıda Heydər Əliyev adına İdman Konsert Kompleksində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, BMT-nin Azərbaycanda Rezident Əlaqələndiricisinin Ofisinin və Qoşulmama Hərəkatının Gənclər Təşkilatının təşkilatçılığı ilə Beynəlxalq Xeyriyyə Yarmarkası təşkil olunub. Tədbirin təşkilinə, həmçinin Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA), Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası, Azərbaycan Gənclər Fondu, bp Azərbaycan və "iTicket.az" şirkətləri də töhfə verib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, yarmarka Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyi, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 3 ilinin tamam olması və hər il dünyada 24 oktyabr tarixində qeyd olunan BMT gününə həsr olunub. Tədbirə 40-dan artıq ölkə qatılıb.

Tədbirdə açılış nitqi ilə çıxış edən nazir Ceyhun Bayramov Azərbaycanda ilk dəfədir bu formatda təşkil olunmuş tədbirin xarici ölkələrin mədəniyyətinin, mətbəxinin və musiqilərinin ölkəmizdə təqdim edilməsi üçün faydalı olduğunu diqqətə çatdırıb. Bununla yanaşı, tədbirdən əldə olunacaq vəsaitin Azərbaycanda fiziki imkanları məhdud uşaqlarla bağlı həyata keçirilən layihənin maliyyələşdirilməsinə sərf olunacağının təqdirəlayiq hal olduğunu bildirib. Nazir ölkəmizin BMT-nin fəal üzvlərindən olduğunu, beynəlxalq səviyyədə sülhə, təhlükəsizliyə, davamlı inkişafa və humanitar sahələrə geniş töhfələr verdiyini, bu tədbirin ölkələr arasında dostluğun, əməkdaşlığın daha da inkişafına xidmət edəcəyini vurğulayıb.

Sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi vəzifələrini icra edən Quido Ambroso çıxış edərək təşkil olunmuş tədbirin yarmarkada iştirak edən ölkələrlə Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi baxımından əhəmiyyətini diqqətə çatdırıb. BMT tərəfindən həyata keçirilən layihələr və prioritet istiqamətlər barədə məlumat verib.

Tədbir çərçivəsində müxtəlif ölkələrin Azərbaycanda akkreditə olunmuş nümayəndəlikləri tərəfindən təmsil etdikləri ölkələrin mədəniyyətlərini tərənnüm edən milli mətbəx nümunələri və suvenirlər xeyriyyə məqsədilə satışa çıxarılıb. BMT-nin müxtəlif qərargahlarında illik əsasda həyata keçirdiyi bənzər xeyriyyə tədbirlərinin təcrübəsinə uyğun olaraq, yarmarkanın gedişatında bir sıra qiymətli hədiyyələrin qazanılması üçün müsabiqə təşkil edilib. Tədbirdə iştirak edən ölkələrin və Azərbaycanın milli rəqs və musiqi nömrələrindən ibarət geniş mədəni proqram nümayiş olunub.

Tədbir çərçivəsində eyni zamanda, Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) tərəfindən təşkil olunmuş sərgidə ölkəmiz tərəfindən həyata keçirilən beynəlxalq yardım fəaliyyətinə dair şəkillər nümayiş olunub, eləcə də informativ bukletlər qonaqlara təqdim edilib.

Tədbirə giriş və müsabiqədə iştirak üçün biletlərin satışından, eləcə də yarmarkada həyata keçirilən satışlardan əldə olunan ümumi vəsait BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycanda fiziki imkanları məhdud uşaqlarla bağlı həyata keçirdiyi layihənin maliyyələşdirilməsinə sərf olunacaq.

# Azərbaycan Ordusunun hərbi qulluqçuları NATO kursunda iştirak ediblər

Müdafiə Nazirliyinin NATO ilə 2022-ci il üçün əməkdaşlıq proqramı çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Macarıstan Respublikasında keçirilən "Beynəlxalq Hərbi Müşahidəçilər kursu"nda iştirak ediblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kurs müddətində hərbi münaqişələr zonasında beynəlxalq hərbi müşahidəçilərin fəaliyyət və davranışlarının öyrədilməsi məqsədilə mühazirələr və praktiki məşğələlər keçirilib.

Beynəlxalq hərbi müşahidəçilər kursunu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara diplomlar təqdim olunub.

Qeyd edək ki, beynəlxalq kursa 15 ölkə üzrə hərbi qulluqçular cəlb edilib.

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Oktyabrın 21-i saat 22:30-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qeyd olunan istiqamətdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Türkiyə-Azərbaycan birliyinin növbəti təntənəsi



## 26 oktyabr 2021-ci il

Prezident İlham Əliyev qalib komandan kimi Türkiyə Prezidenti, qardaşı Rəcəb Tayyib Ərdoğanı Qarabağın ilk "hava qapısı" olan Füzuli Beynəlxalq Hava Limanında qarşılayır. Prezidentlər açılış rəmzi olan qırmızı lenti kəsib xeyir-dualarını verirlər.

Ardınca dövlət başçıları Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olur, sonra isə Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyurlar. Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olduqdan sonra Ağalı kəndində hər iki dövlətin prezidentləri mətbuata birgə bəyanatlarla çıxış edirlər.

İlham Əliyev bəyan edir ki, işğaldan azad edildikdən sonra həm Şuşada, həm də Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, atılan birgə addımlar tarixdə əbədi qalacaq: "Həmçinin bu tarixi biz birlikdə yazırıq, necə ki bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik".

## 20 oktyabr 2022-ci il

Müzəffər Ali Baş Komandan İlham Əliyev Türkiyə Prezidenti, qardaşı Rəcəb Tayyib Ərdoğanı Zəngəzurun ilk "hava qapısı" olan Zəngilan Beynəlxalq Hava Limanında qarşılayır. Liderlər Zəngilan Hava Limanının, "Dost Aqropark" "ağıllı kənd təsərrüfatı" kompleksinin birinci mərhələsinin açılış mərasimlərində iştirak edib, Cəbrayıl rayonunda Qumlaq dəmir yolu stansiyasının, Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoyurlar. Sonra prezidentlər mətbuata birgə bəyanatlarla çıxış edirlər.

# Zəfər tarixini birgə yazan qardaşlar

### Bu gün regional məsələlərdə, hətta dünya çapında Azərbaycan və Türkiyə strateji tərəfdaşlığı çox önəmli amilə çevrilib

Əlavə edək ki, bu tarix 44 günlük Vətən müharibəsində Zəngilanın işğaldan azad edilməsinin ikinci ilinə təsadüf edir. İlham Əliyev də ilk olaraq bu məqama toxunaraq deyir: "Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli Hava Limanını bir yerdə açdıq, bu gün Zəngilan Hava Limanını açdıq. Yəni bu, onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik. Bugünkü gün Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli bir gündür. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır".

Prezident vurğulayır ki, görülən işlər Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Çünki hər iki qardaş ölkə bütün məsələlərdə birlikdə olub və bundan sonra da birgə olacaq. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Şuşa Bəyannaməsi isə bu birliyi daha da möhkəmləndirməklə yanaşı, dünyaya mesaj verdi. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Əgər kimsə yenə də hər iki ölkəyə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrin icra olunmasını hər dövlətin görə biləcəyi iş olmadığını söylədi: "İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını həqiqətən müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir".

Türkiyə Prezidenti həmçinin dedi ki, dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir: "Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır. Bu gün Zəngilanda açılışını etdiyimiz beynəlxalq hava limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə bir mühüm layihədə türk şirkətlərinin də yer alması bizim üçün ayrıca bir iftixar mənbəyidir".

Göründüyü kimi, cəmi ilyarım ərzində Azərbaycan işğaldan azad edilmiş torpaqlarında iki beynəlxalq hava limanı, avtomobil yolları, müxtəlif ictimai-iaşə obyektləri, yaşayış yerləri inşa edib. Bütün bunlar əlbəttə ki, Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Özü də nəzərə almalıyıq ki, ölkəmiz bunu heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan reallaşdırıb.

Həm ötən il oktyabrın 26-da, həm də bu il oktyabrın 20-də yaşanan hadisələr Azərbaycan və Türkiyə qardaşlığının sarsılmazlığını dünyaya bir daha bəyan etmiş oldu. Çünki dünya Azərbaycan-Türkiyə qardaşlığına aid daha bir tarixi hadisənin şahidi oldu. Xüsusən də Qarabağ və Şərqi Zəngəzurda keçirilən tədbirlərin həmin ərazilərin azadlığı tarixində reallaşması rəmzi məna kəsb edir.

Əlbəttə ki, Azərbaycan və Türkiyənin birgə addımlaması, qardaş prezidentlərin sarsılmaz bağları dünyada nümunəyə çevrilib və bütün bunlar hər bir azərbaycanlıya fəxarət hissi yaşadır. Ona görə ki, qardaş ölkələrin əlaqələrinin dünyaya nümunə olacaq müttəfiqlik səviyyəsinə yüksəlməsi tarixi təməllərə söykənir. Təbii ki, xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir.

Ötən il Qarabağa səfərindən sonra Türkiyə Prezidenti Böyük Millət Məclisində çıxış edərkən bildirmişdi ki, Azərbaycan barmaqla göstərilən nümunəvi ölkələr arasında yer alacaq. Çünki qardaş ölkədə fərqli inkişaf var: "Azərbaycan çox ciddi bir inkişafın, dirçəlişin nümunəsini göstərir. Aramızda olan bu həmrəyliyin davam etməsi ilə Azərbaycan çox qısa zamanda barmaqla göstərilən nümunəvi ölkələr arasında yer alacaq".

Bu gün İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi misli görünməyən quruculuq işləri həqiqətən də Azərbaycanın nəyə qadir olduğunu dünyaya bir daha nümayiş etdirir. Bu prosesdə Türkiyənin dəstəyi isə gücümüzə güc qatır. Bu əbədi birlik isə göstərir ki, bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ikinci ölkələr yoxdur. İlham Əliyevin söylədiyi kimi, regional məsələlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Qardaşlığın, əbədi birliyin ifadəsi

*Əvvəli 1-ci səh.*



Prezidentlərin Zəngilanda "Dost Aqropark" "ağıllı kənd təsərrüfatı" kompleksinin birinci mərhələsinin açılışında, Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, "Ağıllı Tingçilik" və "Dostluq meşəsi" Kompleksinin, Cəbrayıl rayonunda Qumlaq dəmir yolu stansiyasının təməlqoyma mərasimində iştirakları və görülən işlərə böyük dəyər vermələri göstərir ki, tez bir zamanda işğaldan azad olunmuş bütün ərazilərdə həyat canlanacaqdır. Mətbuata verdikləri bəyanatlarda dövlət rəhbərləri bunu aydın ifadə ediblər.

Rəcəb Tayyib Ərdoğan demişdir: "Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük".

Bu, hər bir Azərbaycan vətəndaşını qürurlandıran və sevindirən ifadələrdir. Bu, dövlətimizə, xalqımıza, rəhbərimizə verilən yüksək qiymət, gələcək uğurlarımıza zəmanətdir. Xalqımız bu diqqəti həmişə, xüsusilə 44 günlük müharibə günlərində daha çox hiss etdi. Biz hər an, hər gün Türkiyəni, türk rəhbərini, türk qardaş və bacılarımızı yanımızda gördük, onların səsini yaxından eşitdik.

Azərbaycan Prezidenti İlham Əliyev də birliyimizə, qardaşlığımıza böyük önəm verərək bildirdi: "İkinci Qarabağ savaşından sonra Türkiyə - Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanənin tələbidir".

Bu ifadələr hər iki dövlətin yol xəritəsi, türk və azərbaycanlıların ürək səsidir, müqəddəs məqsədidir. Birliyimiz əbədi, yolumuz aydın, istəyimiz sülh, azadlıq, əmin-amanlıq, dostluqdur. Bu amal dövlətimizi ucaldıb və bundan sonra da ucaldacaqdır.

***Tahir RZAYEV, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Azərbaycan qonşu ölkələrə qarşı heç bir cəbhədə yer almır

### İrandakı bəzi dairələr isə ölkəmizin regionda sülh missiyasına mane olmağa çalışırlar

*Əvvəli 1-ci səh.*

## Azərbaycanı məqsədlərini reallaşdırmaq üçün regionda çəkindirəcək heç bir güc yoxdur

Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Sahib Alıyev qəzetimizə açıqlamasında deyib ki, dövlətlər hərbi təlimləri adətən iki məqsədlə - ya qorxduqları, ya da qorxutmaq üçün keçirirlər.

Deputat 30 il ərzində Azərbaycanla sərhədboyu təlim keçirməyən İranın indi belə bir addım atmasını bu iki məsələ ilə əlaqələndirir: "Ola bilər ki, bu təlimlərin arxasında hər iki niyyət gizlənir. Qorxutmaq məsələsinə gəldikdə bu, alınmayacaq. Elə təlimlərin keçirildiyi gün Zəngəzur bozqırlarına buraxılan ceyranlar, Zəngilanda açılan beynəlxalq hava limanı, təlimlər gedən yerin bir addımlığında baş tutan digər quruculuq prosesləri ilə Azərbaycan göstərdi ki, onu öz məqsədlərini reallaşdırmaq üçün həm Zəngəzurda, həm də regionda çəkindirəcək heç bir güc və qüvvə yoxdur. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu regionda iki qardaş dövlətin icazəsi olmadan heç nə həyata keçirilə bilməz".

Sahib Alıyev deyir ki, bəzi qüvvələr Azərbaycanın güclənməsində özlərinin zəifləməsini görürlər. Buna görə müəyyən əfsanələr uydurur və hədəfə dəyməyən hədələr səsləndirirlər. İrandakı bəzi dairələrin səsləndirdikləri hədələr kimi, təlimləri də boş və mənasızdır. Bu, onların ölkələrinin imicini korlamaqdan başqa yaxşı heç nə vəd etmir.

Deputat İkinci Qarabağ savaşı zamanı qonşu ölkənin ərazisindən Ermənistana silah-sursat, terrorçu dəstələrin daşınmasına şərait yaratdığını xatırladaraq bildirir ki, bütün bunlara baxmayaraq, Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra, həmçinin İranın Ermənistanla sıx əməkdaşlığı haqqında daha çox məlumatı olan Prezident İlham Əliyev həmin ölkə ilə sərhədləri dost sərhədlər adlandırdı: "Bu davranışın qarşılığında İran rəhbərliyinin etdiyi hərəkət, təbii ki, müsbət qarşılana bilməz. Yaxşı olar ki, bu təlimlərə sərf edilən vəsait vəziyyəti getdikcə çətinləşən İran əhalisinin güzəranının yaxşılaşdırılmasına yönləndirsinlər".





## İran Azərbaycan kimi qonşunun qədrini bilməlidir

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu əməkdaşımıza bildirib ki, Azərbaycanın istər beynəlxalq münasibətlər sistemində, istərsə də əməkdaşlıqda tutduğu mövqe, həyata keçirdiyi fəaliyyət heç bir halda başqa dövlətlərin maraqlarına xələl gətirmir və ya onlara qarşı yönəldilməyib.

Deputat deyir ki, Azərbaycan dövləti ilə həm Qərb, həm də Şərq arasında çox konstruktiv münasibətlər mövcuddur. Azərbaycan həm Avropa İttifaqında, həm də Avrasiya platformasında kifayət qədər ehtiramla qəbul olunan dövlətdir: "Prezident İlham Əliyev hər iki müstəvidə böyük hörmətlə qarşılanır, onun şəxsiyyətinə böyük ehtiram var. Bu ona dəlalət edir ki, Azərbaycan hər zaman dövlətlər arasında dinc, konstruktiv münasibətlərin inkişafında maraqlı olan ölkədir. Eyni zamanda dövlətimiz həmişə öz mövqeləri ilə əməkdaşlığın inkişafında, yeni əlaqələrin istiqamətinin müəyyənləşməsində maraqlı olduğunu nümayiş etdirir. Bu baxımdan xüsusilə qeyd etmək lazımdır ki, Cənubi Qafqaz regionunda Azərbaycanın mövqeyi, təşəbbüsləri bütün region ölkələrinin maraqlarına uyğundur və rifahlarına xidmət edə bilər".

Deputat hesab edir ki, geniş əməkdaşlığın, isti siyasi münasibətlərin olduğu qonşu İranın bəzi narahatlıqları başadüşülən deyil. Azərbaycan hər zaman qonşularımızla, o cümlədən İranla əməkdaşlığın dinc məcrada inkişaf etdirilməsinin tərəfdarı olub. Nəzərə almaq lazımdır ki, Azərbaycan-Rusiya-İran üçtərəfli əməkdaşlıq platforması mövcuddur. Azərbaycanın və İranın birgə iştirakı ilə Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi reallaşdırılmaqdadır. Əməkdaşlıq üçün kifayət qədər ortaq mövqe və maraqlar var. Bunların qorunub saxlanılması, daha da inkişaf etdirilməsi Azərbaycanın maraqlarına nə qədər uyğundursa, bir o qədər də İrana uyğundur.

Elşad Mirbəşiroğlu İranın Azərbaycanın sərhədlərinə yaxın ərazidə hərbi təlimlər keçirməsinə belə münasibət bildirir: "2018-ci ildə ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri olan Con Bolton regiona səfər edən zaman tək məqsədi region ölkələrini İrana qarşı kökləmək idi. Azərbaycanın birmənalı mövqeyi ondan ibarət oldu ki, qonşu ölkələrə qarşı heç bir cəbhədə yer almayacaq. Bu baxımdan İran Azərbaycan kimi qonşunun qədrini bilməlidir".

Con Boltonun Ermənistandan daha ümidli qayıtdığını xatırladan deputat əlavə edir ki, onun səfərindən sonra ABŞ-nin Ermənistandakı səfirliyinin heyətinin sayı 150-dən 1500-ə qaldırılmışdı. Yəqin ki, Ermənistanla İrana qarşı ayrıca sövdələşmə əldə olunmuşdu. Ermənistanın və ermənilərin xislətinə bələd olanlar buna təəccüblənməzlər.

Onun sözlərinə görə, İran ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfərindən narahat olmalıdır. Nəzərə almaq lazımdır ki, ABŞ ilə İran arasında münasibətlər olduqca gərgindir. Belə olan halda Ermənistanın Qərbin İrana xoş münasibəti olmayan dairələri ilə sıx təmasları İranda narahatlıq yaratmalıdır. Azərbaycanın heç bir addımında, mövqeyində İranı narahat edəcək məqam yoxdur. Bundan sonra da dinc qonşuluq münasibətləri davam edəcək. İran Azərbaycanla daha səmimi davranarsa, bu, bütövlükdə regionun həm təhlükəsizlik, həm də əməkdaşlıq rifahına təsir göstərəcək.

Deyilənlər də göstərir ki, Azərbaycanın regionda sülhü, sabitliyi, təhlükəsizliyi təmin etmək üçün gördüyü işlərdən, həyata keçirdiyi böyük layihələrdən qorxmaq lazım deyil. Dövlət sərhədində nümayiş xarakterli belə hərbi təlimlərin keçirilməsi qorxutmaq məqsədi daşıdığı variantda belə bunun heç bir mənası olmadığını anlamaq elə də çətin deyil.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Azərbaycanla təhdid dilində danışmaq mümkün deyil

### İrandakı məlum qüvvələrin ölkəmizə qarşı bədxah münasibəti yenə də puç olacaq

İranın Azərbaycanla sərhəddə keçirdiyi genişmiqyaslı hərbi təlimlər haqlı olaraq suallar doğurur: bu təlimlər, eləcə də sınaqdan keçirilən məsələlər, Araz çayının keçilməsinin məşqi hansı məqsədi güdür? Eləcə də İran dövləti nədən narahatdır?

Azərbaycanın cənub qonşusu ilə bağlı yürütdüyü dostluq və mehriban qonşuluq siyasəti göstərir ki, İranın ölkəmizdən hər hansı təhlükə gözləməsi absurddur. Tarixi təcrübə də göstərir ki, respublikamız heç vaxt İran əleyhinə olan beynəlxalq kampaniyalara qoşulmayıb. Bakı öz cənub qonşusu ilə əlaqələrə həmişə xüsusi diqqətlə yanaşıb, münasibətlərin yüksələn xətlə inkişafına çalışıb. Azərbaycan ikitərəfli əlaqələrə azacıq da olsa, kölgə salacaq addım atmayıb, beynəlxalq müstəvidə İranın milli maraqlarına zidd, xüsusən nüvə proqramı ilə bağlı müzakirələrdə bu ölkəyə qarşı olan təşəbbüsləri dəstəkləməyib.

Hazırda İranda insanların etirazları baş verməkdədir. Baş örtüyünə qarşı olan etirazlar bu ölkənin əksər vilayətlərini bürüyüb. Lakin Azərbaycan heç vaxt İranın daxili işlərinə qarışmayıb və cənub qonşusunda əmin-amanlığın olmasını arzulayıb.

Bütün bunlara rəğmən Azərbaycan ərazilərinin işğalda olduğu dövrdə heç vaxt İranın səmimi dəstəyini hiss etməyib. Əksər dövlətlər kimi, İran da sadəcə problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu deməklə kifayətlənib. Azərbaycanla sərhədlərinin 30 ilə yaxın işğal altında qalması da İranı, ümumiyyətlə, narahat etməyib və bir dəfə də olsun bu barədə Tehrandan bir açıqlama verilməyib.

Lakin Azərbaycan dövləti torpaqlarını işğaldan azad etdikdən sonra, xüsusən son həftələrdə İran rəsmiləri davamlı şəkildə sərhəd məsələlərini qabardır, bölgədə sərhədlərin pozulmasına və ya dəyişilməsinə yol verməyəcəklərini bildirirlər. Birincisi, bölgədə heç bir sərhəd dəyişikliyi baş vermir. İkincisi isə, yenə sual meydana çıxır, Azərbaycanla sərhədlərinin 30 ilə yaxın pozulmuş vəziyyətdə qalmasına susan, biganə qalan İran indi niyə belə narahatdır?

Azərbaycanın Ermənistanla sərhədlərini bərpa etməsi, Ermənistanın delimitasiyaya məcbur olunması, o cümlədən Zəngəzur dəhlizinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər İranı əl-ayağa salıb. Məsələyə bu prizmadan yanaşdıqda görünür ki, İran Azərbaycanın qətiyyəti və iradəsi ilə regionda yaranan yeni reallıqları, türk dünyası arasında yaranacaq bağlantıları həzm edə bilmir. Hələ bu azmış kimi, son günlərdə İranın Ermənistana pilotsuz uçuş aparatları satacağı barədə məlumatlar yayılmaqdadır.

Yeri gəlmişkən, Azərbaycan ictimaiyyətini narahat edən, düşündürən əsas məsələlərdən biri də Ermənistanın islam abidələrini təhqir etməsinin iranda sükutla qarşılanmasıdır. 30 ilə yaxın işğal dövründə ermənilər Qarabağ və Şərqi Zəngəzurda bütün məscidləri dağıdıblar. Qismən salamat qalanlarını isə təhqir ediblər, içində donuz saxlayıblar. Bütün bunlar gün kimi aydın olsa da, faktlarla sübuta yetirilsə də, islam dövləti olan İran bir dəfə də olsun buna etiraz səsini ucaltmadı. Bəzi ölkələrdə baş verən hadisələrdən dolayı müsəlman əhalinin müdafiəsinə qalxan İranın nədən Ermənistanın təhqirlərinə qarşı sakit qalması haqlı olaraq bəzi suallar yaradır. Doğurdanmı İran münasibətlərdə səmimi deyil? Doğurdanmı İran islam dəyərlərinin təəssübünü çəkən dövlət deyil? Təəssüf ki, İranın Azərbaycanın qələbəsindən sonrakı davranışları və mövqeyi başqa cür düşünməyə əsas vermir.

Əhalisinin böyük hissəsi azərbaycanlılardan ibarət olan İranla Azərbaycan dövlətini ortaq, mədəni və mənəvi dəyərlər bağlayır. Lakin reallıqlar göstərir ki, bu dövlətin Azərbaycana olan münasibəti, regiondakı siyasəti, davranışları ortaq dəyərlərə mütənasib deyil.

Bu da diqqətdən kənarda qalmır ki, irimiqyaslı hərbi təlimlər əsasən hansısa mesajlar vermək məqsədilə keçirilir. Lakin Azərbaycanla təhdid dilində danışmaq mümkün deyil. İrandakı məlum qüvvələrin ölkəmizə qarşı bədxah münasibəti isə həmişə olduğu kimi, yenə də puç olacaq.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***



QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR
dirçəliş yolundadır



# Keçmiş məcburi köçkünlər xilaskarı doğma evlərində qarşılayırlar



*Əvvəli 1-ci səh.*

Ömürlərinin bir qərinəlik kəsimində maddi sıxıntılara, yoxsulluqlara da tuş gəlmişdilər, çadırlarda, vaqonlarda, yataqxanalarda acınacaqlı vəziyyətdə yaşamağa da məcbur qalmışdılar. Amma onların bütün bu maddi çətinliklərini mənəvi məhrumiyyətləri ilə qiyaslamaq olardımı?!

Təbii ki, bu müddət ərzində bayram da etmişdilər, elçiliyə də getmişdilər, nişan aparıb toy da çaldırmışdılar, lakin bu məclislərin heç birində ürəkdən sevinib qol açmamış, gülə bilməmişdilər. Qəlblərindəki buruqluq, həsrət, nisgil heç zaman keçməmişdi, hər zaman, hər yerdə könüllərinə Vətən düşmüşdü. Doğma yurdlarına əllərinin yetməməsi, ünlərinin çatmaması ürəklərində qüssəqarışıq qəzəb hissindən doğan əzablı işgəncəyə çevrilmişdi. Şuşaya, Laçına, Kəlbəcərə, Ağdama, Füzuliyə, Zəngilana, Qubadlıya, Cəbrayıla - cənnət yurdlarımıza həsrət qalmağın ağrı-acısını yaşamışdılar…

Fiziki qanunauyğunluqdandır, yoxsa ruhun tələbindəndir bilinməz, amma bir danılmaz gerçəklik var: torpaq adamı özünə çəkir. Və bu insanları da ötən 30 il ərzində qarşısıalınmaz qüvvə ilə Vətən özünə cəzb edirdi…

Dədə-baba torpaqlarından zorla didərgin salınaraq ölkənin dörd bir yanına pərən-pərən düşmüş yüzminlərlə vətəndaşımızdan danışırıq, keçmiş məcburi köçkünlərimizdən…

## Əbədi qayıdış

Bəli, indi yüzminlərlə vətəndaşımızın köçkünlüyü haqqında keçmişdə danışırıq, çünki artıq onların Vətən qübarları dinib, torpaq həsrətləri bitib. İllərdir vətəndə qəribçilik çəkən bu insanlarımız ağalılılar kimi, əzəli yurdlarına əbədi qayıdış üçün günləri sayırlar və hər ötən an onları bu xoşbəxt məqama yaxınlaşdırır.

Azərbaycan Vətən müharibəsini zəfərlə yekunlaşdırdıqdan dərhal sonra işğaldan azad etdiyi ərazilərdə nəhəng tikinti və quruculuq işlərinə başlayıb. 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış məcburi köçkünlərin maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün misilsiz layihələr gerçəkləşdirilir.

Ermənі vandalları tərəfindən tamamilə darmadağın edilən ərazilərimiz sürətlə dəyişir, viran qoyulmuş yurdlarımız dirçəldilir. Bu ərazilərdə infrastruktur yenilənir, yollar çəkilir, beynəlxalq hava limanları tikilir (artıq bunlardan ikisi - Füzuli və Zəngilan beynəlxalq hava limanları istifadəyə verilib). Eyni zamanda vandal düşmənin dağıtdığı tarixi, mədəni, dini irsimiz bərpa olunur.

Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bütün bu misilsiz işlər birbaşa Prezident İlham Əliyevin nəzarəti altında həyata keçirilir. Dövlət başçısı mütəmadi olaraq həmin bölgələrimizə səfərlər edərək görülən işlərlə yerindəcə tanış olur, tapşırıqlarını verir. Tezliklə öz yurdlarına dönəcək məcburi köçkünlər üçün yüksək səviyyədə və təhlükəsiz həyat şəraitinin yaradılması üçün tədbirlər görür.

## Tariximizin ən möhtəşəm səhifələrindən biri

Prezident İlham Əliyevin şəxsi diqqəti, əzmi, gücü sayəsində tariximizin ən möhtəşəm səhifələrindən birini 19 iyul 2022-ci ildə qürurla çevirdik. Həmin gün, Vətən müharibəsindən sonra Böyük qayıdışa möhtəşəm start verildi, vaxtilə Ağalı kəndindən zorla didərgin salınan insanlarımız yurdlarına əbədi yaşamağa döndülər. O gün Ağalıya dönən insanların timsalında Vətən həsrətindən qurtulan, "məcburi köçkünlük yükü"ndən azad olan insanların necə xoşbəxtlik hissi yaşadığının şahidi olduq.

Ağalı kəndi Azərbaycanda ilk "ağıllı kənd" konsepsiyası ilə qurulmuş möhtəşəm məkandır. Pilot olaraq Zəngilanda icra edilməsinə başlanılan layihə əsasında burada "ağıllı kənd" salındı.

Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı texnologiya"larla təchiz edilmiş evlərlə təmin olunublar. Burada yaşayan əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll edilir.

## "Xoş gəlmisiniz, cənab Prezident!"

Hələ ötən il İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura erməni işğalından azad olunduqları qurtuluş günlərində o yerlərin doğma sakinləri, keçmiş məcburi köçkünlərlə birgə yollanması hər birimizin yaddaşındadır. Həmin görüşlərin hər birində İlham Əliyev keçmiş köçkünləri ev sahibi kimi salamlayır, "Xoş gəlmisiniz!" deyir və eyni zamanda əminliklə vurğulayırdı ki, tezliklə onlar vətənlərinə dönəcək və özləri ona doğma ocaqlarında "Xoş gəlmisiniz, cənab Prezident!" söyləyəcəklər.

Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərə verdiyi bu söz 2022-ci il oktyabrın 19-da Ağalı kəndində reallığa çevrildi.

Həmin gün ağalılılar böyük sevinclə onları doğma yurdlarına qovuşduran müzəffər lider İlham Əliyevin pişvazına çıxdılar, əziz qonaqlarını qarşılamağın fəxarətini yaşadılar, onu "Xoş gəlmisiniz, cənab Prezident!" deyərək sevinclə salamladılar.

Bu dəfə ağalılılar fəxrlə öz "ağıllı kənd"lərini İlham Əliyevlə, Mehriban xanımla birgə gəzdilər, oradakı xoşbəxt yaşamlarından danışdılar, sevinclərini bölüşdülər. "Qanlı gözyaşları ilə çıxmışdıq, sevinc gözyaşları ilə qayıtdıq", "Həsrətini çəkirdik. Prezidentimizin sayəsində biz torpaqlarımızda çox gözəl şəraitdə yaşayırıq", "Çox sağ olun, hər şeyə görə təşəkkür edirik. Belə gözəlliklərə, bizim qayğımıza qaldığınıza görə çox sağ olun, cənab Prezident. Bizə bu cür şərait yaratmısınız", - deyib minnətdarlıq etdilər...

## Azad edilmiş torpaqlara ilk gələn uşaqlar

Oktyabrın 19-da Prezident İlham Əliyevin və Mehriban xanımın Şərqi Zəngəzurda 30 ilin ardından ilk dəfə məktəb zəngi səslənən təhsil ocağında, Ağalı kənd orta məktəbində şagird-müəllim kollektivi ilə görüşü də yaddaqalan oldu. Dövlət başçısı və xanımının əzəli torpaqlarımıza əbədi kök salmaq üçün dönən uşaqlarla bir-bir söhbət etmələri, onların gələcək peşələri ilə maraqlanmaları, tövsiyələr vermələri unudulmaz olaraq yaddaşlara köçdü.

"Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız" deyən İlham Əliyev vurğuladı ki, "şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu yəqin ki, Ağalını heç görməyiblər. Onlar da işğal dövründə dünyaya gəliblər".

Bəli, 30 illik ağrı-acının ardından Qarabağ və Şərqi Zəngəzur xoşbəxt günlərə yol alıb. Buradakı yurdlarımıza yeni nəfəs verilir, həyat qaytarılır.

Artıq Ağalı sakinləri, ağalılı uşaqlar, bu yurdun doğma sakinləri öz torpaqlarında yaşamağa, qurub-yaratmağa gəliblər.

Tezliklə ağalılılar kimi, digər işğaldan azad edilən bölgələrimizin də sakinləri əzəli torpaqlarına əbədi qayıdış edəcəklər, onlar da öz evlərində firavan həyat sürəcəklər.

Elə Ağalı sakinləri ilə görüşdə Prezident İlham Əliyevin dediyi kimi: "Sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Prezident İlham ƏLİYEV: "Gələcək bax budur"

*Əvvəli 1-ci səh.*

Təəssüratları aşıb-daşır, ürəkləri sözlə doludur. Elə bu vaxt onlara "Gedək, göstərin məktəbinizi, baxaq uşaqlar burada necə oxuyurlar? Sinif otaqlarına baxaq" deyilir. Özü də bu sözləri Prezident deyir, onlarla söhbətə başlayır və o qədər səmimi, o qədər təbii ki, elə bil öz balası, öz nəvəsi ilə danışır. Onlardan neçənci sinifdə oxuduqlarını, bundan əvvəl harada təhsil aldıqlarını soruşur. Şagirdlərdən bir neçəsi Sumqayıtda oxuduqlarını bildirir. Ağalıdan çox xoşları gəldiyini söyləyirlər. Kəndlərinin hətta Sumqayıtdan da gözəl olduğunu, xüsusilə buranın havasını çox xoşladıqlarını deyirlər.

Prezident uşaqların sözünə dəstək verir və aydın görünür ki, onlar bundan fərəh, qürur hissi keçirirlər: "Bax, sizi biz qaytarmışıq, havası da təmizdir, təbiəti də gözəldir, hər tərəf dağlar, meşələr. Burada həyat qaynayacaq. Bir azdan sonra başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu yəqin ki, Ağalını heç görməyiblər. Onlar da işğal dövründə dünyaya gəliblər. Amma torpaq çəkir insanı. Sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər".

Prezidentin şagirdlərin necə oxuduqları barədə sualının cavabında müəllimləri onların həvəslə təhsil aldıqlarını bildirdi: "Məktəbə gəldikləri vaxt buranı gördükdə inanın ki, o qədər çox gözəl hisslər yarandı. Sevinirdilər ki, çox gözəl məktəbdə təhsil alacaqlar".

Dövlət başçısı şagirdlərə tövsiyələrini verdi: "Yaxşı oxuyun. Çünki yaxşı oxumaq təkcə sizin üçün yox, ölkəmiz üçün lazımdır. Çünki sizin kimi uşaqlar gələcəkdə ölkəmizi idarə edəcəklər. Ona görə gərək siz bilikli olasınız, savadlı olasınız, həmişə vətənpərvər olasınız. Vətənpərvər olmaq üçün hər bir Azərbaycan vətəndaşının çox böyük haqqı var. Çünki biz bu torpaqlara qan tökərək qayıtmışıq. Bizim qəhrəman şəhidlərimiz öz canlarını fəda ediblər ki, bax, siz və sizin kimi yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağına qayıtsın… Sizin əsas vəzifəniz oxumaqdır, valideynlərin, müəllimlərin sözünə baxmaqdır və gələcəkdə yaxşı vətəndaş olmaqdır".

Sonra dövlət başçısı şagirdlərə onlarla birlikdə kəndin mərkəzinə baxmaq təklifini bildirdi. Yolboyu Mehriban xanım uşaqların asudə vaxtlarını necə keçirdikləri ilə maraqlandı. Qızlar Mehriban Əliyevaya onu görməyi çox arzuladıqlarını bildirdilər və birinci xanım onların yanına teztez gəlməyə çalışacağını deyəndə çox sevindilər.

Uşaqlar Prezidentə və xanımına təzə evlərini də çox bəyəndiklərini söylədilər. Dövlət başçısı bundan məmnunluğunu gizlətmədi: "Uşaqlar gəliblər öz dədə-baba torpağına. İndi görürsünüz, necə də gözəldir sizin doğma torpağınız, Vətəniniz, Ağalı kəndi".

Prezident Ağalının balaca sakinlərinin arzuları ilə, gələcəkdə hansı peşəni seçmək istədikləri ilə də maraqlandı. Çoxu hərbçi olmaq istədiyini bildirdi. Hətta məktəbli qızların biri də bu arzuda olduğunu dedi. Təbii ki, onların heç də hamısı hərbçi olmayacaq. Kimiləri hərbçi, kimiləri müəllim, həkim, mühəndis, inşaatçı olacaq, digər peşə və sənətlərə yiyələnəcək. "Hərbçi olacağam" dəmələri isə köksləriindəki vətənpərvərlikdən, yurd sevgisindən, tariximizə, xalqımızın qəhrəmanlığına sayğıdan irəli gəlir. Dövlət başçısının uşaqlarla xudahafizləşərkən "Gələcəyin hərbçiləri, sağ olun!" deməyində də sanki bir rəmzi məna vardı. Deməli, yurdu qoruyanlar həmişə olacaq. Düşmən bir daha buraya ayaq basa bilməyəcək. Biz bu yerlərə qayıtmışıq və burada həmişə olacağıq.

Ağalının mərkəzində isə Prezidentin diqqətini anasının qucağındakı körpə cəlb etdi. Ağalının on aylıq ən balaca sakini də Prezidenti, Ali Baş Komandanı, doğma torpaqları xilas edən və onun öz kəndində, öz yurdunda böyüməsinə, yaşamasına şərait yaradan Lideri salamlamağa çıxmışdı. Prezident uşağı qucağına götürdü və "Gələcək bax, budur" deyərək əslində bugünkü yaddaqalan, mənalı və çox gərəkli görüşün məzmununu ifadə etdi.

…Bizlərdən hər birinin yaddaşında təhsil illərində məktəbimizə müharibə və əmək qəhrəmanlarının, tanınmış alimlərin, yazıçıların gəlməyi silinməz iz buraxıb. Bu görüşlərin çoxlarımızın dünyagörüşünə, peşə seçiminə, həyata baxışına təsirsiz qalmadığını söyləsək, yəqin ki, səhv etmərik. Bu baxımdan dövlət başçısı, Ali Baş Komandan, dünya liderləri sırasında sayılıb-seçilən İlham Əliyevlə sözügedən görüş yeni Ağalının ilk sakinlərindən olan uşaqların həyatında böyük məna kəsb edir. Mübaliğəsiz deyək ki, bu görüşü onların hər biri öz ömürnaməsinə yazdı. Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata birgə bəyanatında çıxış edərkən dövlət başçısı həmin görüşdən təəssüratını belə ifadə etdi: "Biz qayıtmışıq, qan törərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yəni o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## *Kapitan Qurban QURBANOV:* "Vətən müharibəsində bir addım da olsun geri çəkildiyimiz əməliyyat olmadı"

"Zəngilan şəhəri və ətraf ərazilər də tam şəkildə təmizləndikdən sonra düşmənin qalan qüvvələri də geri çəkilməyə məcbur oldu. Bundan sonra bizə növbəti istiqamətlərdə tapşırıqlar verildi. Vətən müharibəsinin sonuncu gününə qədər müxtəlif istiqamətlərdə tapşırıqlar verildi və strateji əhəmiyyətli yüksəkliklər düşmən tapdağından azad olundu".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Dövlət Sərhəd Xidmətinin kapitanı Qurban Qurbanov söyləyib.

Kapitan qeyd edib ki, bizə bütün əməliyyatlarda yalnız irəli getmək tapşırılırdı: "Vətən müharibəsi müddətində bir addım da olsun geri çəkildiyimiz əməliyyat olmadı. Bütün istiqamətlərdə ancaq irəlilədik. Düşmənin qarşımıza çıxan canlı qüvvəsi tam şəkildə məhv edilirdi. Qalan qüvvələr isə qaçmaqla canını qurtarırdı, texnika və silah-sursatları isə bizim nəzarətimizə keçirdi".

Qurban Qurbanov bildirib ki, torpaqlarımızın azad olunmasına görə şəhidlərimizə borcluyuq. Allah şəhidlərimizə rəhmət etsin.

## *DSX-nin polkovniki:* "Erməni xüsusi təyinatlılarının Zəngilanı geri qaytarmaq cəhdi onlara baha başa gəldi"

"Soltanlı-Əmirvarlı istiqamətində düşmənin üçüncü səddi çətinliyi baxımından fərqlənirdi. Ermənistan ordusunun birinci və ikinci eşalonları əlindən çıxdığı üçün Soltanlı-Əmirvarlı onların bu istiqamətdə son dayaq nöqtəsi idi. Düşmən üçüncü eşalonu demək olar ki, Araz boyundan Cəbrayıl şəhərinə qədər xüsusi təyinatlı bölmələri ilə müdafiə edirdilər. Lakin biz düşmənin gözləntisinin əksinə olaraq, gecə sızma əməliyyatları etdik və qarşı tərəfə sarsıdıcı zərbə vurduq. Nəticədə isə düşməni ağır məğlubiyyətə uğratdıq. Əmirvarlı, Soltanlı istiqamətindəki və qədim Xudafərin körpüsü əməliyyatları uğurla başa çatdıqdan sonra növbəti tapşırıq Zəngilanın düşməndən azad olması oldu. Tapşırıq əsasında təminat və təchizatlarımızı normal vəziyyətə gətirərək Zəngilana doğru hərəkətə başladıq. Biz Araz çayı boyu və Zəngilan yolu ilə hərəkət edirdik. Həkəri çayı istiqamətində körpünün olmaması bizə bir az çətinlik törətdi. Araz çayı boyunca istiqaməti dəyişərək Zəngilan şəhərinin giriş nöqtəsi Oxçuçay üzərində körpünün ətrafına mövqelənərək rayonun kəşfiyyatını aparmaq üçün istiqamətlər üzrə bölündük".

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Zəngilan istiqamətində döyüşlərdə iştirak etmiş Vətən müharibəsi iştirakçısı, "Zəfər" ordenli, Dövlət Sərhəd Xidmətinin (DSX) polkovniki Nəsib Mirzəyev bildirib.

Polkovnik deyib ki, körpünün minalı olub-olmaması yoxlanılaraq şəhərin mərkəzinə sızma əməliyyatını həyata keçirtdik. Nəticədə düşmənin canlı qüvvəsini məhv edərək rayon azad edildi və bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məruzə olundu.

Sonra erməni xüsusi təyinatlı bölmələri rayonu ələ keçirmək üçün yenidən hücum etməyə cəhd göstərdi. Lakin onlar artıq anladılar ki, bu əməliyyat 1993-cü ildə Zəngilan şəhərinin dinc əhalisinə qarşı olan hücumla eyni deyil. Bu dəfə onları DSX-nin xüsusi təyinatlıları qarşıladı. Erməni silahlılarının hücumu onlara baha başa gəldi. Onlar məhv edildi, qalan heyət isə əsir götürüldü.

N.Mirzəyev daha sonra deyib ki, Zəngilanda qızıl yataqlarının olması həm də düşmən üçün böyük əhəmiyyət kəsb edirdi. Buranın məhsuldar əkin sahələrinin olması ermənilər üçün vacib idi.

Qeyd edək ki, Nəsib Mirzəyev Prezident İlham Əliyev tərəfindən "Zəfər" ordeni, "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.



# Heydər Əliyev ili 2023



# Ulu Öndərin yadigarı da uzunömürlü beynəlxalq neft-qaz sərgisidir

Əvvəli 1-ci səh.

Sərginin qədəmləri uğurlu oldu. İndi bu tədbiri "Əsrin müqaviləsi"nin müjdəçisi adlandıranlar heç də yanılmırlar. Çünki növbəti illərdə keçirilən sərgilər də əməkdaşlıq və tərəfdaşlıq üçün yeni-yeni körpülər saldı. Həmin tədbirlərdə neçə-neçə layihələr üçün ideyalar yarandı.

Prezident İlham Əliyev həmin dövrü xatırlayaraq demişdir: "O vaxt Azərbaycanı demək olar ki, dünyada tanımırdılar. Azərbaycan gənc müstəqil dövlət idi. Xüsusilə nəzərə alsaq ki, müstəqilliyimizin ilk illəri çox ağır keçirdi, Azərbaycanda iqtisadi, siyasi və hərbi böhran hökm sürürdü. Ermənistan torpaqlarımızı işğal etmişdir, 1993-cü ildə vətəndaş müharibəsi başlamışdır. Yəni bütün bu amilləri nəzərə alsaq, bir daha görürük ki, sərginin nə qədər böyük əhəmiyyəti olmuşdur. Çünki o vaxt bu sərgi vasitəsilə Azərbaycan öz neft potensialını dünyaya təqdim etdi. Azərbaycan bəyan etdi ki, o, investisiyalara açıq bir ölkədir. Azərbaycan inkişaf yolu ilə getmək, müasir dövlətə çevrilmək istəyir. Buna nail olmaq üçün əlbəttə ki, ilk növbədə ölkəmizə xarici sərmayə qoyulmalı idi. Xarici sərmayə üçün ən cəlbedici sahə təbii ki, neft sahəsi idi".

İlk sərgi bizim üçün bir neçə səbəbdən mühüm əhəmiyyət kəsb edir. Onlardan biri də odur ki, sərgidə Ulu Öndər Heydər Əliyev iştirak etdi və həmişə olduğu kimi dərin məzmunlu nitq söylədi.

İlk sərgiyə 20 ölkəni təmsil edən 180 şirkət gəlmişdi. Sərgidə Azərbaycanın da neft sənayesi öz əksini tapmışdı. Ümummilli Lider Heydər Əliyevin xarici qonaqlarla səmimi görüşləri oldu. Ulu Öndər tədbirdəki çıxışında ölkəmizin neft sənayesinin keçdiyi şərəfli yoldan bəhs etdi, onun yeni mərhələ qarşısında olduğunu vurğuladı. Çıxışda deyilirdi ki, həmin vaxtadək Azərbaycanda 1 milyard 300 milyon tondan çox neft və külli miqdarda qaz çıxarılıb. Bununla belə, ölkənin yenə də böyük neft və qaz yataqları var. Dünya təcrübəsində dənizdə neft çıxarılmasına ilk dəfə Azərbaycanda başlanıb. Xüsusilə son onilliklərdə neft və qaz yataqlarında yeni texnika və texnologiyadan istifadə istiqamətində böyük işlər görülüb. Ümumiyyətlə, ötən dövr ərzində əldə edilən böyük nailiyyətlər, zəngin təcrübə gələcək işlər üçün çox yaxşı bünövrədir.

Ulu Öndər çıxışında onu da bildirmişdi ki, "neftçi olmaq Azərbaycanda ən şərəfli peşə sayılır". Neftçilərimizin təcrübəsindən istifadə etmək üçün səylər birləşdirilməlidir. Azərbaycan xalqı yeraltı sərvətlərindən müstəqil şəkildə, ölkənin mənafeyinə uyğun istifadə olunmasına imkan verəcək. Bununla yanaşı, dünyanın, xüsusilə Qərb ölkələrinin iri neft şirkətlərinin Azərbaycan neftinə böyük marağı əməkdaşlığın zəruriliyini şərtləndirir. Siyasi və iqtisadi əməkdaşlıq bu prinsip üzərində inkişaf edəcək.

Ulu Öndər özünəməxsus qətiyyət və nikbinliklə nəzərdə tutulan böyük işlərin uğurlar gətirəcəyini bildirirdi: "Bu tarixdən böyük fəxrlə danışmaqla, Azərbaycan neftçilərinin bir çox nəsillərinin əməyini yüksək qiymətləndirməklə yanaşı, bu gün eyni zamanda qeyd edirəm ki, indi ölkəmizin neft sənayesinin inkişafında yeni mərhələ açılır. Bu mərhələ Xəzər dənizində neft və qaz yataqlarının işlənməsində Qərbin iri neft şirkətlərinin fəal iştirakı ilə bağlıdır. Əmin edirəm ki, Azərbaycan neftçiləri sizin layiqli tərəfdaşınız olacaq. Ümidvaram ki, Azərbaycana gələn Qərbin neft şirkətləri ölkəmizin neft və qaz sənayesinin bütün tarixi ərzində əldə olunmuş nailiyyətləri həmişə yüksək qiymətləndirəcəklər".

Beləliklə, Xəzər neft-qaz sərgisinin də müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Çünki 1994-cü ildə mövcud olan şəraitdə belə bir tədbirin baş tutması yalnız Ulu Öndərin dünyadakı nüfuzu, fövqəladə təşkilatçılığı və sonsuz qətiyyətinin nəticəsi idi. O zaman qonşu respublikanın Azərbaycana qarşı apardığı müharibədə təzəcə atəşkəs elan olunmuşdu. Ölkədə iqtisadi böhran hökm sürürdü. Bir sözlə, Azərbaycan çox ağır günlərini yaşayırdı.

Ötən illər ərzində sərgi məkan və mahiyyətini dəyişməyib. Onun əhatə dairəsi genişlənib, əhəmiyyəti artıb və buna uyğun olaraq adı da təkmilləşib. İlk dəfə keçiriləndə o, "Xəzər dənizində neft-qaz hasilatına dair sərgi" adlanırdı. Daha sonra "Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgisi" kimi tanındı. Üstəlik, hər il sərgi ilə yanaşı, eyniadlı konfrans da keçirilməyə başladı. Neçə illərdir neft-qaz sərgisinin keçirildiyi günlərdə paralel olaraq energetika sərgisi də təşkil olunur.

Bu il paytaxtımız "Bakı Enerji" həftəsinə evsahibliyi etdi. Neft-qaz sərgisi bu tədbirin, belə demək mümkünsə, bazası sayılırdı. Ümumiyyətlə, ötən illər ərzində sərgi iştirakçılarının - dünyanın neft, qaz və energetika sahəsində çalışan aparıcı mütəxəssislərin görüş yeri dəyişməyib, onlar Bakıda bir araya gəliblər. Yalnız koronavirus pandemiyası ilə bağlı 2020-ci və 2021-ci illərdə tədbirin keçirilməsində fasilə yaranmışdı.

Sərgi keçirildiyi ilk vaxtlardan respublika rəhbərliyinin diqqət mərkəzində olub. Hər il Prezident İlham Əliyevin sərginin açılış mərasimində iştirakı tədbirin yüksək statusunu bir daha təsdiqləyir. Eləcə də bir sıra dövlətlərin rəhbərləri hər dəfə sərginin açılışı münasibətilə Prezidentimizə təbrik məktubları göndərirlər.

Bu il sərgilərdə və forumda 30 ölkədən 249 şirkət iştirak etdi. İştirakçılar sırasında ABŞ, Almaniya, Azərbaycan, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, Niderland, İsrail, İspaniya, İsveçrə, İndoneziya, İtaliya, Qazaxıstan, Macarıstan, Norveç, Rumıniya, Rusiya, Serbiya, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə, Xorvatiya, Yaponiya, Yunanıstan, Özbəkistan şirkətləri özünə yer aldı.

İlk sərgidən keçən dövr ərzində neçə-neçə qlobal layihələr reallaşıb. Lakin dünyada Azərbaycana maraq azalmayıb, əksinə, əməkdaşlıq əlaqələri genişlənib, xarici investorların sərmayə yatırdıqları sahələr şaxələnib. Azərbaycan dünyaya etibarlı tərəfdaş kimi tanınıb.

Ulu Öndərin çoxsaylı möhtəşəm əsərləri sırasında neft-qaz sərgisinin öz yeri var. O, getdikcə böyüyür, şaxələnir və yeni-yeni səhifələrlə zənginləşərək əhəmiyyətini daha da artırır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Dar günün dayağı



## Aqrar Sığorta Fondu ölkə üzrə kənd təsərrüfatı məhsulları istehsalının 95 faizini əhatə etmək imkanına malikdir

Bu gün ölkəmizdə kənd təsərrüfatının mütərəqqi üsullarla inkişafına xüsusi diqqət yetirilir. Fermerlər uğurlu nəticələrə istiqamətləndirilir və bir çox hallarda vacib maddi dəstək də alırlar. Əslində, bu yanaşma aqrar siyasətin müasir dünyada həyata keçirilən yeniliklərlə paralel inkişafını təmin edir.

Fermər Əli Müstafayev danışır ki, keçən il gilas bağı onu necə yerə vurdusa, necə cibindəki bütün pulları sivirib apardısa, indi də ayağa dura bilmir: "Qardaş, əkdiyim gilas bağı dördüncü yaşa keçmişdi və əslində, əməlli-başlı bəhərə düşməli idi. Qonşu təsərrüfatlardan kim gəlib baxırdısa, "maşallah" deyirdi. Elə tumurcuq tutmuşdu ki, baxanda adamın kefi açılırdı. Ürəyim dağ boyda olmuşdu, fikirləşirdim ki, bağım bəhərə düşəcək, dörd ildə xərclədiklərimi, Allah qoysa, yavaş-yavaş geri alacam. İndi təbiətdən baş açmaq olmur. Yan-yana iki bağdan biri bəhər tutur, o biri də qalır Tanrının ümidinə. İl bəd gəldi, bütün çiçəkləri şaxta vurdu. Bağı əvvəlcədən sığortalamaq ağlıma gəlsəydi, belə ağır ziyana düşməzdim".

Aqrar sektorda uzun illər sığorta kəndlilər üçün qaranlıq bir iş kimi qalmışdı. Heç uzağa getməyək, elə kənd-kəsəkdə pay torpaqları olan qohum-əqrəbanın da bir qismi gileylənir ki, dəmyə torpaqlardı, taxıldan, arpadan başqa nə əkə bilərlər? Taxıl, arpa da ki, yağış olsa yaxşı bitir, olmayanda hektarın məhsuldarlığı tondan aşağı olur. Amma artıq başı işləyən, torpağa qulluq edən, gübrəsini vaxtında verən əkinçinin, bağbanın məhsulu üz ağardır. Çünki onlar ehtiyatlı olmağı bacarırlar. Amma başqa bir vacib səbəb də var.

Son illər aqrar sektora sığortanın tətbiqinə maraq artıq bu sahədə dirçəlişə səbəb olmuşdur. Aqrar sektorda baş verən gözlənilməz itkilər fermerləri özlərini vaxtında sığortalamağa məcbur edir. Dünyada baş verən quraqlıqlar, iqlim dəyişiklikləri başqa yolun qalmadığını göstərir.

Günün reallığı ondan ibarətdir ki, torpağa qulluq, onun suvarılması, gübrələrlə qidalandırılması həm xüsusi biliklər tələb edir, həm də xərclərin əvvəlki illərə nisbətən artmasını qaçılmaz edir. Kənd təsərrüfatı məhsullarının dünya bazarında qiymətlərinin artması da bununla bağlıdır. Sadə bir misal gətirək. Əgər əvvəllər balığı dənizdən tutub bazara çıxarırdılarsa, indi belə deyil. Okeanlarda balıqların sayı sürətlə azaldığından bütün dünyada, o cümlədən Azərbaycanda süni göllər salınır, müxtəlif növ balıq yetişdirmək üçün böyük pullar xərclənir. Bitkiçilikdə də vəziyyət oxşardır. Məsələn, yeni meyvə sortlarının yetişdirilməsi indi daha baha başa gəlir, suvarma kanalları, yeni suvarma sistemləri böyük xərclər tələb edir. Ona görə də fermerlər özlərini təhlükələrdən qorumaq üçün sığortaya müraciət edirlər. Onu da etiraf etməliyik ki, son illər Azərbaycanın da aqrar sektorunda sığortanın tətbiqini nəzərəçarpacaq dərəcədə genişləndirən müsbət tendensiya yaranmışdır.

Bu günlər dövlət dəstəyi ilə aqrar sığorta mexanizminin tətbiqini həyata keçirən Aqrar Sığorta Fondu taxıl əkini ilə məşğul olan fermerlərə müraciət etmişdir. Bildirmişdir ki, mövcud qanunvericiliyə əsasən, 10 hektar və daha çox sahədə payızlıq əkin aparan fermerlər subsidiya almaq üçün öz sahələrini mütləq qaydada sığortalamalıdırlar.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, 2021-2022-ci illərdə bitkiçilik üzrə 55024 aqrar sığorta müqaviləsi bağlanmışdır ki, bunun da təxminən 75 faizi buğda və arpa sahələrinin payına düşür. Ümumilikdə bu günədək ölkə üzrə əkinəyararlı sahələrin 23 faizi Aqrar Sığorta Fondu tərəfindən sığortalanmışdır. Bu ərazilərin 450 min hektara yaxın əkin sahəsinin 370 min hektarını buğda və arpa sahələri təşkil edir.

Məlumatda o da bildirilir ki, 2021-2022-ci il əkin mövsümündə bitkiçilik üzrə toplanan sığorta haqqının məbləği 11 milyon 500 manatı ötmüşdür. Aqrar Sığorta Fondu tərəfindən baş verən sığorta hadisələri ilə bağlı ilin sonunadək 3 milyon manat zərər ödənişlərinin edilməsi gözlənilir. Bu isə toplanılan sığorta məbləğinin 26 faizini təşkil edir.

Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov bildirib ki, 2021-ci ildə 2020-ci illə müqayisədə aqrar sığorta bazarında 450 faizlik artım olmuşdur: "2022-ci ilin 9 ayında da müsbət dinamika davam etmişdir. Belə ki, ötən ilin eyni dövrünü müqayisə etdikdə 230 faizlik bazar artımı qeydə alınmışdır. Əldə olunan bu nəticələr Azərbaycanda aqrar sığortaya tələbatın yüksək olmasının və böyük potensialın göstəricisidir. Dövlət tərəfindən bu sahədə tətbiq edilən güzəşt mexanizmləri isə fermerlərə imkan verir ki, ciddi maliyyə yükü olmadan təsərrüfatlarını effektiv şəkildə sığortalasınlar. Bu gün fond 41 bitkini sığortalayır və ölkə üzrə istehsalın 95 faizini, fermerlərin isə 96 faizini xidmətlərlə əhatə edir. Bu o deməkdir ki, 100 fermerdən 95-i bu xidməti ala bilər".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Pambığın alış qiymətinin artırılması fermerlərə yaxşı gəlir əldə etməyə imkan verir

## Son məlumata görə, ölkə üzrə kondisiya çəkidə 150 min tona yaxın məhsul tədarük olunub

Azərbaycanın kənd təsərrüfatında pambıqçılığın həmişə, xüsusən keçmiş SSRİ dönəmində özünəməxsus yeri olub. O dövr pambıqçılıq respublikada toxuculuq və tekstil sənayesinin formalaşmasına da imkan yaratmışdı. Üstəlik, bu, əhalinin məşğulluğunun təmin edilməsində az rol oynamamışdı.



Təəssüf ki, müstəqilliyimizin ilk illərində - köhnə təsərrüfat münasibətlərinin dağıldığı, yenisinin isə qurulmadığı vaxtda pambığa maraq azaldı. Bu hal Prezident İlham Əliyevin təşəbbüsü ilə ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsinəcən davam etdi. Dövlət başçısı tərəfindən pambıqçılığın inkişafı üçün xüsusi sərəncam imzalandı. Bundan sonra fermerlər əkin üçün maliyyə dəstəyi və satış bazarı əldə etdilər. Ardınca ölkədə yenidən toxuculuq və tekstil sənaye müəssisələrinin yaradılmasına başlandı.

Vacib bir məqamı da qeyd edək. Məlumdur ki, ölkəmizdə istehsal olunan bir çox kənd təsərrüfatı məhsullarının Avropa bazarında satılmasına imkan verilmir. Müxtəlif bəhanələrlə buna mane olmağa çalışırlar. Məqsəd Avropanın daxili bazarında yerli fermerlərin mənafeyini qorumaqdır. Pambıq isə dünya əmtəə birjalarında satıldığı üçün belə bir çətinliklə qarşılaşmır. Yəni pambıqçılığın inkişafı ölkəmizə ixrac imkanlarını genişləndirməyə imkan verir. Təsadüfi deyil ki, qeyri neft-qaz məhsullarının ixracında pambıq mahlıcının ixracı önəmli yer tutur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin verdiyi məlumata görə, cari ilin yanvar-avqust aylarında ixrac edilən qeyri-neft sektoruna aid məhsulların siyahısında pambıq mahlıcı birinci yerdə olub. Cari ildə də bu sahədə yüksək məhsuldarlığa nail olmaq üçün lazımi tədbirlər görülüb. Nəticədə tarlalarda bol məhsul yetişib.

Kənd Təsərrüfatı Nazirliyinin son məlumatına görə, Azərbaycanın bölgələrində pambığın mexanikləşdirilmiş üsulla kütləvi yığımı davam edir. Bu il fermerlər tərəfindən 100 min hektardan artıq sahədə pambıq əkini aparılıb. Bu günə qədər tədarük məntəqələrinə kondisiya çəkidə 150 min tona yaxın məhsul təhvil verilib.

Ölkənin əsas pambıqçılıq rayonlarından olan Bərdədə məhsulun vaxtında və itkisiz tədarük edilməsi üçün kifayət sayda pambıqyığan kombayn, traktor və qoşqular cəlb olunub. Bu il rayonun fermerləri 11 min hektardan artıq sahədə pambıq becəriblər. Yığıma 48 kombayn cəlb olunub. Məhsulun mexanikləşdirilmiş üsulla birinci yığımında bir çox sahələrdən hər hektardan 35-40 sentner məhsul götürülür.

Bu günə kimi bərdəli fermerlər pambıq tədarükü məntəqələrinə kondisiya çəkidə 14 min tona yaxın məhsul təhvil veriblər. Rayon üzrə orta məhsuldarlıq 13 sentnerə çatıb. Fermerlər təhvil verdikləri pambığın pulunu bir həftə ərzində alırlar.

Yeri gəlmişkən qeyd edək ki, dövlət dəstəyinin genişləndirilməsi fermerlərin pambıq əkininə marağını artırıb. Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu ildən tədarük məntəqələrinə təhvil verilən pambığa görə yalnız məhsul subsidiyası verilir. Eyni qərarla məhsul subsidiyasının məbləği hər tona görə 100 manatdan 170 manata qaldırılıb. Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində 2022-ci ildə şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla iki dəfə artırılıb. Ötən il 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alınırdısa, bu il təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilir. Məhsul subsidiyasına keçid və pambığn alış qiymətinin artırılması fermerləri aqrotexniki becərməni daha yaxşı aparmağa, daha çox məhsul istehsal edərək daha çox gəlir əldə etməyə sövq edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# 23-24 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

**Oktyabrın 23-də** bütün cəbhəboyu döyüşlər davam edir. Gecə cəbhənin Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edir. Düşmən müdafiə mövqelərimizi atıcı silahlardan və toplardan atəşə tutur. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulur, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılır. Vacib ərazi və yüksəkliklər azad edilir.



Bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulur. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilir. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir.

Məlum olur ki, Ermənistanın Tavuş və Sisian rayonundan Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən imtina edir, fərarilik edərək mövqeləri tərk edirlər.

❖ ❖ ❖

Ermənistan yenə yalan məlumat yayaraq guya Dağlıq Qarabağ ərazisindəki Ağdərə, Xocavənd və Qırmızı Bazar yaşayış məntəqələrinin Azərbaycan Ordusu tərəfindən atəşə tutulmasını iddia edir. Azərbaycan Müdafiə Nazirliyi bu xəbərin heç bir əsası olmadığını bildirir.

Qeyd edilir ki, tam əksinə, oktyabrın 23-ü gecə ərzində və səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi intensiv atəşə tutulub. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖

Gecə 03:00-dan gündüz 12:00 radələrinədək Ermənistan silahlı qüvvələrinə məxsus 2 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilir. Digər 2 PUA isə xüsusi texniki vasitələrlə yerə endirilir.



Həmçinin gün ərzində Ağcabədi rayonu istiqamətində uçuş keçirəcəyinə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus daha bir taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev rəsmi tviter səhifəsində paylaşım edir:

"Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl



İlham Əliyev @azpresident · 43s
Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
114 873 2,799

İlham Əliyev @azpresident · 1m
Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
215 1,076 3,595

rayonunun Dağ Tumas, Nüsüs, Xəlifli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirhəsənli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Prezidentin növbəti müjdəsi də gecikmir. Dövlət başçısı tviter səhifəsində daha bir paylaşım edir: "Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Düşmənin qüvvə və vasitəlıri darmadağın edilir.

Müdafiə Nazirliyinin yaydığı videogörüntülərdə hər şey açıq-aydın görünür. Düşmənə məxsus müxtəlif döyüş texnikaları, hərbi avadanlıqlar və yerdəyişmə etməyə hazırlaşan canlı qüvvə, zirehli texnika məhv edilir.

❖ ❖ ❖

Ermənistan tərəfi daha bir uydurma xəbər yayır. Guya İranın hava məkanına ordumuza məxsus kamikadze-dron daxil olub və bundan sonra qonşu ölkə Azərbaycanın mövqelərini artilleriya atəşinə tutub.



Müdafiə Nazirliyi məlumat yayaraq bunun düşmənin növbəti dezinformasiya olduğunu bildirir.

Qeyd edilir ki, İran-Azərbaycan dövlət sərhədinin ölkəmizin tam nəzarətinə götürülməsindən təşvişə düşən Ermənistan tərəfi bu cür yalan xəbərlər yaymaqla iki dövlət arasında olan yüksəksəviyyəli münasibətlərə xələl gətirməyə cəhd göstərir.

Azərbaycan ilə İran arasında mövcud olan və dərin tarixi köklərə malik siyasi, iqtisadi, dini, mədəni və digər sahələrdə əməkdaşlığımız uğurla inkişaf edir.

Beynəlxalq ictimaiyyət tərəfindən lazımi dəstək ala bilməyən Ermənistan hərbi-siyasi rəhbərliyi Azərbaycan-İran münasibətlərinin uğurla inkişafından ciddi narahatlıq keçirdiyi üçün çıxış yolunu yalan və böhtan xarakterli məlumatların yayılmasında görür.

❖ ❖ ❖

Cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin könüllülərdən ibarət dəstələrinin və döyüş texnikalarının məhv edilməsinin videogörüntüləri yayılır.

Aviasiya zərbələri nəticəsində düşmənin artilleriya bölmələri və komanda məntəqəsi məhv edilir.

❖ ❖ ❖

**Oktyabrın 24-də** cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam



edir. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun cəbhənin müəyyən istiqamətlərində döyüş fəaliyyətlərini davam etdirirlər.

Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələri bölmələrinə atəşlə ciddi ziyan vurulur. Düşmənin silah və sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılır. Bəzi istiqamətlərdə düşmən nizamsız qaydada mövqeləri tərk edərək geri çəkilir. Əhəmiyyətli kommunikasiya xətləri nəzarərtə götürülür, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılır və vacib yüksəkliklər azad edilir.

Bütün cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Tərtər və Bərdə rayonlarının ərazilərindəki yaşayış məntəqələrimiz düşmən tərəfindən atəşə tutulur. Xeyli sayda yaşayış evinə ciddi ziyan dəyir.

Düşmən Goranboy və Naftalan istiqamətindəki ərazilərimizi atəşə tutur.

❖ ❖ ❖



Gündüz saatlarında cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilir.

❖ ❖ ❖

Saat 13:00-dan 15:00-dək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edir.

Azərbaycan HHQ düşmənin hərbi infrastrukturuna hava zərbələri endirməyə davam edir.

❖ ❖ ❖

Prezident İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verir. Jurnalistin ilk sualından məqsədi bəlli olur.



Fransalı müxbirin "Nəyə görə siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir?" sualına cavabında Prezident dedi ki, biz Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçib. Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olub. Prezident üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üç hərbi təxribat törədildiyini söyləyərək işğalçının əsl məqsədini açıqladı və qeyd etdi ki, Azərbaycan onlara yalnız adekvat cavab verib: "Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik".

Müharibənin hansı şərtlərlə dayandırılmasına gəlincə isə, İlham Əliyev dedi: "Biz bu gün dayanmağa hazırıq. Mən bunu oktyabrın 10-dan - Moskvada hər iki tərəf atəşkəslə bağlı razılığa gələndən bəri deyirdim. Biz danışıqlar masasına keçmək istəyirik. Lakin əfsuslar olsun ki, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və Gəncəyə hücum etdi. Oktyabrın 17-də onlar növbəti atəşkəs qüvvəyə minəndən 2 dəqiqə sonra onu pozdular. Ona görə də əgər onlar bu gün dayansalar, biz dayanarıq və qalan işlər diplomatlar tərəfindən görülər. Əgər onlar dayanmasalar, biz işğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik".

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələrinin Laçın və



Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atır.

Belə ki, hazırda Ermənistan Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini gizli atəşə tutur.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

❖ ❖ ❖

Saat 15:25 radələrində Ağdərə rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

Artilleriya bölmələrimiz düşmənə sarsıdıcı zərbələr endirməyə davam edir.

Azərbaycan hərbi komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan dinc əhaliyə bir daha müraciət edərək onların xəsarət almaması üçün hərbi obyekt və infrastrukturdan uzaq durmasını tövsiyə edir.

Eyni zamanda Azərbaycanın hərbi komandanlığı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə də müraciət edərək silahı yerə qoymağı və təslim olmağı təklif edir.

❖ ❖ ❖



Günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən bölmələrimizə hücum etməyə cəhd edir.

Bölmələrimizin sərt müqaviməti ilə rastlaşan düşmən geri çəkilməyə məcbur edilir. Düşmən qüvvələrindən əsir götürülənlər var.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Ermənistan: məğlubiyyətin xronikası



Cəbhədə məğlub edilən Ermənistanın siyasi rəhbərliyi hələ də baş verənlərdən lazımi nəticələr çıxara bilmir. Baş nazir Nikol Paşinyanın son açıqlamaları və yeni könüllü dəstələrin yaradılıb Dağlıq Qarabağa göndərilməsi üçün çağırışları bunu sübut edir.

Məsələ bundadır ki, çıxılmaz vəziyyətdə qalan Paşinyan yeni plan hazırlayıb. Bu plan onu deməyə əsas verir ki, Qarabağda döyüşmək üçün ümid yalnız mülki əhaliyə qalıb.

❖ ❖ ❖

Amma Paşinyanın yeni planı ermənilər tərəfindən birmənalı qarşılanmayıb. Çoxlu erməni şərh yazaraq Paşinyanın əli silah tuta bilməyən insanları ölümə göndərdiyini bildirib. Sosial şəbəkələrdə yayılan şərhlərin birində qeyd olunur: "Məsələni sülh yolu ilə həll edin! Bəsdir bizləri öldürdüz! Əli silah tuta bilməyən insanları ölümə göndərirsiz! Özünüz gedin savaşın. Siz bizləri düşünmürsüz, ölümə göndərirsiz!"

Paşinyan feysbuk hesabında həm hazırkı mərhələdə, həm də uzun müddət ərzində Qarabağ məsələsinin diplomatik yolla həllinin mümkün olmadığını deyib. Bununla o, Ermənistanın işğalçı siyasətini davam etdirdiyini və bu ölkənin hazırkı rəhbərliyinin münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını açıq şəkildə etiraf etmiş olub. Halbuki Azərbaycan tərəfi xoş niyyət və konstruktivlik nümayiş etdirərək humanitar atəşkəsə iki dəfə razılıq verib və münaqişənin BMT-nin qətnamələri əsasında danışıqlar yolu ilə həllini dəstəklədiyini bəyan edib. Amma hər hansı beynəlxalq təzyiq hiss etməyən və Azərbaycana qarşı təcavüz siyasəti sayəsində bu günədək törətdiyi çoxsaylı müxtəlif cinayət əməllərinə görə hüquqi məsuliyyətə cəlb edilməyən Ermənistan rəhbərliyi verdiyi məsuliyyətsiz bəyanatları və törətdiyi əməlləri ilə öz xalqını uçuruma sürükləyir.

❖ ❖ ❖

Ermənistanda vaxtilə hakimiyyətdə olmuş hərbi xunta da Paşinyana qarşı fəallaşıb. Onlar cəbhədəki məğlubiyyətlər səbəbindən baş nazirin ölkə daxilində mövqelərinin zəifləməsindən istifadə etməyə çalışırlar.



Ermənistandakı siyasi partiyalar yaranacaq hakimiyyət böhranını etiraf edirlər. Bu səbəbdən də siyasi partiyalar arasında qızğın müzakirələr gedir. Hələlik erməni siyasətçiləri Qarabağ məsələsini sözdə müzakirə edirlər, çünki əsl niyyətləri ölkədə baş verəcək siyasi böhrandan yararlanmaqdır. Məsələn, bunun nümunəsi kimi Ermənistanın keçmiş prezidentləri Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyanın bir masa ətrafında əyləşməsini göstərmək olar. N.Paşinyanın əsas dəstəkçisi isə sabiq prezident Levon Ter-Petrosyandır. O, bu günlərdə 16 partiyanın birləşərək Paşinyanın səlahiyyətlərinin müəyyən hissəsini əlindən almaq cəhdini pisləyib. Qeyd edək ki, Ermənistanda parlamentdən kənarda qalan partiyaların əksəriyyəti Serj Sarkisyan və Robert Koçaryan ətrafında birləşir.

Ermənistan mediası onu da yazır ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı qurumun sabiq rəhbərləri Bako Saakyan, Arkadi Qukasyan və Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan Qarabağdakı separatçı rejimin ilk rəhbəri və Ermənistanın ikinci prezidenti R.Koçaryanla görüşüblər.



"Qraparak" qəzetinin məlumatına görə, görüşdən əvvəl B.Saakyan və A.Qukasyan N.Paşinyan və daha sonra Serj Sarkisyanla görüşüblər. Koçaryanın ofisinin rəhbəri Viktor Soqomonyan məlumatı təsdiqləyib.

Görüşlərdə Qarabağdakı vəziyyətin müzakirə olunduğu iddia edilsə də, sirr deyil ki, əsas müzakirə mövzusu siyasi hakimiyyətin ələ keçirilməsidir. Ermənistan mediası bununla bağlı yazır ki, R.Koçaryan yaranan vəziyyətdən istifadə edib Paşinyanı devirməyi düşünür. Bu səbəbdən Ermənistan daxilində yaxın tezlikdə vəziyyətin qarışması qaçılmazdır.

❖ ❖ ❖

"İşıqlı Ermənistan" partiyasının sədri Edmon Marukyan da bildirib ki, yaranacaq hakimiyyət böhranı səbəbindən siyasi qüvvələr arasında müzakirələr başlayıb. Onun sözlərinə görə, ilk dəfədir ki, Ermənistanın keçmiş prezidentləri bir araya gəlir və aydın məsələdir ki, onlar həm də bir-birinə düşmən sayılırlar. Nəzərə almaq lazımdır ki, Ermənistanda sosial-iqtisadi vəziyyət də gərginləşir. Müharibə həm çoxlu sayda canlı qüvvə, həm də iqtisadi resurslar tələb edir. Digər tərəfdən son günlər Ermənistanda koronavirus infeksiyasına yoluxma halları sürətlə artıb. Virusun ikinci dalğası Ermənistanın səhiyyə və sosial sisteminə çox böyük təsir göstərir.

❖ ❖ ❖

Belə vəziyyətdə hərbi və iqtisadi resursları tükənən ölkənin durumunu təsəvvür etmək çətin deyil. Əhali, eləcə də rəqibləri Paşinyanın yürütdüyü siyasətdən narazıdır. Onlar yuxarıda qeyd edildiyi kimi, son vaxtlar fəallaşıblar və baş nazirin devrilməsi istiqamətində planlar hazırlanır. Hərbi əməliyyatların başlamasından öncə Ermənistanın ikinci əsas müxalifət partiyası "Çiçəklənən Ermənistan"ın lideri Qaqik Tsarukyanın həbs edilməsi da göstərir ki, Paşinyan çox ehtiyat edir. O, xüsusilə Rusiya amilinin güclənməsindən ehtiyatlanır və bunun qarşısını almağa çalışır. Amma resursları çox da böyük olmadığından istədiyinə nail ola bilmir.



Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Gözlənilir ki, cəbhədəki çoxsaylı insan itkiləri ilə əlaqədar vətəndaşlar tezliklə küçələrə axışacaq. Bununla da Ermənistan sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bizi böyük zəfərə qüdrətli sərkərdəmiz apardı



Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub



**SEYFƏDDİNLİ NAMİQ NATİQ OĞLU**
**ehtiyatda olan tibb baş leytenantı**

1995-ci il dekabrın 21-də Qəbələ rayonunun Tüntül kəndində anadan olub. 2002-2013-cü illərdə kənd orta məktəbində oxuyub.

2013-2019-cu illərdə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində təhsil alıb. Ali məktəbi tibb xidməti leytenantı rütbəsi ilə bitirib və Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə tibb məntəqəsi rəisi təyin olunub.

2019-cu ilin sonunda fəaliyyətini Naxçıvandakı Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsində davam etdirib.

Vətən müharibəsində hərbi həkim kimi iştirak edib.

"Döyüşdə fərqlənməyə görə", "Şücaətə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində həkim-ekspert kimi çalışır.

Ailəlidir, iki övladı var.

## Hərbi həkimlər də Ali Baş Komandanın müsəlləh əsgəri oldular

Böyük zəfərimizlə bitən Vətən müharibəsində Azərbaycan həkimləri də müzəffər hərbçilərimizlə birlikdə canlarını fəda edərək yüksək vətənpərvərlik, fədakarlıq və cəsarət nümayiş etdirdilər. Əlbəttə ki, öz canlarını təhlükəyə ataraq yaralı əsgər və zabitlərin həyatı uğrunda mübarizə aparan, onları şiddətli atəş altında döyüş meydanından çıxaran həkimlərimizin igidliyi olmasaydı, itkilərimiz daha çox ola bilərdi.

2013-cü ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə qəbul olunarkən ağlıma gəlməzdi ki, 7 il sonra döyüş meydanında həm savaşçı, həm də həkim kimi müharibənin kədərini və sevincini yaşayacaq, dəhşətli səhnələr görəcək və haqq savaşına qalxan Azərbaycan əsgərinin həyatını xilas etmək üçün oda-alova atılacağam.

İtkisiz savaş olmur. Biz də müqəddəs torpaqlarımız uğrunda atıldığımız döyüşlərdə itkilər verdik, amma sonunda Müzəffər Ali Baş Komandanın qüdrətli ordusu zəfər çaldı. Bu gün Şuşada dalğalanan bayrağımızın kölgəsi bütün Qarabağa düşürsə, demək, Ali Baş Komandanımızın modern ordu quruculuğu istiqamətində gördüyü böyük işlər, eləcə də müstəqillik dövründə böyüyən gənclərə verilən vətənpərvərlik tərbiyəsi hədər getməyib.

## Məsuliyyət və cəsarət tələb edən peşə

Qəbələdə kənd mühitində böyümüşəm. Orta məktəbdə əla qiymətlərlə oxumuşam. Həkim olmaq istəyirdim və arzuma da çatdım. Test imtahanlarında IV ixtisas qrupu üzrə imtahan verdim və 605 bal topladım. Amma ixtisas seçimi edərkən hərbi həkimliyi seçdim. Çünki hərbini sevirdim, valideynlərim də seçimimə etiraz etmədilər. 2013-cü ildən 2019-cu ilədək Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində təhsil aldım.

18 yaşımdan, yəni tələbə olduğum gündən idmanla da məşğul olmağa başladım. Kyokuşin-karate üzrə peşəkar döyüşçü idim. Bakıda kişilər arasında keçirilən respublika çempionatında 70 kq və 71 kq çəki dərəcələrində çempion oldum. Hətta respublika və beynəlxalq dərəcəli hakimlik dərəcəsi də aldım, oyunlar idarə etdim.

6 il oxuduğum Hərbi tibb fakültəsində bu sahə üzrə tamamən ixtisaslaşdım. İki il Bakıdakı hərbi hospitalda təcrübə keçdim və 2019-cu ildə ali təhsilimi başa vurub tibb xidməti leytenantı rütbəsi aldım. Çox sevincli idim və təyinatla Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə tibb məntəqəsi rəisi vəzifəsində çalışmağa başladım.



Bir neçə aydan sonra gənc zabitlərin toplantısı oldu. Bizi normativlər əsasında imtahan edirdilər. Polkovnik Tehran Mənsimov Əlahiddə Ümumqoşun Ordunun Döyüş Hazırlığı İdarəsinin rəisi idi və hər kəsə diqqət edirdi. Mən turnikdə dayanmadan çəkinmə və akrobatik fırlanma hərəkətləri etdim və ard-arda 26 dəfə bunu təkrarladım. Tehran Mənsimov məni yanına çağırdı və hansı idman növü ilə məşğul olduğumu soruşdu. Sən demə, cənab polkovnik Kyokuşin-karate üzrə üçüncü dan (dərəcə) qara kəmər ustası imiş. Bir qədər söhbətləşdikdən sonra soruşdu ki, Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək istəyirsənmi? Fikirləşmədən dedim ki, ən böyük arzumdur. Beləcə hərbi hissəmi dəyişərək yeni istiqamətdə fəaliyyətə başladım.

Bəlli idi ki, müharibə şəraitində olan ölkədə hərbi həkimlərin də üzərinə böyük məsuliyyət düşürdü. Ona görə də biz fövqəladə və ekstremal vəziyyətdə (döyüşlər, təbii fəlakətlər, qəzalar) çalışmalı, əsasən əməliyyat xarakterli yardımların göstərilməsi proseslərini yaxşı öyrənməli idik. Əsas xüsusiyyət isə döyüş şəraitində tibbi yardım göstərmək bacarığı idi. Bu isə həyat üçün çox təhlükəlidir.

Hərbi hissədə çalışdığım müddətdə bir daha şahidi oldum ki, Ali Baş Komandan İlham Əliyevin modern ordu quruculuğu istiqamətində həyata keçirdiyi islahatlar böyük dəyişikliklərə səbəb olub. Eyni zamanda hərbi tibb sahəsində də baş verən yeniliklər onu deməyə əsas verir ki, Azərbaycanın hərbi səhiyyəsi müasir tələblərə tam cavab verir. Əminliklə deyə bilərəm ki, bu gün ordumuz döyüş hazırlığı, silah-sursatı ilə yanaşı, tibb xidməti ilə də dünyanın güclü silahlı qüvvələri arasında ön sıralardadır. Hərbi hissələrdəki tibb məntəqələri müasir avadanlıqlarla təchiz olunub və müasir standartlara cavab verir. Bu səbəbdən də şəxsi heyətin sağlamlığı Ali Baş Komandanın və ordu rəhbərliyinin qarşısında duran əsas vəzifələrdəndir. Vətən torpağını qorumaq müqəddəs və şərəfli olduğu kimi, onun müdafiəçisinin sağlamlığının keşiyində dayanmaq da şərəflidir. Mən də tam bir il fəxarətlə, böyük həvəslə Xüsusi Təyinatlı Qüvvələrdə həkim kimi çalışdım.

## Vətən müharibəsi və müqəddəs borc

Bir il idi orduda xidmət edirdim ki, 2020-ci il sentyabr ayının 27-də Vətən müharibəsi başladı və bizə tapşırıq gəldi ki, tam hazır vəziyyətdə olun, lazım olan anda əmr veriləcək. Hər gün Ali Baş Komandanın çıxışlarına baxıb çox qürurlanır, həm də səbirsizlənirdik. Deyirdik ki, görəsən Vətən müharibəsinə qatılmaq bizə də qismət olacaqmı?

Nəhayət, oktyabrın 10-da əmr verildi və Naxçıvandan iki təyyarə ilə Bakıya gəldik. Paytaxtdan isə Cəbrayıl istiqamətinə yollandıq. Tibb məntəqəsinin həkimi idim, iki köməkçi feldşerim var idi. Cəmləşmə mərkəzində Bakının Xüsusi Təyinatlı Qüvvələri ilə birləşdik və sonra iki hissəyə ayrıldıq. Polkovnik Tehran Mənsimovun rəhbərliyi ilə bir tabor Hadrut istiqamətində, digər tabor isə polkovnik-leytenant Anar Əliyevin (şəhid, Vətən Müharibəsi Qəhrəmanı) rəhbərliyi altında Cəbrayıl istiqamətində döyüş əməliyyatlarına başladı. Mən polkovnik Tehran Mənsimovun rəhbərlik etdiyi heyətlə, feldşerim isə o biri qrupla yola çıxmalı olduq.

Bakı Xüsusi Təyinatlı Qüvvələrinin həkimi, baş leytenant İmran İbadbəyli Cəbrayıl istiqamətində gedən döyüşlərdə yaralandığı üçün mən onu əvəzləməli oldum. İmran qəlpə yarası almış, ancaq hospitalda əməliyyat olunduqdan sonra qayıdıb heyətə qoşulmuşdu. Yarası təzə olduğu üçün aktiv hərəkət edə bilmirdi.

Mən Xüsusi Təyinatlı Qüvvələrin tərkibində hərəkət etsəm də, əməliyyatlar zamanı yaralanan hər bir hərbçimizə yardım edirdim. Yəni bizim üçün fərqi yox idi ki, bu, xüsusi təyinatlıdır, yoxsa başqa hərbi hissənin döyüşçüsüdür. Yaralı görən kimi dərhal müdaxilə edib ilkin tibbi yardım göstərirdim. Hər zaman çalışırdım ki, pozitiv əhval-ruhiyyədə olum və soyuqqanlı davranım. Belə olanda hərbçilərimiz daha da ürəklə, həvəslə savaşırdılar. Onlar bizə inanırdılar və deyirdilər ki, həkim varsa, yaralansaq da, həyatımızı qurtaracaq. Buna görə də böyük inamla, həvəslə irəli gedirdilər.

Bəzən elə anlar olurdu ki, yolla gedərkən başqa hərbi bölmələrin yaralı hərbçilərinə rast gəlirdik. Onlar təxliyə üçün bir yerə toplaşıb köməyə gözləyirdilər. Yaxınlaşıb yaralarına baxırdım və lazımi köməklik göstərirdim.



Həkim döyüşdə dərman, iynə və digər vasitələrdən başqa, yaralılara psixoloji cəhətdən də yardım etməlidir. Bəzən elə olurdu ki, çox ağır yaralı ilə rastlaşırdım; fikirləşirdim ki, yardım etsəm də, ağrıkəsici vursam da, 15-20 dəqiqədən sonra şəhid olacaq. Amma öncə ona ürək-dirək verib yarasının o qədər də ağır olmadığını, yaşayacağını söyləyəndə gözləri gülürdü. Bu onların həkimə olan inamlarının nəticəsi idi.

Şuşaya qədər keçən döyüş yolumuzda həm ilkin tibbi yardım, həm də təxliyə prosesində çətinliklərimiz olmadı. Yaralılara cəld ilkin yardım göstərərək tibbi maşınlarla döyüş mövqeyindən təxliyə edirdik. Həmçinin dərman vasitələri ilə təminatımız rahat idi. Amma irəli getdikcə, aktiv döyüş şəraitinə düşdükcə, təxliyə çətinləşirdi. Buna baxmayaraq, yaralılara hər cür yardım edirdik. Hətta döyüş altında belə yaralı olan hərbçiyə "sistem" (venadaxili maye) köçürürdük.

Hər gün taborumuz bir neçə kəndi işğaldan azad edirdi. Həm həkim, həm də döyüşçü kimi fəxr edirdim ki, 30 ildən sonra Qarabağı düşmən tapdağından azad edirik və bu müqəddəs missiyanı reallaşdıranların sırasında mən də varam. Noyabr ayının əvvəlinə qədər bir çox əməliyyat keçirdik.

## Ağır yaralılar və ayaqlarını itirən döyüşçünün inamı

Döyüş meydanında cəld, soyuqqanlı və savadlı hərəkət etmək lazımdır. Çünki döyüşçülərimizin həyatı bundan asılıdır. Xocavənd istiqamətində gedən döyüşlərin birində bizi artilleriya atəşinə tutdular. Mənə xəbər verildi ki, qəlpə döyüşçümüzün hər iki ayağını qoparıb. Cəld tərpəndim və yanına çatanda gördüm ki, qan içindədir, özü də artıq huşunu itirir. Özümü topladım və soyuqqanlı şəkildə ona yaxınlaşdım. Belə vəziyyətdə, ilk növbədə, yaralının aldığı travmanı onun gözündə kiçiltməlisən. Dedim ki, qorxulu heç nə yoxdur, özünü ələ al. Qayıtdı ki, həkim, görmürsən, hər iki ayağım artıq yoxdur? Gülümsəyərək dedim ki, ayaqların yoxdur deyə ölməyəcəksən ki... İndi elə müasir protezlər var ki, əsl ayaqdan seçilmir. Bir qədər səbirli ol, qanaxmanı saxlayım, sonra ağrı hiss etməyəcəksən. Üzümə təəccüblə baxıb dedi ki, həkim, doğrudan, yaşaya bilərəm? Və bundan sonra vəziyyəti dəyişdi, bir dəqiqə əvvəl şəhid olacağını düşünən döyüşçüyə sanki yaşamaq həvəsi gəldi.



Ayaqlarını rezinlə sarıdım, ağrıkəsici və qanaxmanı dayandıran iynələr vurdum. Döyüş başa çatandan sonra ərazidən təxliyə etdik. Sağ qaldı və hazırda çox hörmətli Mehriban xanım Əliyevanın böyük diqqət və qayğısı nəticəsində protez ayaqlarla çox rahat şəkildə hərəkət edir.

Onu da deyim ki, hərbçilərimizi, yaralılarımızı daha çox ruhlandıran məqam Ali Baş Komandanın müjdəli xəbərləri olurdu. Hər dəfə torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı xəbərlər eşitdikcə əsgərlərin döyüş əzmi artırdı. Yaralılarımız təxliyə olunmaq istəmir, elə həmin vəziyyətdə də döyüşürdülər. Ali Baş Komandanın Ermənistanın baş nazirinin ünvanına işlətdiyi ifadələr isə əsgərlərin dilindən düşmürdü.

Yaddaqalan digər bir hadisəni də xatırlayıram. Xocavəndin Edilli kəndində əsgərlərimizdən birinin başının arxasından güllə dəymişdi. Güllənin yalnız arxası görünürdü. Əsgər huşunu itirmişdi. Həkim yoldaşım Orxan Dilsuzov əlini əsgərin nəbzinə tutanda gördü ki, "sapvari nəbz"i var. Yəni çox zəif vurur və demək olar ki, son anıdır. Belə olan halda ən son variant ürək nahiyəsinə adrenalin vurulmasıdır. Orxan iynəni vurdu və bir neçə dəqiqədən sonra əsgər gözlərini açıb ayağa qalxdı. Heç nə olmamış kimi hərəkət etməyə başladı. Amma Orxan onu dayandırıb başını bintlə sarıdı və beləcə həyata qaytardı.

Ən ağır yaralılar mərminin partlayışından zərbə dalğasına düşənlər olurdu. Çünki digər yaraları gözlə görür və necə lazımdırsa, tibbi yardım göstərirdik. Ən ağır yaranı belə sağaltmaq, qanaxmanı dayandırmaq olur. Amma zərbə dalğasına düşənlərin daxili orqanlarında ciddi problem yarandığı üçün ona müdaxilə edə bilmirdik.

Zərbə dalğasına düşən şəxsdə daxili qanaxma baş verir və həkim həmin anda onu müəyyənləşdirə bilmir. Yalnız sifətinə və nəbzinə baxdıqda bilirdik ki, vəziyyəti ağırdır, daxili qanaxması var. Ancaq yardım edə bilmirdik və dərhal təxliyə olunmasına çalışırdıq. Həyati vacib orqanlar, magistral arterial damarlar ciddi zədələnmədiyi təqdirdə istənilən yaralının həyatını xilas etmək mümkün olurdu.

Ağır yaralı hərbçimiz üçün köməyə gedəndə və o, başını qaldırıb həkimi görəndə simasında təbəssüm yaranırdı. Yaralıya elə gəlirdi ki, həkim gəldisə, mütləq sağ qalacaq. Belə vəziyyətdə mən də çox soyuqqanlı rəftar edərək, yəni heç bir qorxu - təhlükə olmadığını söyləyərək yaralıda inam yaradırdım. Qanaxmadan rəngi ağaran döyüşçünün rəngi bir neçə dəqiqədən sonra dəyişir, danışmağa başlayırdı. Onun gözündəki ümidi görmək çox gözəl hisslər idi.

## Müharibə möcüzələri - bir gündə 80 yaralıya yardım

Noyabrın 3-də Çanaqçı kəndində bütün Xüsusi Təyinatlı Qüvvələr toplandı və Şuşa əməliyyatının planı hazırlandı. Təminat və silah-sursat maşınlarımız da həmin əraziyə qədər gəldilər. Orada bütün hazırlıqlar görülürdü.

Noyabrın 4-də Daşaltı meşələrinə doğru irəliləməyə başladıq. Hava çox dumanlı idi - bir metrlik məsafəni görmək olmurdu. Bizə qədər orada ağır döyüşlər getmişdi. Bir zabit mənə yaxınlaşaraq dedi ki, qarşıda şəhidlərimiz və yaralılarımız var, gedək onlara yardım elə. Dərhal çantamı, silahımı götürüb birlikdə yola çıxdıq. Birtəhər əraziyə yetişdik. Gördüm ki, şəhidləri bir tərəfə, yaralıları da digər tərəfə toplayıblar. Başladım ağır yaralılara baxmağa. Uğur adlı zabit çox ağır vəziyyətdə idi. Rezinlə ayağını sarıdım, çox qan itirdiyi üçün mütləq "sistem" asmalı idim. Qan itirən insanın bədəninin tonusu zəiflədiyindən damarı tapmaq çətin olur. Həm də ərazidə işıq yandırmaq qəti olmazdı. Düşmən işıq görünən ərazini dərhal atəşə tutardı. Qaranlıqda "ya Allah!" deyib iynəni zabitin damarına vurdum. Barmağımı iynənin üstündə tutdum ki, əgər dəri altına getsə, şişkinliyi hiss edim və dərhal iynəni çıxarım. Amma sən demə, iynəni dəqiq vurmuşam. Adi vaxtda, işıqlı havada qan itirən şəxsin damarını tapmaq üçün rezinlə bərk sıxıb sonra iynə vururduq. Bu, bir təsadüf, ya da möcüzə idi...

Noyabrın 5-də yeni tapşırıq aldıq. Biz Şuşa-Laçın yolu istiqamətində irəliləməli, Laçın dəhlizi üzərindəki yüksəklikdə mövqelənməli idik.

Digər Xüsusi Təyinatlı Qüvvələrimiz bizdən öncə dəhlizin üstündəki yüksəklikdə ağır döyüş əməliyyatı aparmışdılar. Biz ora çatanda gördük ki, xeyli sayda yaralımız var. Ərazidə tibb personalı adına yeganə şəxs mən idim. Səhər tezdən başlayıb hava qaralana qədər yaralılara yardım etdim. Hətta başımı qaldırıb baxmırdım ki, yardım etdiyim kimdir. Axşama qədər 80 nəfərə tibbi yardım göstərmişdim.

Bəlkə də bu yardımı edə bilməzdim, ləvazimatlarım tükənərdi. Amma əsgər və zabitlərin üzərində fərdi sarğı paketinin olması işimi asanlaşdırırdı. Məndə ağrıkəsici qurtardıqda özlərində olanlardan istifadə edirdim. Amma birdən elə vəziyyət yaranırdı ki, ağrıkəsicilər tamam qurtarırdı.

Noyabrın 5-də heç vaxt yaddaşımdan silinməyəcək hadisə baş verdi: yaralıları və şəhidlərimizi bir yerə toplamışdılar. Şəhidlərin üzərinə çadır çəkmişdilər. Ağır yaralanan əsgəri müayinə edərkən gördüm ki, şəhidlərimizin birinin üstünə örtülən çadırda tərpəniş var. Daxili Qoşunların Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri idi: başından ağır yaralanmışdı, nəbzi yox idi. Ona görə də şəhid olduğunu güman edib üstünü örtmüşdülər. Tez yanına qaçıb çadırı qaldıranda gördüm ki, sifəti qan içindədir, bir gözü tamam sıradan çıxıb, ağzına və burnuna qan yığıldığı üçün nəfəs ala bilmir, amma bir gözü açıqdır. Rəngi də avazımışdı, son anlarını yaşayırdı. Tez sifətini, ağzındakı laxtalanmış qanı təmizlədim və nəfəsalması bir qədər yaxşılaşdı. Amma mütləq "sistem" asmalı idim, natrium-xlorid isə qurtarmışdı.



Sanki möcüzə baş verdi: həmin anda pulemyotçu Cavid Həsənov məni səsləyib: "Həkim, buradan çanta tapmışıq, gör sənə lazım olmaz?" deyəndə başımı qaldırıb gördüm ki, əlindəki natrium-xloridin venadaxili mayesidir. Sevincimdən gözlərim doldu. Tez götürüb ağacdan asdım və yaralının damarına vurdum. Bir neçə dəqiqədən sonra gördüm ki, ağarmış sifəti yavaş-yavaş qızarır. Qan itirdiyi üçün titrəyirdi, üstünü örtüb dedim ki, qorxma, sağalacaqsan.

Səhər açılanda təxliyə qrupu gəlmişdi və dünən şəhid olduğu güman edilən əsgər bu gün ayağa qalxıb özü yeriyirdi. Bəlkə də müharibədə yaşadığım bəzi acı xatirələri gələcəkdə unudaram, amma bu səhnəni heç vaxt yaddan çıxarmayacağam.

Digər bir yaddaqalan hadisə də Laçın dəhlizi istiqamətində oldu. Şuşaya hücum planının icrasına başlanılırdı. Gecə Xüsusi Təyinatlı Qüvvələrin bir əsgəri mənə yaxınlaşıb dedi ki, iki gün öncə ağır döyüşlər gedən ərazidə bir yaralımız qalıb, hərəkət edə bilmir. Onunla birlikdə həmin yerə yollandım. Yaralı Məhəmmədəli Baxışlı idi. Bu igid iki gün ağır yara ilə döyüşü davam etdirib. Baş nahiyəsindən ağır yaralanmışdı. Hava qaranlıq olduğu üçün əsgərdən xahiş etdim ki, alışqanın işığını bir saniyəlik yandırsın və mən yaranı görüb tampon qoyum. İşıq yanan kimi 2 minomyot mərmisi yanımıza düşdü. Zərbə dalğası üçümüzü də qaya parçasına çırpdı. Birtəhər ayağa qalxıb yarasını sarıdım. Sonra mən onların hər ikisinin silahlarını götürdüm, əsgər isə Məhəmmədəlini kürəyinə aldı və ərazidən uzaqlaşdıq. Beyindaxili travma aldığımız üçün qayıdanda bölmələrimizin yerini tapmaqda çətinlik çəkirdik. Amma bir qədər irəlilədikdən sonra polkovnik-leytenant Ramiz Cəfərovu (Xüsusi Təyinatlı Qüvvələrin şəhid polkovnik-leytenantı, Vətən Müharibəsi Qəhrəmanı) səslədim. Bir qədər sonra komandir bizim gəlişimizi görüb yanına çağırdı.

Tapşırıq verildi ki, noyabrın 5-dən 6-na keçən gecə Şuşa əməliyyatı başlayacaq. Yerimizdə mövqelənib vaxtı gözləyirdik. Ramiz Cəfərov məni yanına çağırıb dedi ki, yaxınlığımda ol, bəlkə yaralı gətirdilər, müayinə edərsən. Komandirlə söhbət edə-edə məni yuxu aparmışdı. Birdən dəhşətli partlayış oldu. Çox yaxınlığımıza top mərmisi düşmüşdü. Gözümü açanda gördüm ki, sağ çiynim üstündə uzanmışam, sol çiynim tərpənmir. Başımı çevirib baxa da bilmirdim. Əlimi atanda barmaqlarım sol qolumdakı yaranın - qəlpənin açdığı dəliyin içərisinə girdi. Bildim ki, yara çox dərindir. Mənə dəyən mərmi qolumu yarıb keçərək polkovnik-leytenant Ramiz Cəfərovun boğaz nahiyəsinə, arteriya damarına dəymişdi. Qanaxmanı saxlamaq mümkün deyildi və bir neçə dəqiqədən sonra Ramiz Cəfərov şəhid oldu.



Qayanın kənarında uzandım. Cibimdə özüm üçün bir ədəd ağrıkəsici saxlamışdım. Amma ağrıdan onu özümə vura bilmirdim. Birtəhər sağ əlimlə iynəni və ağrıkəsicini çıxartdım, amma əlimdən düşdü və iynənin ucu qırıldı. Qaya parçasına sürtüb güc-bəla ilə bud nahiyəmə vurdum.

Vəziyyət çox ağır idi. Mərmi ən yaxın bildiyim silahdaşlarımın həyatına son qoymuşdu. Acılar içində qıvrılır və öz-özümə deyirdim ki, dostlarım şəhid oldu, mən də bir neçə dəqiqəyə öləcəyəm.

Şuşa qəhrəmanlarından olan şəhidimiz Asəf Ağayev özünü yanıma çatdırdı və qoluma sarğı qoymağa yardım etdi. Yanımızda başqa yaralılar da var idi. Asəf məndən soruşa-soruşa, məsləhətlər alaraq o yaralılara çox köməklik etdi: ağrıkəsici vurdu, sarğı qoydu...

Mən möcüzə sayəsində sağ qaldım. Səhər açılanda bizə təminat gətirən bölmələrin əsgərləri ilə 9 yaralını götürüb yola çıxdım. Ac-susuz və yaralı vəziyyətdə axşama qədər piyada yol getdik. Son mərhələ daha acınacaqlı oldu. Bizi təxliyə etməyə gələn hərbi tibbi maşınlar yüksəklikdə dayanmışdılar. Yəni biz bu vəziyyətdə sıldırıma qalxmalı idik. Başqa yolumuz yox idi. Sürünə-sürünə qalxmağa başladıq. Yağış yağdığı üçün hər tərəf palçıq idi. Güc-bəla ilə yüksəkliyə qalxır, amma qəfildən sürüşüb arxaya yuvarlanırdıq. Bax beləcə, zülmlə yüksəkliyə qalxa bildik.

Maşınlarla cəmləşmə məntəqəsinə gəldik. Çanaqçı kəndindəki səyyar tibb məntəqəsində ağrıkəsicilər vuruldu və noyabrın 7-də məni Hadrutdakı hospitala apardılar. Orada da yardım etdikdən sonra təcili Bakıya göndərdilər. Bakıdakı hospitalda bir həftə ərzində 4 dəfə ağır əməliyyat olundum.

## Qələbə xəbərini eşidəndə hönkürüb ağladım

Üç gün sonra - noyabrın 10-da palatada yatırdım. Tibb bacıları məni oyadıb dedilər ki, Ali Baş Komandan çıxış edir, qələbə qazanmışıq, Ermənistan təslim olub. Həmin vaxt bundan gözəl xəbər olmazdı.

Müharibə boyu yaxın dostlarımı, döyüş yoldaşlarımı itirdim, amma o qədər də kövrəlməyim olmamışdı. Ali Baş Komandanımızın qələbə müjdəsini eşidəndə hönkürüb ağladım: həm sevinir, həm də kədərlənirdim. Sevinirdim ona görə ki, illərlə çəkdiyimiz həsrət bitdi və daha şəhid xəbəri eşitməyəcəkdim. Kədərlənirdim ona görə ki, bu zəfəri görmək istəyən qardaşlarım həyatda deyildilər. Amma Şuşada azan veriləndə hamısının ruhu şad olmuşdu.

Mən bu savaşı həm döyüşçü, həm də həkim kimi yaşadım. Vətən müharibəsində 300 nəfərdən artıq yaralıya yardım etdim, çoxlarının həyatda qalması üçün mücadilə apardım və zəhmətim hədər getmədi. Bunu yalnız müharibə bitəndən sonra gələn zənglərlə müəyyənləşdirmişəm. Tanımadığım nömrələrdən zəng gəlir və mənə deyirlər ki, "həkim, Hadrutda, Xocavənddə, Daşaltıda, Laçın dəhlizinin üstündə mənə yardım etmisən, sənə can borcum var". Mən yaralıları müayinə edəndə, ilkin yardım göstərəndə başımı qaldırıb baxmırdım ki, kömək etdiyim kimdir. Ona görə də yardım etdiklərimin simaları yadımda qalmayıb.

Vətən müharibəsində həkimlərimiz yaralıları bombaların, pulemyot, minomyot və artilleriya atəşləri altından xərəklərdə, çiyinlərində, sürünərək çıxarır və ağır şəraitdə yardım edirdilər. Yaralı hərbçilərimizi həyata qaytarmaq və şəhid sayının minimum olması üçün öz həyatlarını təhlükəyə atıb güllənin, mərminin altında vəzifələrini yerinə yetirirdilər. Bu müqəddəs yolda həkimlərimizin də şəhidlik zirvəsinə ucalmaları təsdiq edir ki, onlar Azərbaycan əsgəri ilə birlikdə döyüşüb, qardaşlarının sağlam savaşmaları üçün əllərindən gələni əsirgəməyiblər. Çox sevinirəm ki, vətənimin igid oğulları ilə çiyin-çiyinə savaşda iştirak edib, onlara həkim kimi yardım göstərmişəm. Bu, böyük qürurdur.

Yaram ağır olduğu üçün ordu sıralarından tərxis olundum. Amma qarşıma yeni məqsəd qoymuşam: tibbi təhsilimi Almaniyada davam etdirib vətənimə, millətimə uzman həkim kimi xidmət etmək istəyirəm.

Bu müharibə bizim millətin ən yaxşı keyfiyyətlərini üzə çıxartdı. Mən də bu qələbəyə öz payımı verməyə çalışdım. Doğma torpaqlarımızın azad olunması üçün biz hamımız canımızı qurban verməyə hazır idik və bu gün Vətən qarşısında hər birimizin vicdanı təmizdir.

Bu zəfərin müəllifi isə Ali Baş Komandan İlham Əliyevdir. 30 illik Qarabağ həsrətimizə məhz Ali Baş Komandanın sərkərdə qətiyyəti ilə son qoyduq. Ona görə də hər birimiz Ali Baş Komandanımıza minnətdar olmalıyıq. Həm də ona görə minnətdar olmalıyıq ki, Prezidentimizin diplomatik məharəti ilə Ağdam, Laçın və Kəlbəcər bir güllə atılmadan azad edildi. Yəqin ki, hər kəs bunun nə anlama gəldiyini yaxşı bilir. Əgər bu torpaqları savaşla alsaydıq, şəhid və yaralı sayımız ikiqat artardı. Amma Ali Baş Komandan sübut etdi ki, həm əsl sərkərdə, həm də qətiyyətli, prinsipial və xalqını sevən Prezidentdir. Tanrıya şükürlər olsun ki, Azərbaycan xalqına belə Lider yetirib.

*Böyük qələbə bir daha təsdiq etdi ki, İlham Əliyev tarixin ən güclü Azərbaycanının ən qüdrətli sərkərdəsidir.*

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 3 noyabr (bazar günü) tarixli XXIX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 26 məhərrəmülhəram sənə 1337. 3 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELANİ-RƏSMİ
## [RƏSMİ ELAN]

Acil ehtiyacat [ehtiyaclar] və istimdad [kömək istəmək] üçün telefonla gündüzləri 25-80, gecələri 6-23 nömrəli Polis Müfəttişi-Ümumiliyinə [Baş Polis Müfəttişliyinə] müraciət ediniz.

* * *

İkinci Azərbaycan firqəsi [diviziyası] taborlarında istixdam olunmaq [xidmətə qəbul edilmək] üzrə türkcə bilən 6 feldşerə lüzum vardır. Arzu edənlər vəsiqələri ilə bərabər, hər gün saat 2-dən saat 6 sonraya qədər Rotşildin evində firqə sərtəbabətinə [baş həkimliyinə] müraciət etsinlər.

## ELAN

Qafqaz Müsəlman Ordusuna 7 ay müddətində 150 min pud mal və qoyun əti vermək arzusunda olan zəvat [şəxslər] Mariinski caddədə 6 nömrəli evdə Ərzaq şöbəsindən şəraitini [şərtlərini] bilə bilərlər.

*710 6-2*

## ELAN

Azərbaycan Cümhuriyyəti Polis müfəttişi-ümumisindən

Əhalinin 2 ay müddətində vərəqə almaları üçün elan etdiyim əmrə əlavə olaraq xəbər verirəm ki, bu əmr müsəlman qadınlarına aid olmayıb, fəqət arzu edənlər əkslərini [fotoqraflarını] alacaqlar.

## ELAN

Ərzaq Nəzarəti ümuma elan edir ki, xüsusi şəxslərə işbu aşağıdakı mövqiflərdən [stansiyalardan] buğda, un və düyü göndərmək müvəqqəti olaraq mən' [qadağan] edilir:

1. Vladiqafqaz yolunun hamı mövqiflərindən.
2. Azərbaycan yolunun Yevlax, Malay, Ləki, Əlikənd, Ucar, Burquşeti, Müsüslü, Qarabucaq, Kürdəmir, Karrar, Sığırlı, Padar, Muğan, Hacıqabul, Pirsaat, Navahı və qeyri mövqiflərindən.
3. Gəncə mövqifindən.

Qeyd: Azərbaycan dəmiryolunun yuxarıda sayılan mövqiflərdən başqa mövqiflər[in]dən ərzaq aparmaq istəyənlər Ərzaq nazirindən xüsusi icazə almalıdırlar. Azərbaycan və Vladiqafqaz dəmiryollarının hamı mövqiflərindən xırda və böyük buynuzlu heyvan, kartof, soğan, lobya, kələm, süd, pənir, kolbasa, yumurta, sair meyvə, çaxır və qeyri məşrubat bilamümaniət [maneəsiz] qeyri-məhdud əndazədə aparmaq mümkündür. Bunların aparılmasına heç bir icazənamə lazım deyil.

*Ərzaq naziri: N. Yusifbəyov*
*Dəftərxana müdiri: S. Luçinski*

## DRAMA
## AXŞAM TAMAŞASI

Azərbaycan Hökumətinin teatrosunda (Sabiq Mailov)
Hacıbəyli Qardaşlarının Müdiriyyəti
Yekşənbə [bazar] günü təşrini-saninin (noyabrın) 3-ündə axşam teatro mövsümü açıldığı münasibətilə mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır:
İran tarixindən götürülmüş 6 pərdəli
"Nadir şah Əfşar" faciəsi.
Müsəlman xanımlarıyçün pərdəli lojalar vardır.
Biletlər teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaqdır axşam saat 8-də.
Rejissor: Sidqi Ruhulla (Mollazadə)
Məsul: Xəlil Hüseynzadə
Müdür: Zülfiqar bəy Hacıbəyli
İxtar [xəbərdarlıq]
Cümə günü təşrini-saninin (noyabr) 9-unda şühəda ailəsi [şəhid ailələri] mənfəatinə "Gaveyi-ahəngər" faciəsi mövqeyi-tamaşaya qoyulacaqdır.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

## DAXİLİYYƏ NAZİRİNİN ƏMRİ

Son zamanlarda şəhər daxilində qeyri-məsul və bu xüsusda kəndilərinə heç bir daireyi-rəsmiyyədən [rəsmi qurumdan] icazə verilməmiş və çox vaxt zabit yaxud polis uniforması geymiş bulunan əşxas [şəxslər] tərəfindən əhalinin həbs, yaxud alıb götürülmələri hadisələri vüqu bulmaqdadır. Böyləcə həbs, yaxud alıb götürülmələr əksəriyyən şəxsi intiqam, qan ədavəti və bəzən də təhdidlə iğfal [aldatma] yaxud da qarət qəsdi ilə yapılmaqdadır. Hal-hazırda qüvvətli bir idarənin vücuda gəlməsi ilə böylə cinayətlərin vüquuna [baş verməsinə] meydan verilməməsi pək aşkar olduğundan, onlar idareyi-örfiyyə [fövqəladə vəziyyət] qanunlarının bütün şiddəti ilə təqib olunacaqlardır. Şöylə ki, keçən ayın 26-sında buna bənzər cinayətlər işləməkdə divani-hərbi-örfi [hərbi məhkəmə] tərəfindən ittham edilən 4 şəxs asılmaqla edam cəzasına məhkum olmuşlardır.

İşbu halların tamamilə izaləsi [aradan qaldırılması] uğrunda bən pək şədid [çox şiddətli], pək qəti tədabir ittixaz edəcəyimi [tədbirlər görəcəyimi] əhaliyə elan ilə icab edəcək [lazımi] vəkaləti olmadan bir şəxsi həbs, yaxud alıb götürməkdə müttəhim bulunanları, hər hangi mövqe sahibi olursa-olsun, idareyi-örfiyyə qanunları ilə təqib edilmələri üçün divani-hərbi-örfiyə təslim ediləcəklərini ixbar eylərəm [xəbərdarlıq edirəm].

İşbu fənalıqla [mənfi halla] müvəf-fəqiyyətlə mübarizə edə bilmək üçün əhali kəndisi də Hökumətə yardım etməli və fəna müamiləni təsadüfən də olsa görən hər fərd şu cinayət haqqında qaraqol bəkləməkdə olan ən yaxın polis nəfərinə yaxud qeyri bir polis məmuruna bilatəxir [təxirə salmadan] xəbər verməyə və kəndi tərəfindən də şu cinayətin önünü almağa yaxud da cinayətkarların zühura çıxmasına mümkün olduqca çalışmağa məcburdur. Eyni zamanda tərəfimdən cinayət vüquunu mən' etmək [cinayətin baş verməsinə mane olmaq], yaxud da canilərin meydana çıxarılmaları xüsusunda kəndilərinə müraciət edəcək bulunan əşxasa [şəxslərə] hər bir cəhətcə təshilat göstərmələrini [kömək etmələrini, işlərini yüngülləşdirmələrini] polis məmurlarına lazım gələn əvamir əta edilmişdir [əmrlər verilmişdir]. İşbu tədabir [tədbirlər] sayəsində həbs, yaxud alıb götürmə vüquatının [hadisələrinin] önü alınacağına və büsbütün ortadan qalxacağına və bununla ümum nas və əfradın [bütün əhalinin və fərdlərin] istər mallarının, istər canlarının təhtiəmniyyətdə [təhlükəsizlikdə] olacağına əmniyyət [əminlik] hasil edirəm.

*Daxiliyə naziri:*
*Behbud xan Cavanşir*

## MAARİF NAZİRİNİN ƏMRLƏRİ

29 təşrini-əvvəl [oktyabr]
Nömrə 73
Bakı 2-nci zükur [oğlanlar] gimnaziyası müəllimi Aleksandr Qriyelski 4-üncü gimnaziyada direktor vəzifəsini ifaya təyin edilir.

*Maarif naziri əvəzinə: Şahtaxtinski*

30 təşrini-əvvəl [oktyabr]
Nömrə 74
Tələbə Əli Yusifzadə, təşrini-əvvəlin 26-sından etibarən Maarif Nəzarəti dəftərxanasında kargüzar təyin edilir.
Nömrə 75
Yekaterina İvanovna Dantseva təşrini-əvvəlin 21-indən Mariinski ünas [qızlar] gimnaziyasına rus lisanı müəlliməsi təyin edilir.
Nömrə 76
Aleksey Fyodoroviç Knyazev, Bakı 2-nci ünas [qızlar] gimnaziyasına fizika müəllimi təyin olunur.

*Maarif naziri: N. Yusifbəyli*

## ZİRAƏT NƏZARƏTİNDƏ
## [KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNDƏ]

29 təşrini-əvvəl [oktyabr]
Nömrə 67
Şamxor meşə dairəsi meşəbəyisinin 3-üncü sinfinə mənsub müavini Georgi Cavanşir, təşrini-saninin [noyabrın] 1-indən etibarən 2-nci sinfə mənsub hesab edilsin.
Nömrə 68
İstefada bulunan miralay [polkovnik] Kambulat bəy Yesiyev öz ərizəsinə görə, 28 təşrini-əvvəldən etibarən Bakı quberniyası Quba meşə dairəsinə meşəbəyi müavini təyin olunur.
Nömrə 69
Azərbaycan vətəgələri müdiri müavinliyinə 29 təşrini-əvvəldən etibarən Emil İvanoviç Şmerlinq təyin olunur.
Nömrə 71
Altıağac meşə dairəsi meşəbəyisi Hacıbaba Süleymanov, öz ərizəsinə görə təşrini-əvvəlin 29-undan etibarən vəzifəsinin ifasından və bilmərrə xidmətdən kənar edilir.
Nömrə 72
Gəncə quberniyasında üzümçülük və şərabçılıq komitəsinin fəaliyyəti ixtisar edildiyindən, bir agent ilə katib vəzifələri ləğv olunur. Agentlərin vəzifəsi təlimatçıların öhdələrinə buraxılır.

*Ziraət naziri: X. Sultanov*

## BİZ VƏ ONLAR

Qafqaz İslam Ordusu Komandanlığından aldığımız məlumata görə, Komandan paşa həzrətləri tam bir türk komandanına yaqışır bir hərəkətdə bulunmuşlardır. Qalalar yıxmağı bilən türk komandan və əsgərinin könülləri yapmağı da bildiklərini əsgərlərimizin əsir və yaralı düşmənlərə uzatdığı mərhəmətli əli, tatlı [şirin] dili bəyan etməkdədir.

İyirminci əsrin ən mədəni millətləri, millətlər müharibəsinin iksirinə dayanammadıqlarını kəndi fəna müamilələri [mənfi rəftarları], yaqışıqsız laflarıyla isbat etdilər. Düşmən əsirlərini açıqdan-açığa dürlü-dürlü vasitələr və yollarla məhv etmək üçün işin içinə hələ "rəsmilik" qarışan məmləkətlər vardır. Böylə müamilələrə [rəftarlara] bizim əsir düşən əsgər və zabitlərimiz də uğradı. Hətta düşmən ölkələrində ən çirkin müamilələrə hədəf olan yenə türk əsgəri oldu. Əsirlikdən yaxa[sı]nı qurtara bilən nəfərlərimizin firardan döndüklərinə hökm edərsiniz. Türkün qəbahəti çox da əsir olduğundan deyil, türk olduğundandır. Əsirlərimizi incidərkən düşmənlərimiz vicdanlarını aldatmaq kimi hərəkətlərdə bulundular. "Türklər bizim əsirlərin ətindən kabab yapdı, biz də sizi onun üçün məhv ediriz!" kimi yalanlar dəvəran etməkdə [dolaşmaqda] idi. Mən türkün "fərdi vicdanındakı" qüdsiyyəti Avropa millətlərinin ictimai vicdanlarında görəmmədiyimdən dolayı fəxr edirəm. Türk olmaq, ən eyi qəlbli bir insan olmaq deməkdir. Bizə vəhşi deyən Avropa beynəlmilliyətinə biz Şərqin açıq ürəkli bir övladı sifətilə alnımız açıq, könlümüz geniş olaraq çıxacağımıza qətiyyən şübhəm yoxdur. Qüsurlarımızı zərrəbinlərlə [mikroskoplarla] arayan millətlərə dağlar qədər eyiliklərimizlə müqabilə etdik və ediriz. Edəcəyimizi, gənc nəslin daha mərhəmətli olduğu isbat etməkdədir. Cəbhələrdə əsir düşən zabitlərin hangi millətdən olursa-olsun sövq ediləcəyi məntəqəyə yayan [piyada] olaraq getməməsi üçün mühafiz süvarilərimiz atını onlara buraxıb, kəndiləri yürüdüklərini İstanbul məcmuələri hər vaxt təsvir etməkdədir. Üsəranın [əsirlərin] iqamət etdiyi mövqelərdə ən gözəl yerlər Türkiyədəki əsirlərə buraxıldı. Xəstəxanalarda ən münasib qoğuşlar [palatalar] yaralı düşmənlərə təxsis edildi [ayrıldı]. Türkiyədə daha çox iltifata, mərhəmətə məzhər [nail] olanlar, heç şübhə yoxdur ki, yaralı əsirlərdir. Avropalılar deyir ki, yaralı oldu, əsir oldu ya olmadı düşmən yenə də düşməndir. Halbuki "yaralılar düşmən deyildir" düsturunu türklər dilləri və işləri ilə dəfələrlə söylədilər, yeri gəldikcə də isbat etdilər.

Böylə alicənablığın bir misalını da Bakıda gördük. Yurdu bulunan Rusiyada belə əkmək yerinə təkmə [təpik] yeyən rus zabitləri bolşevik cilvələrindən [oyunlarından] sonra Bakıda ac qaldılar. Geniş çərçivələrlə elan olunan "Rusiya hürriyyəti" onlara olmazın sözlər eşitdirdi.

Dün canını vətəninə hədiyyə edən rus zabiti bu gün təhqirlərə, hücumlara məruz qaldı. O hər yerdə xidmətdən qovuldu. Heç bir yerdə də ona iş verilmədi. Bu hal bizim ordu Bakını fəth edincəyə qədər burada da davam etdi. Bakı alındıqdan sonra zabitan [zabitlər] məmuriyyətlərə [dövlət qurumlarında işə] girdi. Fəqət bunların həpsini yalnız məmuriyyət bulmaqla keçindirmək pək güc [çətin] oldu. Açıqda yenə bir çox zabitan qaldı. Heç yerdən gəliri olmayan bu sinfin dərdini də hər kəsdən əvvəl Ordu Komandanlığı duydu və həman çarəsini bulub işə başladı. İştə [budur], bu ilin təşrini-sani [noyabr] ibtidasından [əvvəlindən] ailəli rus zabitlərinə hər ayda 200 rublə maaşla bir nəfərlik ərzaq tayını [rasionu, "payok"] eynilə, ailəsizlərə də ayda yüzər manat maaşla yenə bir nəfərlik ərzaq tayınının verilməsi xüsusunda Ordu Komandanı paşa həzrətlərinin əmr etdiklərini duyub sevindik. Bu əmri pək yerində gördüyümüzdən, ürəkdən alqışlayırız. Sanki türk həşrə qədər eyi qəlbli olaraq keçinməyə qərar vermişdir. Babalar demişlər ki, "Cənabi-haqq hər kəsə ürəyinə görə versin."

*Cavad*

## ORDU KOMANDANI
## PAŞA HƏZRƏTLƏRİNƏ ƏRZİ-TƏŞƏKKÜR

Təşrini-sani 334-də Bakıda yaşayan rus zabitanı [zabitləri] və ailələri namına [adından] üç rus miralayı [polkovniki] rus zabitlərinin vəkalətiylə Ordu səryavəri [baş yavəri] Asəf bəy vasitəsilə Komandan paşaya təqdim edildilər. İçlərindən birisi aşağıdakı sözlərlə ərzitəşəkküratı etdi:

*"Paşa həzrətləri, Bakıda mövcud olan rus zabitləri naminə göstərdiyiniz təvəccöhdən [diqqətdən], bəslədiyiniz hüsniniyyətdən [xoş niyyətdən] dolayı nümayəndə olaraq, ərzi-ehtiramat və şükrani etməyə [ehtiram və təşəkkür bildirməyə] gəldik. Aldığımız maaş və ərzaq, gördüyümüz eyilik, mənəviyyatımıza pək gözəl təsir etdiyindən dolayı bizlər bu lütfü bir rus sifətilə qəlbimizin ən səmimi bir nöqtəsində ilələbəd [həmişəlik] saxlayacağımıza əmin olunuz!"*

Paşa həzrətləri bundan məmnun oldular. Mumaileyhləri [adı çəkilən şəxsləri] fövqəladə bir səmimiyyətlə qarşılayıb, aşağıdakı sözləri söyləmək lütfündə bulundular:

*"Biz və siz bu gün əsgəriz. Əsl əsgər olan bir türk, bir başqa rus ailəsinin sıxıntı çəkdiyini qətiyyən arzu etməz. Binaileyh [ona görə] biz bu eyiliyi ordumuz və Azərbaycan Hökuməti naminə etməkdəyiz."*

Bu sözlərdən sonra paşa həzrətləri rus miralaylarının əllərini sıxıb ayrıldı.

## NURİ PAŞA HƏZRƏTLƏRİ
## HÜZURUNDA LƏNKƏRAN NÜMAYƏNDƏSİ

Cümə günü təşrini-saninin [noyabrın] 1-ində Lənkəran türkləri nümayəndəsi Teymur bəy Bayraməlibəyov Qafqaziya İslam Ordusu Baş Komandanı Nuri Paşa həzrətləri tərəfindən hüzura qəbul edilmişdir. Lənkəran islam əhalisi Teymur bəyi göndərmişdir ki, Avetisov qoşunlarının Lənkəran türk əhalisinə etdikləri cövrü-sitəmləri, qətlü-qarəti, həbs və axtarışları Qafqaz İslam Ordusu Komandanlığının nəzəri-etinalarına ərzlə, lənkəranlıların çəkilməz dərdlərinə, intəhasız müsibətlərinə və Avetisov qoşununun qanunsuzluq və vəhşiliklərinə xitam verilməsini istida [xahiş] etsin və tez kömək edilməsə lənkəranlıların məhv olacaqlarını bildirsin.

Komandan paşa həzrətləri cavab vermişlər ki, zavallı müsəlmanlara nə edilirsə, bizə məlumdur. Buna görə də Avetisov qoşunlarının keyfəmayəşasına [özbaşınalığına] və qanunsuzluqlarına xitam çəkmək üçün tədbirlər görülür. Müsəlmanlara xəbər veriniz ki, bu halları uzun müddət davam etməz.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

* Azərbaycan Hökuməti-Cümhuriyyəsi qərar vermişdir ki, sabiq Dövlət Bankı ilə münasibət aydınlaşdırılaraq bir qaydaya salınanadək, bu il eylülün [sentyabrın] 15-indən qabaq məzkur [adı keçən] banka verilmiş olan pulların həpsinin geri verilməsi mən' [qadağan] edilsin.

* Hökumətin 30 təşrini-əvvəl [oktyabr] tarixli iclasında qərar verilmişdir ki, bağlanmış müəssisələrin xidmətçilərinə, yaxud bu ya o səbəblə xidmətindən kənar edilən qulluqçulara maaş verilmək üçün Maliyyə Nəzarəti binagüzarlığına [sərəncamına] 500 min manat pul buraxılsın.

## POSTA VƏ TELEQRAF İŞLƏRİ

*(Posta və Teleqraf naziri Ağa Aşurov cənabları ilə müsahibə)*

Bu günlərdə Ağa Aşurov cənabları, mühərrirlərimizdən biriylə müsahibədə bulunduğu zaman atidəki [aşağıdakı] məlumatı vermişdir:

– Bu saat mənim ümdə fikrim pozulmuş teleqraf xətlərini düzəltmək və onları bir intizam üzrə qurmaqdır. Bundan ötrü Şəki, Şuşa, Salyan və Quba ilə müxabirata [əlaqə saxlamağa] davam edirəm.

Bakının Bayıl cəhətində olan teleqraf istasyonunu təmir etməkdəyiz. Sabiq hökumətin (bolşeviklərin) dənizə atmış olduğu makina parçalarını sudan çıxarıb gərəklilərini işə salırıq. Böylə ki, bir neçə gündən sonra radio (telsiz teleqraf) istasyonu hazır olar.

Digər mövcud teleqraf mövqifləri [stansiyaları] vasitəsilə Gəncə, Tiflis və Qars ilə də müxabirələr [xəbərlər; teleqramlar] mübadiləsi getməkdə. Müxabirə qəbul edən istasyon, İstanbuldan məlumat almağa belə müvəffəq olur.

Telsiz teleqraf mövqiflərinin məmləkət üçün böyük əhəmiyyəti haiz olduğunu nəzərə aldıqda, bütün Azərbaycanda mütəəddid [çox sayda] böylə istasyonların təmiri üçün təşəbbüsatda bulunacağam. Buna binaən [bu səbəbdən] burada radio məktəbi açılacaqdır. Posta və teleqraf işlərində təcrübə hasil etmiş və az bir zamanda müqtədir [iş bacaran] məmurlar hazırlamaq üçün acil bir proqrama tövfiqən [uyğun olaraq] bir post və teleqraf məktəbi də güşadı gözlənir. Bu məktəbə daxil olub müvəffəqiyyətlə təhsilini bitirə biləcək gənclər mükəlləfiyyəti-əsgəriyyədən müaf buraxılacaqlar [hərbi mükəlləfiyyətdən azad ediləcəklər]. Çün böylə xidmətdə olan əşxas [şəxslər] gərək mülki, gərəksə hərbi müxabirat [xəbərləşmə] üçün lazım olacaqlardır. Fəqət şimdilik şu məktəbə Əxzi-Əsgər Rəyasəti [Hərbi Xidmətə Çağırış İdarəsi] tərəfindən istər yaş, istər başqa səbəblərə görə təcil buyurulmuşları [hərbi xidmətləri təxirə salınanları] qəbul edəcəklər. Bununla bərabər Nəzarət [Nazirlik] tərəfindən xidməti son dərəcə lüzumluədd edilmiş müstəid [qabiliyyətli] gənclərin bu məktəbə düxulu [daxil olması] lazım görülsə, lap əsgərlikdən də onları almaq üçün lazımi binagüzarlıq [sərəncam] olacaqdır. Çün məqsədimiz vətənin məmuriyyəti [abadlığı] ilə millətin rifah halıdır. Fəqət gəncləri əsgərlikdən mən' etməmək [ayırmamaq] üçün hələlik Nəzarət böylə bir bina-güzarlıq tərəfdarı deyildir. Bu günlərdə fəlakətə uğramış bütün posta və teleqraf müəssisələri müayinə ediləcək. Lazımi məxaricat [xərclər] haqqında "smeta" hazırlandıqdan sonra hər bir müəssisənin heyəti-məmurinini [məmur heyətini] əskiltmək vasitəsilə izafə [artıq] xərclərin qarşısı alınacaqdır. Varidatın çoxalması ilə posta və teleqraf ümurunun [işlərinin] təsərrüfat cəhətini eyiləşdirmək üçün təşkilatlar düzələcəkdir. Bundan böylə müəssisələrin lazımi xərclərini və "smeta"larını nahiyə naziri [qəza müfəttişi] təhqiq və tədqiq edəcəkdir ki, paralar həqiqətən lazımı miqdarından artıq yaxud əskik olmasın. Ondan maəda [başqa] Nəzarət [Nazirlik] hazırkı posta və teleqraf tarifəsinə (тариф) yenidən baxıb, onun bir qədər əskilməsinə qeyrət edəcəkdir [çalışacaqdır]. Bu tərzlə müxabirat [xəbərləşmə] məsələsi xalq üçün bir az sühulət kəsb edər [asanlaşar]. Məmləkətdə sənaət [sənaye] və ticarət işləri nəşvünüma bulmuş olar [inkişaf edər]. Posta və teleqrafla para göndərmək (bərat əməliyyatı) məsələsinə ciddi surətdə diqqət edilir. O xüsusda bəratın ucuz və asan şəraitlə [şərtlərlə] başa gəlməsi üçün təşəbbüslər olur. Çün Avropa və Rusiyadan alınmış təcrübə bu növ ilə məmləkət sərmayəsinin posta və teleqrafla bərat edilməsinə səbəb olar. Netəkim [necə ki], bu son zamanda bərat məsələsi Azərbaycanda gündən-günə bir səhl [yüngüllük] və asanlıqla posta və teleqraf müəssisələrindən keçir. Camaat postaya verdiyi paranın Hökumət tərəfindən təmin edildiyini bilir. Ümum əhaliyə elan edilməlidir ki, posta və teleqrafla bərat edilən paralar şimdilik məmləkətimiz içərisində bişəkk və laşübhə [şəksiz-şübhəsiz] lazımi yerlərinə və sahiblərinə veriləcəkdir.

Gürcüstanla posta və teleqraf müqaviləsi əqdi [bağlanması] haqqında bizimlə Gürcüstan miyanında [arasında] müzakirat davam edir. Ümidvarız ki, bu yaxın zamanlarda bütün Zaqafqaziyada bərat məsələsi həll edilsin. Böylə müqavilələr digər qonşularımızla da əqd edəcəyiz [bağlayacağıq]. Posta müxabiratının [əlaqəsinin] bir az çətinliyi vəsaiti-nəqliyyəmiz [nəqliyyat vasitələrimizin] olmamasındandır. Buna binaən [görə] camaat xüsusi əşxas [şəxslər] vasitəsilə müxabirata girişmişdir. Bunun qarşısını almaq və müxabiratın fəqət [yalnız, ancaq] posta vasitəsilə olması üçün əhalini icbari surətdə postaya xidmət etdirmək fikrindəyiz. Tainki əhalinin özü posta nəqliyyatına müavinət [yardım] etsin.

*M. H.*

## GƏNCƏDƏ MİLLİ ZABİTAN
## TƏFTİŞ VƏ İMTAHAN
## MƏRASİMİ

Məlum olduğu üzrə, Gəncədə Azərbaycan Hökumətinin təlimgahı var. Burada, bu hərbi məktəbdə 250-dən fəzlə [artıq] zabit namizədləri oxuyurlar. Bu məktəbi qurtardıqdan sonra hər bir fərd zabit namizədi olur və 6 ay keçdikdən sonra zabit olur. Təlimgah təsis olunduğu hənüz 4 ay deyildir. Amma bu məktəb nəticəsi nə olduğunu qareini-kirama [dəyərli oxuculara] ərz etmək istəyirəm.

Bakı şəhəri Azərbaycandan kəsildiyi və əcnəbilər əlində bulunduğu zaman və Azərbaycan Hökuməti Gəncədə təşkil olunduqda Qafqaz İslam Ordusu təhti-idarəsində [idarəsi altında] olaraq bu məktəb təşəkkül etdi. Əvvəl zamanda Gəncə kimi şəhərdə lazi-meyialat [gərəkli avadanlıq] olmadığı vaxtda böyük bir müşkülata uğraşdıqda bu məktəb açıldı. Təlimgah məşhur zabit müəllimlərindən Atif bəy əfəndiyə tapşırıldı. Daha doğrusu onun hümməti sayəsində bu təlimgah təşkil olundu. Yavaş-yavaş məktəbə ərizələr verildi. O zamanda hənuz əsgər çağırılmamışdı. Deməli cavanlar böyük bir həvəslə təlimgaha daxil olmaq istədilər. Gecə-gündüz təlimgahda zabitan əfəndilər çalışmağa başladılar. Çocuqlar dəxi işə alışdılar. Şənbə günü təşrini-əvvəlin [oktyabrın] 6-sında Gəncə şəhərinin kənarında təlimgahda oxuyan zabit namizədləri üçün böyük təftiş və imtahan yapıldı. Həmin təftiş və imtahana Hökumət və ordu tərəfindən Bakıdan nümayəndələr dəvət olundu. Bu heyəti-məxsusə Bakıdan Gəncəyə rəvanə oldular. Bunların içində hər qəbil əslihə [silah] bilən zabitan əfəndilərdən var idi.

Heyət Gəncəyə gəldi. Burada tren yaxınlaşdıqda Gəncə tərəfindən vali İbrahim bəy Vəkilov, Bələdiyyə rəisi Ələsgər bəy Xasməmmədov, təlimgah komandanı Atif bəy, Mərkəz komandanı Salman Fəhmi bəy və qeyri əyan hazır idilər. Bir bölük əsgər müsafirləri istiqbal etdi [qarşıladı]. Birinci trendən Qafqaz İslam Ordusu Komandanı Nuri paşanın pədəri [atası] Əhməd paşa, ondan [sonra] Azərbaycan Qolordusu komandanı fəriq Əli paşa Şıxlı, Azərbaycan İkinci firqə [diviziya] komandanı, Ərkani-hərb əzasından [Baş Qərargah üzvü] Nazim bəy həzrətləri, o biri trendən Azərbaycan Hökuməti Maarif naziri Nəsib bəy Yusifbəyli, Ümuri-Xeyriyyə və Ədyan [Sosial Təminat və Dini Etiqad] naziri Musa bəy Rəfiyev, Daxiliyyə naziri namından [adından] vəkalətən Nəzarət idarə müdiri Mehdi bəy Hacınski, üçüncü trendən bütün zabit əfəndilər endilər.

Müsafirlərin vürudunu [gəlişini] vali və Bələdiyyə rəisi həzrətləri təbrik eylədilər. Ondan [sonra] bütün heyət şəhərə rəvanə oldular. Həman günü və axşamı müsafirlərə şəhər tərəfindən ziyafət verildi. Sabahı şənbə günü bütün heyət və Gəncə əhalisi, əyan, əşraf və tüccar dükanlarını bağlayıb şəhər kənarına gəldilər. Burada xüsusi bir mənzil [yer, məkan] düzəlmişdi. İran konsulu İsmail xan həzrətləri dəxi təşrif gətirmişdilər. Məşq üçün xüsusi bir proqram üzrə çadırlar, sipərlər və habelə hərb dəstgahları düzəlmişdi. Öylə bir izdihamikəsrət [böyük qələbəlik, sıxlıq] idi ki, deməli bu gün Azərbaycanın böyük bir bayramı idi. Hamı gəlmişdi ki, bir az müddətdə məktəb görmüş türk balalarının nəticəsi nə olduğunu görsünlər. Azərbaycan Qolordusu komandanı Əli paşa həzrətləri heyətlə bərabər səf çəkmiş cavanların qabağına gəldilər. Ondan paşa həzrətləri zabitan namizədlərinə "Əssəlamu əleyküm, əfəndilər" dedilər. Bir ağızdan çıxaraq makina misalı kimi cavanlar "Əleyküm salam, paşa həzrətləri" söylədilər. Sonra atidə [aşağıda] yazılan proqram mövcibincə [əsasında] məşqə şüru olundu [başlandı].

**Maddə**

1. Rəsmi-təqdim [təqdimat mərasimi] (təftişə və imtahana daxil olmayan nümunə taboru ilə nümunə makinəli tüfəng [pulemyot] bölüyü əfradı [əsgərləri] da təqdim olacaqlar).
2. Yerində yanaşıq nizam hərəkatı:
Hazır ol; əslihə istemalı [silah işlətmək], sağa-sola baxmaq, yerində dönüşlər, diz çökmək, ayağa qalxmaq, yerə yatmaq, süngü taxmaq (həm hamısı bir arada komanda ilə və həm də tək-tək olaraq).
Müxtəlif nişan vəziyyətləri, doldurmaq və qapamaq, nişangah düzəltmək, iki nişangah atəşi.
3. Çabuqluq (cəldlik) təlimləri:
Sürətlə müxtəlif cəbhələri almaq, bir vəziyyətdən digərinə keçmək, müxtəlif mövzeləri [mövqeləri] tutmaq.
4. Süngü və mübarizə təlimləri:
Həmlələr, sipər və irəliləmə, geriləmə, devrinmə [olduğu yerdə sağa-sola dönmə], tək nəfərin sabit (bir yerdə duran) hədəfə (nişana) təərrüzü [hücumu], ip hədəflərinə təərrüz, qarşı-qarşıya iki nəfər "saldatın" mübarizəsi, qəmə ilə təərrüzü, bir nəfərin məfruz (fərz olunan) iki düşmənə müqabiləsi.
5. Əndaxt [atəş etmək] tərbiyəsi (dərslərlə bərabər qaz maskası təlimləri):

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 3 noyabr (bazar günü) tarixli XXIX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Alçaq səpalarda [üçayaqlarda] nişan almaq, əndaxt [atəş] masası üzərində çalışmaq, müsəlləs (трехугольный) [üçbucaq] təşkil etmək, bu hərəkatı maska (маска) ilə icra eyləmək, hədəflər və müxtəlif əndaxt qaydaları haqqında dərs vermək, qaz maskalarının istemalı [istifadəsi] haqqında olan dərslər.

6. Müharibə əndaxtına hazırlıq təlimləri:

İrəlilisi yerə yatan ovçulara [nişançılara] (baş, boy, köks hədəflərinə) atəş, sıçrayanlara (təmdidə gələnlərə) atəş, təqviyəyə [köməyə] gələnlərə atəş, geri gedənlərə atəş, yandan zühur edənlərə atəş, cinahlardan gözükən süvarilərə atəş, gözükən topçuya, makinəli tüfəngə atəş.

7. Bomba təlimləri:

Təlim bombası dərs əndaxtları [atışları], uzun atma, yüksək atma, dəlikdən aşırma, sipərdən atma, bir nöqtəyə toplan[ma], qaz maskasıyla atma, tel qəfəslərə əndaxt [dəmir torlarla qorunan yerlərə atış].

8. Müxtəlif tərbiyeyi-bədəniyyə [bədən tərbiyəsi] təlimləri. Bəsit köprülərdən mürur [keçmə].

9. Sipərdən təlim bombasıyla müxtəlif nömrələrə hamil [nömrələnmiş] və sipərə təərrüz [hücum] etdiyi məfruz [fərz olunan] hədəflərə bomba atmaq.

10. Bir sipərə təərrüz etdiyi fərz edilən müxtəlif ovçulara [nişançılara] qarşı həqiqi bomba təlimləri ilə əndaxt [atəş].

11. Tel maneələrinin [dəmir torların] həqiqi bomba təxrib qəlibləri ilə təxribi [dağıdılması] və tel maqasları [qayçıları] ilə qət'i [kəsilməsi].

12. Bir xəfif makinəli tüfənglə təqviyə edilmiş bir hücum qitəsinin bir sipər parçasına təlim və həqiqi bomba ilə təərrüzü [hücumu], dərhal o sipər qisminin müdafiə halına vəz və təhvili [müdafiə halına keçməsi] (qum torbaları və sairə ilə).

13. Taqımın şəkli [nəzəri] və tətbiqi ovçuluğu:

Ova çıxmaq, buradan müxtəlif yürüşlər, toplanmaq, cəm olmaq, müxtəlif vəziyyətlərdən müxtəlif cəbhələrə qarşı mövze [mövqe] işğalı, tam sipər bulmaq, tam sipəri təbdil [dəyişdirmək], tam sipərdən mövze işğalı, təmdid, təqviyə, böyük bir sahənin nümayiş məqsədi ilə işğalı, məhdud məntəqələrin işğalı, sürülmə və sıçramalar, maskalanmaq, qazma və kürək istemalı [istifadəsi], bir mövzenin müdafiə üçün ehzarı [hazırlanması].

14. Təxmini-məsafə [məsafə təyini] və flama müxabirəsi [işarət bayraqları ilə xəbərləşmək]:

Təxmini-məsafəyə lüzum, təxmini-məsafəyə təsir edən şeylər, təxmini-məsafənin üsuli-təlimi və bu miyanda [bu arada] müxtəlif əvarizi-zəminin [yer səthindəki maneələrin; landşaftın] əsgərlik nöqteyi-nəzərindən faydaları.

Müxabirə flamaları ilə müxabirə icrası [işarət bayraqları ilə xəbərləşmənin həyata keçirilməsi].

15. Bir qismin tam sipərdə və ya açıqda tərtib və təqsimi.

16. Xədəmati-daxilinin [daxili xidmətlərin] əməli dərslərindən:

Bir çantanın və əlbisə və sairənin tərtibi, təchizatın təliq [bağlanması] və mühafizəsi, bir tüfəngin həzərdə [asayiş və istirahət vaxtında] və səfərdə təthiri [təmizlənməsi], məcruh [yaralı] və xəstələrə müavinəti-ibtidaiyyə [ilk yardım].

17. Hüzzari-kiramın [mötəbər şəxslərin] bir müddət istirahəti.

18. Tələbədən biri mərifətiylə bölüyün tərtib və təqsimi və bölük komandanına təqdimi və təqdimdən əvvəl tərtib və təqsimi yerində olub olmadığının müayinəsi.

19. Bölük hərəkatı:

I. (yerində) hazır ol, əslihə istemalı [silah işlətmək], sağa-sola baxmaq, yerində dönüşlər, diz çökmək, ayağa qalxmaq, yerə yatmaq, süngü taxmaq;

II. yerində hizaya gəlmək [sıraya düzülmək], cinahdan bir manqa irəli alaraq hizaya gəlmək;

III. doldurmaq və qapamaq, səffi-hərbdə [döyüş düzülüşündə] cəbhə irəlisində bir manqa atış, əyri bir istiqamətdə süvariyə atış, geri gedən qollara atış, iki nişangah istemalı [işlənməsi], nişangah təbdili [dəyişdirilmə si].

IV. durarkən və yürürkən təbdil [dəyişiklik] nizamları, irəli gedən bölük komandanının geridəki vəkili tərəfindən bölüyün sövqü, bölüyün işarətlə sövq və idarəsi, bölüyün sürətlə irəlidə və yanlarda kamilən mövze alması, təyyarəyə qarşı atəş, tam sipərə girmək, dağılmışkən toplanmaq, səffi-hərbdə [döyüş düzülüşündə] hücum;

V. bir taborun açıq olan sağ cinahında (iki makinəli tüfənglə təqviyə edilmiş [gücləndirilmiş] olduğu halda) təərrüzə məmur olan [hücum əmri verilən] bir bölük tələbədən birinin komandası altında təərrüzü, əsnayi-təərrüzdə [hücum əsnasında] düşmən əhvalına nəzərən istinadın istemalı və təərrüz nəticəsində hücum.

Tam saat 8-dən 2-yədək fövqəlzikr [yuxarıda yazılan] proqram üzərincə müharibə büsatı [nümayişi] oldu. Heyrətin dərəcəsi yox idi. Nə bir aləm! Camaatdan böyük-kiçik namizədlər irəli yeridiyi zaman, onlar dəxi gedirdilər. Kimsə bir yorğunluq hiss edəmməzdi, çünki bu bir hal idi ki, nə dil ilə demək və nə qələm ilə yazmaq olardı. Ancaq bunu ərz edə bilərəm ki, gərək bu imtahan və təftişi hər bir Azərbaycanlı görə idi. Ancaq gördükləri halda öz balalarının zəki, qabil olduğu və zabitan həzrətlərinin bu yolda çəkdiyi zəhməti bilərdi. O zamanda insanda öylə bir hiss oyanardı ki, insanın heyrətdən ağlı çaşardı.

*(sonu var)*

*Elçi*

## AZƏRBAYCANDA

* Qarabağdan xəbər verilir ki, o yerlərdə həyat adi qaydasına, məişət öz yoluna düşmüşdür. Ermənilərlə məhəlli [yerli] türklər miyanında [arasında] çox yaxşı münasibat [münasibətlər] hasil olmuşdur.

* Gəncə vilayətindən xəbər verirlər ki, un və taxıl qiymətləri çox bahalanmışlardır. Vilayətin müxtəlif yerlərində taxılın qiyməti də müxtəlifdir. Məsələn Gəncə qəzasında buğdanın putu 90 manatadək qalxmışdır. Halbuki Qarabağda putu 40-50 manatdır.

* Aldığımız məlumata görə, İstanbulda Azərbaycan pulu kəsilməyə başlamışdır. Yeni Azərbaycan pullarının qitə [kəsim] və rəngi türk pullarına bənzəyir.

## MÜSLİMƏLƏR SƏDASI [MÜSƏLMAN QADINLARININ SƏSİ]

Erməni bacılar!

Dərin bir təəssürlə sizin bizə xitabən yazdığınız müraciətnaməni oxuduq. Sizin möhnətiniz, keçirməkdə olduğunuz əsəfnak [təəssüf doğuran], ağır halınız bizə bəllidir. Zira bir az müddət bundan qabaq sizin indiki vəz [vəziyyət] və halınızdan daha ağır bir halı kəndimiz keçirdik. Hənuz Mart faciələri bizə vurmuş olduğu dərin yaralar sağalmamışdır. Altı ay zərfində hər gün biz eşidilməmiş təərrüzlərə [hücumlara], təhqirlərə uğradıq. Hər saat atalarımızın, qardaşlarımızın, zövclərimizin həyatı təhlükəyə uğrayırdı. Biz heç bir yandan nəzəri-təəssür və tərəhhümə [mütəəssir olma və mərhəmət nəzərinə] nail olmayırdıq. Bütün dünyadan əlaiq [əlaqəmiz] və rəvabitimiz [rabitəmiz] kəsilmiş, haqq və haqqaniyyət adın aparmaqdan məhrum, üzərimizə həml edilən [yüklənən] qanunsuzluqlardan şikayət etmək imkanından məslub [məhrum] biz dinməz-söyləməz o hali-dəhşətnakə [dəhşətli vəziyyətə] təhəmmül edirdik [dözürdük]. Fəqət biz keçmiş vəqayeni [hadisələri] pək mütəəssibanə arayanlardan deyiliz. Qoy sizin, bizim keçirdiyimiz məlaləngiz, əsəfnak [kədərli, təəssüf doğuran] hallar[ın] cəvabdə-həndəliyi [məsuliyyəti] qan içici millətpərəstlikdən partlamaq dərəcəsinə gələn zəvata [şəxslərə] həml olunsun [yüklənsin]. Hangilər ki, erməni millətinin müqəddəratını kəndi yədi-ixtiyarına [əlinə, ixtiyarına] alaraq nəhayət dərəcə ağılsızlıqla onunla oynayırlardı. Həmişə haqq və haqqaniyyət, ədalət tərəfdarı olan tarix onların cəzasını verdi.

Şimdiki vaxt ki, hər tərəfdən getdikcə yüksək, getdikcə usanmaqsızın, əl çəkməksizin bir surətdə bütün bəşəriyyətin ümumi sülh istəyən qahir səsi ucalır. Biz müslimələr [müsəlman qadınları] daha artıq sürət və rəğbətlə sizin müraciətnamənizi qarşılarız. Biz müslimələr heç vaxt, sabiqdə və şimdi sizə nifrət, ədavət bəsləməyirdik və bəsləməyiriz. Sizin söylədiyiniz haqdır. Sülh tələbi qadınlar ağzından birinci və kişilərdən yüksək olaraq ucalmalıdır.

Biz qadınlar, yalnız biz analar, bacılar, zövcələr sifətilə bizə yaxın əşxasın [şəxslərin] qəlblərində müstəqim [düz, doğru] bir yol aramağa qabil və qadiriz. Ulu və müqəddəs şüarlar – qardaşlıq, bərabərlik, insanlara qarşı məhəbbət ki, ələlxüsus şimdi böyük bir ciddiyyətlə dünya səhnəsinə atılmışdır, quru, boş lafü-gəzaf [bihudə sözlər] olaraq qalmamalıdır. Qoy ənsalımız [gələcək nəsillərimiz] analar südü ilə bərabər başqalara qarşı nifrət, istikrah [ikrah hissi], ədavət deyil, daimi bir məhəbbət hasil etsinlər. Qoy sabiqin müdhiş mənfur kölgələri nirvana[ya] dalsınlar və ətfalımızın [uşaqlarımızın] gəhvarələri [beşikləri] üstündə gələcək məhəbbət, haqq və haqqaniyyət nəğmələri ucalsın. Əvət, biz qadınlarda olan ali, müqəddəs hisslər üzrə əhd və yəmin edərək, bir-birimizə məhəbbət və səmimi bacılıq əlini uzadaraq, yeni və işıqlı həyat yollarını arayalım.

*Bir dəstə müslimələr namından [adından]:*
*Z. x. Qayıbova*
*S. x. Vəlibəyova*

## BAKI XƏBƏRLƏRİ

**Lövhələr haqqında**

Son zamanlar mağaza və sairələr qabağında asılan yeni lövhələr gözə çarpmaqdadır. Bunlar əksəriyyən ağ lövhə üzərində qırmızı yazılıdırlar. Bütün mağaza və sairə sahiblərinin nəzəri-diqqətinə elam olunur [bildirilir] ki, lövhələr qırmızı, yazısı ağ olmalıdır.

* * *

* Azərbaycan Hökuməti qət etmişdir ki, məmaliki-əcnəbiyyədə [xarici ölkələrdə] bulunan, təşrini-saninin [noyabrın] 1-inədək məkatibi-aliyyəyə [ali məktəblərə] daxil ola bilməmiş olan əsgərliyə düşən cavanları geri çağırsın.

* Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] nefte-provoddan [neft borularını doldurmaqdan] ötrü siyahı üzrə 1 milyon put neft verilmişdir.

* Təşrini-əvvəlin [oktyabrın] 31-inci günü saat 12 raddələrində Baş Fabrik müfəttişi kəsbkarlar ittifaqlarının [həmkarlar ittifaqlarının] birər nümayəndəsini dəvətlə, Fabrik Müfəttişliyi fəaliyyətini təcdid [bərpa] etmək barəsində müzakiratda bulunmuşdur [müzakirələr aparmışdır].

* * *

**Çaxıra gömrük**

Təşrini-əvvəlin [oktyabrın] 21-ində Azərbaycan Hökuməti idxal ediləcək çaxıra Avropa ticarətincə işbu gömrük vergisini qəbul etmişdir:

1) Azərbaycana boçkalarda gətiriləcək 16 dərəcə alkollu çaxırın putuna 9 rublə, 16 dərəcədən yuxarı olarsa hər putuna 15 rublə.

2) Şüşələrdə (butulka) gətiriləcək qaynamayan çaxırın hər putuna 12 rublə, qaynayanın isə hər putuna 25 rublə.

3) 25 dərəcədən yuxarı olan çaxır spirtli müskirat [içki] olduğu üçün 27[nci] maddə mövcibincə [maddəyə uyğun olaraq] baha qiymətlə gömrük alınır.

* * *

**Çaxırın azad satışı**

Təşrini-əvvəlin [oktyabrın] 21-ində Şurayi-Vükəla [Nazirlər Kabineti] Azərbaycan torpağında çaxır ticarətinin qayda üzrə aparılmaq məsələsini məhəlli-müzakirəyə qoyaraq, işbu qətnaməni qəbul etmişdir:

1) Əsl üzüm çaxırı ticarətini külli və cüzi surətdə satmaq olar. Fəqət bundan ötrü ispirto ticarəti qanunu mövcibincə [qanununa görə] xüsusi ticarət vərəqəsi almalıdır.

2) Xüsusi fərman çıxanadək qaynamayan üzüm çaxırı aksizini vedrəsi 10 rubləyə kimi, adi üzüm çaxırının akzisini isə vedrəsi 20 rubləyə kimi artırmaq.

3) Xüsusi fərman çıxana kimi ispirto, konyak və araq akzisini dərəcəsi 50 qəpiyə kimi artırmaq.

* * *

* Ərzaq Nəzarəti əmri ilə müvəqqəti olaraq bütün Vladiqafqaz mövqifləri [dəmiryolu stansiyaları] və Azərbaycan dəmiryolları mövqiflərindən: Yevlax, Malay, Ləki, Əlikənd, Ucar, Barquşeti, Müsüslü, Qarabucaq, Kürdəmir, Karrar, Sığırlı, Padar, Muğan, Hacıqabul, Pirsaat, Navahı və qeyrilərlə Gəncə mövqifindən taxıl və düyü aparmaq qadağan edilir. Yuxarıda məzkur [adı çəkilən] mövqiflərdən maəda [başqa] bütün başqa mövqiflərdən ərzaq aparmaq üçün Ərzaq nazirinin vəsiqəsi lazımdır. Başqa ərzağa gəldikdə, məsələn, yumurta kartof, meyvəcat, qaramal, çaxır, lobya, noxud, qeyrə [və sairə] bütün Azərbaycan mövqiflərindən aparmaq mümkündür. Bunlardan ötrü heç bir vəsiqə lazım deyildir.

* Maarif Nəzarəti Gəncə qəzası xalq məktəbləri müfəttişi tərəfindən məlumat almış ki, işbu sənədə türk lisanı bilən müəllimlər yoxluğundan qəza məktəblərində türk lisanı tədrisi müyəssər olmayacaqdır. Binaileyh [ona görə] milliləşmiş 49 xalq məktəblərində Hökumətin təmmuzun [iyulun] 28-i qanunu mövcibincə [qanununa uyğun olaraq], tədris bütünlüklə olmayacaqdır. Maarif naziri işbu sənəlik tədrisi əski qayda üzrə aparmağa icazə vermişdir; mümkün qədər türk lisanı tədrisini artırmalıdır. Bu barədə Maarif naziri Sədri-Şurayi-Vükəlaya [Nazirlər Kabinetinin Sədrinə] məlumat vermişdir.

## MARAQLI BİR SƏNƏD

Müharibə əsnasında düşmənimiz ordusu miyanında [arasında] olan əhvaldan bir şəkil göstərmək üçün Kaspi Donanması Baş komandanı Xaçikovun namına [adına] göndərilmiç məxfi bir ərzihalın [ərizənin; sənədin] eynini zeyldə [aşağıda] dərc edirik.

Ərzihal 1918 tarix[in]də iyun ayının 24-ündə 167 nömrə təhtində [altında] rəis Xaçikova vaxtilə Mərkəzi Kaspi Diktaturası üzvü Lemleyn tərəfindən təqdim edilmişdir.

İştə ərzihal:

"İyul ayının 2-ci günü nahar vaxtı "Krasnavodsk" bəhriyyəsi [donanması] Bakıya varid oldu [gəlib çatdı]. Kür çayı cəbhəsinin əhvalı xüsusunda bəhriyyə komandanı Zalenskini iki dəfə danışdırdım. Əvvəlcə Hərbi və Bəhri İşlər [Hərbi-Dəniz İşləri] komissarı Şeboldayev hüzurunda və sonra Mərkəzi Komitədə mərqumun [adı çəkilənin] ərzihalını aldım. Onun dediklərindən anladım ki, Kür çayı cəbhəsinin halı pək fəna və təəssüflüdür. Bizim düşmənə münasibətən [düşmənlə müqayisədə] çox qüvvətli olan firqəmiz (8-9 yüz saldat, 4 ədəd cəbəli top [dağ topu], 14 ədəd makinəli tüfəng [pulemyot]) olduğu halda, düşmənin ufacıq bir qüvvəsi qarşısında (4 yüzdən az müsəlman əsgəri, lakin pək müntəzəm, baxüsus süvari dəstələri kamalınca müntəzəm və yerli ürəfanın təhtikomandasında [yerli ziyalıların komandası altında]) məəttəssüf [təəssüf ki], heç bir ciddiyyət göstərməməklə bərabər, qətiyyən müharibə meydanında hərəkət etməmişlər. Onlar Salyanı işğal etmək bir tərəfə dursun, hətta irəlicə Ərəbqardaşbəyli kəndinə kimi irəlilədikləri halda, müsəlmanların yüngül bir hücumları və sıxıntıları nəticəsində Bankəyə kimi qaçmışlar. Bizim firqəmiz qətiyyən pərakəndə olub nizamı pozulmuşdur. Firqə rəisi həməvəqt [heç vaxt; qətiyyən] "Krasnavodsk" bəhriyyəsinin müqavimətdə bulunmadığını xəbər verir və səbəbini böylə deyirdi ki, guya firqə Kür çayının hər iki kənarı ilə müharibə etdiyi halda, naçalnik firqənin mərkəzində olmaq məcburiyyətində imiş.

Firqənin müəllimləri pək fəna və öz vəzifələrinə naşı olduqlarından saldatların da arasında nizam və qayda qətiyyən yox idi. Bizim qoşun heç kəşfiyyat yapmadan irəli yürüyürdü və müharibə zamanında nə alayların arasında rabitə saxlanırdı, nə də piyada qoşunla bəhriyyə arasında. Piyada qoşun tələb edirdi ki, qabaqca bəhriyyə əfradı irəliləyib müharibə etsinlər, bə'dəhu [sonra] piyada qoşun onların ardınca hərəkət etsin. Bu səbəbdəndir ki, bəhriyyə nəfəratı hamıdan artıq tələfat vermişdir. O cümlədən "Krasnavodsk" gəmisinin bir çarxı və bir qanadı zədələnmişdir. "Yelets" və "Araq" gəmiləri ağır, "Bakinets" və "Salyanets" isə yüngül surətdə zədələnmişdir. "Demosfen" gəmisi düşmənin əlinə keçmişdir.

Bu cəbhədə kifayət dərəcədə ciddiyyət göstərən və müharibədə iştirak edən yalnız bəhriyyə nəfəratı ilə makinəli tüfəng dəstəsi olubdur. Bunun da səbəbi aşkar və ufaq bir vəq'ədir [hadisədir]. Böylə ki, bəhriyyə komandası ilə makinəli tüfəngçilər firqəsi tamamilə rus əsgərlərindən mütəşəkkildirlər. Cəbhənin başqa hissələri, yəni erməni saldatları daima qarət və yerli fəqir əhaliyə zülüm edib, onları qətl və talan etmək ilə məşğul idilər. Onlar gündüzlər öz əf'alişəni'ə-lərinə [biabırçı hərəkətlərinə] məşğul olmaqla cəbhədə qalıb, gecələr gəmi və barjalarda gizlənirdilər. Hətta gündüzlər də 200 və 250 nəfər səngərlərdə bulunan saldatlardan ancaq 100 nəfəri səngərlərdə qalıb, baqisi [qalanı] gəmilərdə keçinirdilər. Düşmənin 6 düymə topları var idi. Lakin lazım olan qədər fişəngləri olmadığından, top atəşini lazımınca davam etdirəmmirlərdi.

Biz qaçdığımız zaman düşmənin əlinə bir çox hərbi ləvazimatımız keçmişdir. O cümlədən, 100 min fişəng, bir çox məcruh [yaralı] və məqtullarımız [ölülərimiz] onların əlinə keçdilər.

"Krasnavodsk"un müharibə meydanındakı ciddiyyətini ancaq bundan anlamaq olar ki, 2-3 top üçün götürmiş olduğu 800 top fişəngindən 700-ü düşmənə atılmışdır. Nəticədə də gəminin palubası [göyərtəsi] zədələnib, tikişləri su buraxır. Öylə ki, çarx böyük təmirata möhtacdır. Fövqəlzikr [yuxarıdakı] ərzihaldan siz hərbi cəbhələrimizdə olan əhvalı layiqincə anlarsınız, zənnindəyəm!"

Fövqdə tərcüməsi dərc edilmiş ərzihalın eyni Polis müfəttişiümumisi Bəhaəddin bəy əfəndinin dairəsində hifz edilinir.

İştə, düşmənin iqtidari-hərbiyyəsini [hərbi gücünü] və ləyaqətiinsa-niyyəsini [insani ləyaqətini] göstərəcək bir maraqlı sənəd.

*Məhəmməd Sadiq*

## TEATRO VƏ MUSİQİ

Hacıbəyli Qardaşlarının müdüriyyətinin teatr mövsümünü "Akif bəy" faciəsi ilə açacaqları "Azərbaycan" qəzetinin keçən nömrəsində elan olunmuş idi. Fəqət bu faciə üçün aktyorlarımızın mükəmməl surətdə hazır olmadığından dolayı, bunun əvəzinə İran tarixindən götürülmüş "Nadir Şah Əfşar" faciəsi bu yekşənbə [bazar] günü noyabrın (təşrinisani) 4-ündə axşam sabiq Mailov, şimdi isə Hökumət Teatrında mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər teatr kassasında satılmaqdadır.

Cümə günü noyabrın (təşrini-sani) 9-unda həmən teatrda Azərbaycan müharibəsi şühədasının ailəsi mənfəətinə olaraq "Gaveyi-ahəngər" nam faciə mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər nə vaxt satışa qoyulacağı afişada elan ediləcəkdir.

## QƏND VƏ ÇAY

Bakı Mərkəzi Ev Komitəsi Bakı əhalisinə məlum edir ki, Komitə "Kooperatsiya" ilə bərabər camaat arasında qənd və çay paylamağı öhdəsinə götürmüşdür. Qənd hər adama 3 çetver, girvənkəsi 3 manatdan və çay hər adama yarım girvənkə, girvənkəsi 28 manatdan veriləcəkdir. Bu qiymətlər heç bir növlə artırılmayacaqdır. Qənd və çay işbu təşrini-saninin 5-indən 10-una kimi buraxılacaqdır. Bu müəyyən vaxta kimi əhali bunları ala bilər. Sonra isə qənd və çay heç kəsə buraxılmayacaqdır.

Qənd və çay bu qərar üzrə paylanacaqdır:

1. Qənd və çay, təqsim edici mərkəzlərdən ancaq ev komitələrinə buraxılacaqdır.

2. Ev komitələri qənd və çayı almaq üçün məhəllə komitələri tərəfindən təshih və təsdiqi yapılmış siyahıları təqdim etməlidir.

3. Doğru məlumat verməyən komitələrin rüəsası və yaxud bədəfkar sədrlər divani-hərb məhkəməsində məsul olacaqlardır.

4. Şəhər İdarəsinin Ərzaq şöbəsi Mərkəzi Ev Komitəsinə çayı əlahiddə bağlılarda deyil, pudluq kisələrdə buraxmışdır. Bundan naşi Mərkəzi Ev Komitəsi əhalidən rica edir ki, çayı təqsim edici mərkəzlərdən aldıqda və yaxud üzvlərə payladıqda çayın yaxşılığına və banderoluna artıq diqqət etsinlər.

5. Bu barədə şikayət etmək istəyənlər Mərkəzi Ev Komitəsinin Ərzaq şöbəsinə müraciət etməlidirlər.

Ünvan: Merkuryevski caddədə nömrə 27. Telefon 56-00.

* * *

Bakı əhalisinə yardım olmaq üzrə Mənzil Müfəttişliyincə noyabr ayının ikisindən etibarən zirdə [aşağıda] yazılan furunlarda [çörəkbişirmə müəssisələrində] əkmək satdırılacaqdır. Birinci undan yapılmış xas əkmək girvənkəsi üç yarım və toz-torpaq və sair maddələrdən azadə ikinci növ əkmək girvənkəsi iki yarım manatdır. Bişkin olmasına son dərəcə diqqət olunacaqdır. Bu kimi xüsusata diqqət etmək üzrə furunlar üzərinə Uğurlu əfəndi təyin edilmişdir. Möhtərəm əhali tərəfindən ayrıca görüləcək nöqsanlardan dolayı Mariinskaya altıncı nömrədə Mənzil Müfəttişliyi Ərzaq şöbəsinə müraciət edilməsi rica olunur.

Çörək satılacaq dükanlar:

1) Kolyubakinski caddədə Liperidinin çörəkçi dükanı.
2) Çelyayevski caddədə Aleksandr Nevski sırada Liperidinin dükanı.
3) Merkuryevski caddədə İvanovun dükanı.
4) Krasnovodski caddədə Eftivulisin dükanı.
5) Telefon caddəsində Kolotçiyevin dükanı.
6) Balaxanski caddədə Andriadın dükanı.
7) Krasno-krest caddəsində Popondopulonun dükanı.

Hökumətin icazəsilə cümə günü 8 təşrini-sani [noyabr] 1918-də saat 12-də Qorçakovski caddədə Tağıyevin 1 nömrəli evində Evçilər İttifaqının mülkündə (Borsanın altında) Bakı Ticarət və Sənaət İttifaqı üzvlərinin ümumi iclası təyin olunmuşdur. Baxılacaq məsələlər:

1) İttifaq məramnaməsinin müzakirəsi [və] təsdiqi;
2) İclasda qalxacaq məsələlər.

*713 2-1*

### ELAN

Mənzil Müfəttişliyinə iki nəfər türkcə qonuşan bakılı və yaxud Bakı şəhərinə bələd məmur lazımdır.

Ünvan: Mariinski caddədə, nömrə 6.

*711 6-3*

Dün zəvaldan [günəş batdıqdan; axşam olduqdan] sonra 11 yaşında ağ qısraq (madyan) Ermənikəndindən Nikolayevski caddəsinə doğru gəlməkdə ikən, bir nəfər tərəfindən tutulub götürülmüşdür. Bu qısrağı firqə qərargahında Camal əfəndiyə təslim edənlərə və ya nərədə olduğunu xəbər verənlərə beş yüz manat mükafati-nəqdiyyə [nəğd pul mükafatı] əta ediləcəyi elan olunur.

*231 3-3*

**Müsəlman diş təbibəsi Ayna xanım**

Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

*213 12-10*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208 25-12*

**Arvad diş həkimi Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215 25-7*

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicə-xanasının müdiri nəzarəti altında süni dişlər qayırılır. Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216 25-7*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

*237*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Кв. N 236. Телеф. 36-91.

*12-2*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232 25-2*

**Doktor Kamilə xanım İsmayılov**

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

*235 12-2*

Satılır təzə ayaq iş maşını "Zinqer", naxış-tikiş alətiylə bərabər və Vyana dərisindən çamadan nikel alətiylə bərabər. Ünvan: Balaxanı, telefon 7.

*234*

**Lazımdır**

Binəqədidə neft mədənində təcrübəli kontrolyor lazımdır. Ünvan: Balaxanski caddədə 1-ci dalan, ev nömrə 3. Rzayev.

*233*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Elan***

*"Ərzaq Nəzarəti ümuma elan edir ki…": Bu elan, qəzetin eyni nömrəsində xəbər mətni kimi təkrarən verilmişdir. İki mətn arasında cüzi fərq var. "Bərgüşad" stansiyasının adı elan mətnində "Burquşeti", xəbər mətnində "Barquşeti" kimi getmişdir.*

*"Burquşeti": Azərbaycanın Ucar rayonu ərazisindəki Bərgüşad kəndi nəzərdə tutulur.*

*"Müsüslü": Azərbaycanın Ucar rayonu ərazisində kənd və dəmiryolu stansiyası.*

*"Qarabucaq": Azərbaycanın Kürdəmir rayonu ərazisində kənd və dəmiryolu stansiyası.*

*"Muğan": Azərbaycanın Hacıqabul rayonu ərazisində qəsəbə və dəmiryolu stansiyası olan "Muğan" nəzərdə tutulur.*

***Biz və onlar***

*"İyirminci əsrin ən mədəni millətləri, millətlər müharibəsinin iksirinə dayanammadıqlarını…": "İksir" keçmişdə yalançı kimyagərlərin (simyaçıların) digər metalları qızıla çevirdiyini iddia etdikləri maddəyə deyilirdi. Burada maddənin tərkibini göstərən və həqiqi xassəsini üzə çıxaran cövhər (reaktiv) mənasında işlənmişdir. Dünya müharibəsi, sülh dövründə özlərini mədəni aparan millətlərin həqiqi simasını üzə çıxarmış, açıb göstərmişdir.*

***Ordu komandanı paşa həzrətlərinə ərzi-təşəkkür***

*"Təşrini-sani 334-də…": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 1918-ci ilin noyabr ayına uyğundur.*

***Posta və teleqraf işləri***

*"M. H.": "Azərbaycan" qəzetində bu imza Hənəfi Zeynallıya məxsusdur.*

***Müslimələr sədası***

*"Qoy sabiqin müdhiş mənfur kölgələri nirvana[ya] dalsınlar…": "Nirvana" sözü burada güman ki, "mütləq heçlik; əbədi heçlik" kimi mənalarda işlədilmişdir.*

***Bakı xəbərləri***

*"Baş Fabrik müfəttişi": Sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.*

*"Fabrik Müfəttişliyi": Rusiya imperiyasında sənayenin inkişafına bağlı olaraq XIX əsrin axırlarına doğru yaradılan, sənaye müəssisələrində əmək şəraitinin qanunlara uyğun olmasına nəzarət edən dövlət qurumu idi. Bakı quberniyasının Fabrik Müfəttişliyinin heyəti Baş Fabrik müfəttişindən və sahə müfəttişlərindən ibarət idi.*

***[Xəbər]***

*"Ərzaq Nəzarəti əmri ilə müvəqqəti olaraq…": Bu xəbər, qəzetin eyni nömrəsində elan mətni kimi təkrarən verilmişdir. İki mətn arasında cüzi fərq var. "Bərgüşad" stansiyasının adı elan mətnində "Burquşeti", xəbər mətnində "Barquşeti" kimi getmişdir.*

***Maraqlı bir sənəd***

*"Firqənin müəllimləri…": təlimatçılar (instruktorlar) nəzərdə tutulur.*

*"Barja", yaxud "barj": adətən yedəkdə çəkilən böyük yük gəmisi.*

*"Düşmənin 6 düymə topları var idi.": Burada kalibri 6 düym olan toplar nəzərdə tutulur.*

# Oxucu məktubları






## Kəndimiz mavi yanacaqla təmin edildi




**Yaşadığımız kənd rayon mərkəzindən o qədər də uzaqda deyil. Son illər kəndimiz böyüdüyündən burada əlavə yaşayış massivi salınmışdır.**

Lakin yeni massivdə qaz xətti olmadığından insanlar olduqca əziyyət çəkirdilər. Xüsusilə qış mövsümü gələndə hərə bir yolla evinin isidilməsi üçün yollar axtarırdı.

Şükürlər olsun ki, indi bu problemdən azad olmuşuq. Aidiyyəti təşkilatlara etdiyimiz müraciətlər səmərəli oldu və burada yaşayan 84 ailə mavi yanacaqla təmin edildi.

Hörmətli redaksiya! Qarşıdan soyuq qış ayları gəlir. Bizi bu çətinlikdən azad edən, evlərimizin mavi yanacaqla təmin olunmasında əməyi olanlara qəzetiniz vasitəsilə minnətdarlığımızı bildiririk.

*Cavanşir QULİYEV,*
*Göygöl rayonunun Quşqara kənd sakini*

## Hər tərəfi təmiz şəhər

**Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Məlum olduğu kimi, sənaye müəssisələrinin çoxluğu bəzən yerləşdiyi ərazidə ekoloji problem yaradır. Bizim şəhərdə isə belə deyil.**

Hazırda Sumqayıtdakı bütün müəssisələr yeni texnologiyalardan istifadə etdiyi üçün havanı çirkləndirmirlər. Elə ona görə də bu gün Sumqayıt ekoloji cəhətdən təmiz şəhər sayılır.

Amma təmizlik təkcə ekologiyadan asılı olmur. Mən 2-ci mikrorayonda yaşayıram. İş yerim dəniz kənarındadır, oradakı istirahət mərkəzlərinin birində çalışıram. Hər səhər evdən çıxanda yaşadığım binanın qarşısında təmizlik işləri aparan kommunal idarənin işçiləri ilə rastlaşıram. İş yerimə qədər iki mikrorayon keçirəm. Demək olar ki, həmin ərazilərdə də eyni mənzərə ilə üzləşirəm. Axşam geri dönəndə yenə də bu insanların küçələri təmizlədiyinin, yaşıllıqları suladıqlarının şahidi



oluram. Tez-tez üzləşdiyimizdən çoxunu sifətdən tanıyıram da. Mikrorayonumuzda onlara çox vaxt sakinlər də yardımçı olur. Ağacların sulanması, diblərinin bellənməsi, oturacaqların təmir edilməsi kimi işlərdə sakinlər əllərindən gələni edirlər. Hər tərəfi təmiz və səliqəli göründə insanın ruhu şad olur. Nahaq deməyiblər ki, təmizlik imandandır.

*Bakir MƏMMƏDOV,*
*Sumqayıt şəhər 2-ci mikrorayon sakini*

## Bakının küçələrindəki bulaqlar niyə yox olub

**Bakının küçələrində adi su tapmaq problemdir. Bu cənub şəhərində kiməsə günəş vurarsa, istidən halı pisləşərsə, huşunu itirərsə, bir içim su tapmazsan ki, üzünə vurasan.**

Gərək mütləq mağazalara qaçasan. Hansı ki mərkəzin yaşıllıqlar yerləşən məkanlarında su xətləri var və yeri gəldikdə, kritik vəziyyətlərdə onlardan istifadə etmək olar. Lakin nə edəsən ki, hansı su xəttinin kranına baxırsan, açacağı üstündə deyil, çıxarılıb.

Bağbanlar onları ya kəlbətin, ya da xüsusi alətlərlə açırlar. Əvvəllər bütün şəhərlərin, o cümlədən paytaxtın küçələrində bulaqlar vardı. Həmin bulaqlar öz dizaynları ilə həm şəhərin görkəminə əlavə yaraşıq verər, həm də əhalinin suya olan ehtiyacını ödəyərdi. İndi isə Bakının xüsusən mərkəzi küçələri iaşə obyektlərinə çevrilib. Allah eləməmiş, cibində pulu olmayan birinin ciyəri yansa, bir qurtum su tapmayacaq. Görəsən ilk baxışdan adi görünən bu problem haqqında fikirləşən varmı?

*İman MİRZƏZADƏ,*
*Bakı sakini*



## Lənkərandakı "Dairəvi qala" abidəsi dağılıb gedir

**Cənub mirvarisi Lənkəranın simvolu olan, xalqımızın minillik tarixini özündə yaşadan, əsrlərin yadigarı qədim "Dairəvi qala" abidəsi məhv olmaq təhlükəsi ilə üz-üzə qalıb.**

Azərbaycanın tarixi və mədəni abidələrin reyestrində yerli əhəmiyyətli abidə kimi qeydə alınan, XVIII əsrin yadigarı olan qala Lənkəran şəhərinin general Fikrət Məmmədov küçəsində yerləşir. Abidə 1869-cu ilə kimi cənub bölgəsində baş verən bir sıra qanlı müharibələrdə mühüm müdafiə və dayaq məntəqəsi rolunu oynayıb. Ərazinin rus qoşunları tərəfindən işğalından sonra ümumi qala divarları dağıdılıb və hərbi qala ləğv edilib. "Dairəvi qala"dan isə həbsxana kimi istifadə olunub. Bu da 1970-ci ilə qədər çəkib. Hətta bəzi mənbələrdə göstərilir ki, İ.Stalin bir müddət burada dustaq saxlanılıb.

Qala əsasən 2015-ci ilin fevral ayından dağılmağa başlayıb. Həmin günlər bölgəyə yağan güclü qar qalanın dam örtüyünün müəyyən hissəsində aşınmalara səbəb olub. Aylar, illər ötdükcə isə abidə qəzalı vəziyyətə düşüb.

Deyilənlərə görə, qalada təmir-bərpa işlərinin aparılması üçün sənədlər hazırlanaraq müvafiq dövlət orqanlarına təqdim olunub. 2019-cu ildə təmir-bərpa işlərinin aparılmasına söz də verilib. Amma bu müddətdən 3 il keçməsinə baxmayaraq, əməli iş görən yoxdur.

*S.CAVADOV,*
*Lənkəran*

## Qaz yox, odun da tapmaq olmur



**Dağlıq ərazisi olan Daster özündə Hamarat, Dzdipok, Daster və Bradi kəndlərini birləşdirir. Onlar ucqar kəndlər olsalar da, təbiətin füsunkar guşəsində qərar tutublar. Ölkəmizdə gedən quruculuq işləri hər yerdə olduğu kimi, buranın da əhalisini sevindirir. Qədim tarixə malik bu dörd kəndin adamları əzəldən halal zəhmətlə gün-güzəran keçirir, dövlətin gücünə, qüdrətinə inanır və bu inamla da ərazidəki bir sıra sosial problemlərin həllini gözləyirlər.**

Mavi qazın yoxluğu son illər burada yaşayan əhalini daha çox əziyyətə salır. Artıq yanacaq qıtlığını qarşılamaq üçün odun da tapılmır. Belə ki, əvvəllər yanacaq odunu meşələrin hesabına tədarük olunurdu. İndi meşələrə odun üçün ayaq basmaq mümkün deyil. Bu səbəbdən odunun qiyməti beş qat bahalaşıb. Daster də ucqar ərazidə yerləşdiyi üçün buranın soyuq günləri çox olur. Bradi kənd sakini İlyas Qurbanov deyir ki, artıq bir neçə ildir evləri isitməyə yanacaq odun tapa bilmirlər: "On ildir qazın verilməsi yalnız söz-söhbət səviyyəsindədir".

Dasterli Ağadadaş Babayev isə bildirir ki, hər il qış gələndə odun da tapa bilmirik ki, onun hesabına qızınaq. Görünür bu qış da belə olacaq. Meşələr üzümüzə bağlanıb, odun qalxıb qızıl qiymətinə. Nə edəcəyik, bilmirik".

*Zəfər ORUCOĞLU,*
*Lerik rayonu, Bradi kəndi*

## Sahibsiz itlərin əlindən bezmişik

**Son illər ölkəmizdə aparılan abadlıq və yenidənqurma işləri yaşadığımız Şəmkir rayonunun Şiştəpə kəndini də başdan-başa dəyişmişdir. İndi kəndin, demək olar ki, su, qaz, elektrik təminatında problem yoxdur.**

İstifadəyə verilən elektron ATS kənd sakinlərinə internetə çıxış əldə etməyə imkan vermişdir. Küçələrə asfalt salınmış, mədəniyyət evi, kitabxana istifadəyə verilmişdir. Ümumiyyətlə, kəndimiz indi şəhərdən heç də geri qalmır.

Lakin bütün bu inkişafı gözdən salan bir məsələ bizi çox narahat edir. Son vaxtlar kənddəki sahibsiz itlərin əlindən bezmişik. Bunun da əsas səbəblərindən biri kəndin bir neçə yerində məişət tullantılarının yığılıb



qalmasıdır. Zibilin vaxtında daşınmamasının nəticəsidir ki, sahibsiz itlər həmin zibilxanalara toplaşır, sonra isə sürü ilə kəndin küçələrində dolaşırlar. Bəzi hallarda bu itlər insanlara da hücum edirlər.

Hörmətli redaksiya! Xahiş edirik ki, bu problemdən qurtulmaq üçün səsimizi əlaqədar yerlərə çatdırasınız.

*İlham VƏLİYEV,*
*Şəmkir rayonunun Şiştəpə kənd sakini*

## 50 ildir bağbanlıq edir



**Hörmətli redaksiya! Sizə bu məktubumda öz halal əməyi ilə el-obanın hörmətini qazanmış Şıxəli Kazımovdan danışmaq istəyirəm. Şıxəli kişinin 76 yaşı var. Yaşadığı Lənkəranın Sütəmurdov kəndində ömrünün 50 ildən çoxunu bağbanlığa həsr edib. Onun bağında 30 növ olmaqla 500-ə yaxın meyvə ağacı var. Bu ağacların hamısını Şıxəli kişi özü əkib becərib. Palçığı ələyir, sonra da sitrus tinglərini polietilen qablara əkir. Deyir ki, tinglər polietilen qablarda daha tez inkişaf edir və yaxşı satılır.**

Şıxəli kişi sitrus bitkilərinin calağında calaqaltı kimi əsasən cır limondan istifadə edir. Onun sözlərinə görə, belə olanda calaq daha yaxşı tutur: "İyul-avqust aylarında calaq edirik. Yazda isə kəsirik, pöhrə verir. Payızda artıq əkinə yararlı olur. Kəsəndə də fikir veririk ki, tutub, yoxsa yox. Tutmayıbsa, qalır növbəti ilə".

Təcrübəli bağban sitrusdan başqa, yerli meyvələrdən armud, alma, gavalı və şaftalının da tinglərini calaq edir. Yaxın-uzaq yaşayış məntəqələrinin sakinləri ağac tingləri üçün məhz Şıxəli kişiyə müraciət edirlər. O da öz növbəsində heç kəsi əliboş qaytarmır. "Ehtiyacı olan gəlir, kömək edirəm. Bax, bu armud tingləri dözümlü və uzunömürlüdür. Armud armuda calaq olunur. Narazı deyiləm, adamların alıcılıq qabiliyyəti qənaətbəxşdir. Çörək pulumu çıxarıram, bəzən artıq da qalır. İndi payız fəsli olduğundan alıcılar daha çox gəlirlər", - deyə Şıxəli Kazımov bildirir.

Bir sözlə, Şıxəli kişi işinin əsl peşəkarıdır. Bu gün hansı növ meyvə ağacına tələbat varsa, onu yetişdirməyə üstünlük verir. Bu, onun üçün həm mənəvi zövq, həm də qazanc mənbəyidir.

*Sehran YƏDULLAOĞLU,*
*Lənkəran rayonu*

## AZƏRBAYCAN-a cavab verirlər

## Dağ kəndinin problemləri həll edilir

**"Azərbaycan" qəzetinin 30 avqust 2022-ci il tarixli nömrəsində dərc edilmiş "Dağ kəndinin dağ boyda dərdi - yol, işıq, qaz" sərlövhəli yazı ilə bağlı Lerik Rayon İcra Hakimiyyətinə göndərilmiş 9 sentyabr tarixli məktuba tərəfimizdən baxılıb.**

Məlumat üçün bildiririk ki, Lerik rayonu Osyodərə kənd inzibati ərazi dairəsinin Xanəgah kəndi rayon mərkəzindən 41 kilometrlik məsafədə yerləşir. 194 təsərrüfatı, 164 yaşayış evi olan kənddə 1155 nəfər əhali yaşayır. Kənddə tam orta məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərir. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə kənddə 96 şagird yerlik modul tipli məktəb binası inşa edilmişdir.

Rayon üzrə 56 yaşayış məntəqəsi qazlaşdırılmışdır. 2022-ci ildə "Azəriqaz" İstehsalat Birliyinin daxili imkanları hesabına 8 yaşayış məntəqəsi qazlaşdırılacaqdır. Hazırda rayonun Züvüc və Babaküçə kəndlərinin qazlaşdırılması ilə bağlı quraşdırma işləri davam etdirilir. Qazla təmin olunmamış bütün yaşayış məntəqələri üzrə tələb olunan sənədlər rayon icra hakimiyyəti tərəfindən "Azəriqaz" İstehsalat Birliyi ilə birlikdə hazırlanaraq Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir. Qarşıdakı illərdə rayon üzrə qazlaşmayan yaşayış məntəqələrinin, o cümlədən Xanəgah kəndinin də qazlaşdırılması nəzərdə tutulmuşdur.

Lerik şəhərində 16,5 meqavatlıq modul tipli elektrik stansiyası, 35 kilovoltluq Lerik-Yardımlı-Masallı elektrik hava xətti inşa edilmiş, Lənkəran-Hamarat-Lerik 35 kilovoltluq elektrik hava xətti əsaslı təmir edilmişdir. Zərigüməco, Siyov və Rvarud kəndlərində 35/10 kilovoltluq yarımstansiya tikilmişdir. 2015-ci ildən başlayaraq Lerik şəhəri daxil olmaqla 12 yaşayış məntəqəsindəki bütün 10 və 04 kilovoltluq elektrik hava xətləri sipp kabellərlə əvəzlənmiş, abonentlər üçün yeni sayğaclar quraşdırılmışdır. 30 yaşayış məntəqəsində istismar müddətini bitirmiş transformatorların yerinə müasir yeni transformatorlar qoyulmuşdur. Bundan başqa, 10/04 kilovoltluq elektrik hava xətlərində 5 min ədəddən yuxarı istismar müddətini bitirmiş dayaq yeniləri ilə əvəz edilmiş, naqillər dəyişdirilmişdir. Osyodərə kənd inzibati ərazi dairəsinə daxil olan bütün kəndlərdə, o cümlədən Xanəgah kəndində elektrik hava xətlərində təmir işləri aparılmışdır. Hazırda 92 kilometrlik Noda, Əliabad, Nüvədi və Vizəzəmin kənd inzibati ərazi dairələrini birləşdirən 10 kilovoltluq elektrik hava xətlərinin əsaslı təmiri işləri həyata keçirilir. Qarşıdakı illərdə rayonun bütün elektrik təsərrüfatının, o cümlədən Xanəgah kəndinin elektrik təsərrüfatında da əsaslı təmir-bərpa işləri aparılacaq.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Bülüdül kəndinin mərkəzindən keçən 36 kilometrlik Noda-Şingədulan-Xanəgah avtomobil yolunun tikintisinə ilkin olaraq 14 sentyabr 2013-cü ildə 2 milyon və 19 avqust 2014-cü ildə 7 milyon manat rayon icra hakimiyyətinə, 1 noyabr 2016-cı ildə isə 6,6 milyon manat vəsait "Azəravtoyol" ASC-yə ayrılmışdır.

İnşası 2017-ci ildə başa çatdırılmış Noda-Şingədulan-Xanəgah avtomobil yolunda asfalt qatının sıradan çıxması, çökmə və sürüşmələrin yarandığını nəzərə alaraq, rayon icra hakimiyyəti tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Fövqəladə Hallar Nazirliyinə və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə müraciət edilmiş, mütəxəssislər tərəfindən yola baxış keçirilmişdir. Məlum olmuşdur ki, tikinti-norma və qaydalara əməl edilməməsindən və yağan intensiv yağışlar nəticəsində yolda aktiv torpaq sürüşmələri baş vermiş, ağırtonnajlı maşınların hərəkəti səbəbindən ayrı-ayrı kilometrlərdə asfalt qatı zədələnmişdir. Podratçı təşkilat "Yol tikintinəqliyyatservis" MMC tərəfindən tikintisi həyata keçirilən yolda yaranan qüsurların aradan qaldırılması üçün təşkilata tapşırıqlar verilmiş, qısa vaxt ərzində yolun norma və qaydalara uyğun tikilib istifadəyə verilməsi tapşırılmışdır. Tikinti təşkilatı tərəfindən yaranan qüsurların bir hissəsi 2018-ci ildə aradan qaldırılsa da, sonrakı illərdə yolun bərpası ilə bağlı heç bir iş görülməmiş, yolda nəqliyyatın hərəkəti daha da çətinləşmişdir. Bu da sakinlərin haqlı narazılığına səbəb olmuşdur.

Noda-Şingədulan-Xanəgah avtomobil yolunun bərpası ilə bağlı rayon icra hakimiyyəti tərəfindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, kəndin telefonlaşdırılması üçün Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi qarşısında məsələ qaldırılmışdır.

*Əkbər ABBASOV,*
*Lerik Rayon İcra Hakimiyyətinin başçısı*

## "Qəsəbədaxili yollar yerli icra və bələdiyyə orqanları tərəfindən təmir olunur"

**Qəzetimizin 30 avqust 2022-ci il tarixli nömrəsində dərc edilmiş "Bir kilometr yola çınqıl tökən tapılmır" sərlövhəli oxucu məktubu ilə əlaqədar Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi redaksiyamıza məktub göndərmişdir. Məktubda deyilir:**

"Məqalədə Abşeron rayonunun Hökməli qəsəbəsi ərazisində yerləşən Xurşidbanu Natəvan küçəsinin təmirə ehtiyac olduğu vurğulanır. Qeyd etmək istəyirik ki, Abşeron rayonu ərazisində dövlət mülkiyyətində olan qəsəbədaxili prospekt, küçə və yollar Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin balansında deyil və bu, avtomobil yollarında hər hansı təmir, həmçinin saxlanma işləri yerli icra və ya bələdiyyə orqanları tərəfindən həyata keçirilir.

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikası Prezidentinin 9 yanvar 2020-ci il tarixli sərəncamına əsasən, Abşeron rayonunun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində yerləşən, yerli icra orqanlarının mülkiyyətində olan, ümumi uzunluğu 29,2 kilometr təşkil edən avtomobil yollarının təmiri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə həvalə olunmuş və bu istiqamətdə yerinə yetirilən işlər həmin il başa çatmışdır.

Qeyd edirik ki, sözügedən küçənin Dövlət İnvestisiya Proqramı çərçivəsində təmiri üçün məqsədyönlü maliyyə vəsaitinin ayrılması barədə yolun mülkiyyətçisi tərəfindən aidiyyəti üzrə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə müraciət olunmasını məqsədəuyğun hesab edirik".

## "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə müraciət etmişik"

**"Abşeron rayonu Hökməli qəsəbəsinin Natəvan küçəsində yaşayan Hüseyn Qurbanov və digər sakinlər tərəfindən edilmiş müraciətlə əlaqədar "Azərbaycan" qəzetində dərc edilmiş "Bir kilometr yola çınqıl tökən tapılmır" başlıqlı məqalədə qeyd olunan faktlarla bağlı Abşeron Rayon İcra Hakimiyyətində müvafiq araşdırma aparılmışdır.**

Bildiririk ki, kəndin bütün küçə və yolları yerli bələdiyyənin balansındadır. "Avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 9 yanvar 2020-ci il tarixli sərəncamı ilə Abşeron rayonu ərazisində beş yaşayış məntəqəsində intensiv hərəkət olan baş küçələrin abadlaşdırılması üçün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə vəsait ayrılmışdır. Bu vəsait hesabına Abşeron rayonunun beş yaşayış məntəqəsində intensiv hərəkətin olduğu və ümumi uzunluğu 29,2 kilometr olan 23 küçə asfaltlanmışdır. Növbəti mərhələdə daha iki yüzdən çox küçənin, eləcə də Hökməli qəsəbəsindəki küçələrin abadlaşdırılması məqsədilə tərəfimizdən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məktubla müraciət olunmuşdur.

Sözügedən küçəyə nəzarətin gücləndirilməsi Hökməli bələdiyyəsinə tövsiyə edilmişdir.

Rayonun bütün yaşayış məntəqələrində, eləcə də Hökməli qəsəbəsində su və kanalizasiya şəbəkələrinin qurulması "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur. Bununla bağlı işlərin sürətləndirilməsi məqsədilə tərəfimizdən "Azərsu" ASC-yə məktubla müraciət edilmişdir.

*Abdin FƏRZƏLİYEV,*
*Abşeron Rayon İcra Hakimiyyətinin başçısı*

## Pambığın satış qiyməti artırılıb

**Kənd Təsərrüfatı Nazirliyinə ünvanladığınız 9 sentyabr 2022-ci il tarixli məktubda qəzetinizin 30 iyul 2022-ci il tarixli nömrəsində dərc olunmuş "Xam pambığın satınalma qiyməti fermerləri razı salmır" başlıqlı məqalədə qaldırılmış məsələlərlə bağlı müraciətə baxılmışdır.**

Bildiririk ki, 2022-ci ildə qəbul və emal müəssisələrinə təhvil veriləcək xam pambığın alış qiymətinin artırılması ilə bağlı nazirliyin aidiyyəti şöbələrinin iştirakı ilə pambıq şirkətlərinin rəhbərləri ilə görüş keçirilmiş, cari ildə pambığın alış qiymətinin 1-ci növ üzrə 800 manat, 2-ci növ üzrə 780 manat, 3-cü növ üzrə 740 manat, 4-cü növ üzrə isə 700 manat olması barədə razılıq alınmışdır.

Əlavə məlumat üçün bildiririk ki, pambığın hər növ üzrə alış qiyməti keçən illə müqayisədə 100 manat məbləğində artırılmışdır.

*Sarvan CƏFƏROV,*
*kənd təsərrüfatı nazirinin müavini*

## Yeni yaşayış massivinin içməli su məsələsi ilə bağlı "Azərsu" ASC-yə məlumat verilib

**Goranboy Rayon İcra Hakimiyyətinə ünvanladığınız 7 sentyabr 2022-ci il tarixli məktubla qəzetinizin 30 avqust 2022-ci il tarixli nömrəsində dərc edilmiş "Yayın bu isti günlərində susuz qalmışıq" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli istiqamətində görülmüş işlərlə bağlı redaksiyaya məlumat verilməsi xahiş edilmişdir.**

Məlumat üçün bildiririk ki, müraciəti ünvanlamış şəxslər Dəliməmmədli şəhərinin yeni yaşayış massivində yaşayırlar. Dəliməmmədli şəhərinin içməli su təminatı ərazidə yerləşən 9 subartezian quyusu vasitəsilə təmin olunur. Hazırda yeni yaşayış massivində su təminatında yaranmış çətinliklərin aradan qaldırılması məqsədilə subartezian quyusunun qazılması və daxili şəbəkənin çəkilməsinə kömək göstərilməsi üçün rayon su-kanal sahəsinin rəhbərliyi tərəfindən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə müraciət olunmuşdur.

*S.NAZAROV,*
*Goranboy Rayon İcra Hakimiyyəti başçısının birinci müavini*

* * *

Goranboy Su-Kanal Sahəsinin rəhbərliyi Sizin şifahi sorğunuza cavab olaraq yazıb Sizi məlum edir ki, Goranboy rayon Dəliməmmədli şəhərinin su təminatı 9 ədəd subartezian quyusu vasitəsilə təmin olunur. Dəliməmmədli şəhərində yerləşən yeni yaşayış massivinin su təminatında yaranmış çətinliklər həmin əraziyə xidmət göstərən subartezian quyusunun və daxili şəbəkənin olmamasından qaynaqlanır. Bu məsələ ilə bağlı aidiyyəti üzrə tərəfimizdən təkliflər irəli sürülmüş, yaşayış massivinə yaxın ərazidə 1 ədəd subartezian quyusunun qazılması və daxili şəbəkənin çəkilməsi üzrə məsələ qaldırılmışdır.

*Urfat HƏSƏNOV,*
*Goranboy Su-Kanal Sahəsinin rəisi*




# Çadırın tarixi



**Çadır müxtəlif məqsədli düşərgələr zamanı istifadə edilən yüngül çəkili avadanlıqdır. Çadırlardan qorunmaq və gecələmək üçün alternativ vasitə kimi istifadə olunur.**

"Çadır" sözü latın dilində dartınmaq, gərilmək mənasını verən tender sözündən yaranıb. Erkən dövrlərdə çadırlar köçəri insanların qalacağı yer funksiyasını daşıyırdı. Çadırlar əvvəlcə heyvan dərisi, heyvan sümükləri və ağac budaqlarından istifadə olunmaqla ərsəyə gətirilirdi. Hətta mamontların sümüklərindən ibtidai icma dövründə sığınacaqların tikintisində material kimi istifadə ediblər. Buna dair qalıqlar Qərbi Avropanın müxtəlif yerlərində, o cümlədən Rusiya, Ukrayna və Çexiyada aşkarlanıb. Çadırabənzər belə strukturlu tikililəri indiki çadırlardan fərqləndirən xüsusiyyət isə ağırlığına görə daşına bilməməsi idi.

Portativ çadırların tarixi eramızdan əvvəl X minilliyə aid edilir. Belə ki, Neolit dövründə yerli amerikalılar dəri örtüklü sığınacaqlardan istifadə etməyə başlamışdılar. Həmin zamanlarda onların əsas qida mənbəyi bizon olduğu üçün əhali köçəri həyat tərzi sürürdü. Yerli amerikalıların çadırları bizon dərisi ilə örtülmüş konusvari quruluşa malik idi. Belə çadırlar suya, küləyə davamlı, havalandırıla bilən və yayı isti, qışı isə sərin keçən kontinental iqlimə yararlı olurdu. Sonrakı dövrdə bu tip portativ konstruksiyalar təkcə amerikalıların deyil, dünyanın bir çox bölgəsində köçəri həyat tərzi keçirən insanların yaşayış yerinə çevrilmişdi.

Çadır tarixboyu orduların yürüş zamanı istifadə etdikləri əsas vasitələrdən biri olub. Roma əsgərləri görüşlərin keçirilməsi, döyüş planlarının müzakirə edilməsi məqsədilə çadır düşərgələri qururmuşlar. Bu sahəyə bir sıra yeniliklər də məhz ordu komandirləri tərəfindən gətirilib. Onlar daha davamlı və tez qurula bilən çadırları hazırlamaq yönündə bir çox üsulu sınaqdan keçiriblər. Sonrakı vaxtlarda Amerika əsgərləri ingilislərlə döyüşərkən kamuflyaj çadırlardan istifadə etmişdilər. Onların çadırları adətən kiçik ölçülü olur və üzəri kollarla örtülürdü.

XX əsrdən etibarən çadırların istehsalında yeni dövr başladı. Bir çox şirkət çadırların istehsalında dizayn və materialları köklü şəkildə dəyişirdi. "DuPont" şirkəti isə neylondan istifadə edən ilk şirkət kimi 1935-ci ildə bu sahəyə yenilik gətirdi. Həmçinin digər material kimi kətan, polyesterdən də istifadə edildi, ağır taxta və ya metal dayaq dirəklər plastiklə əvəz olundu.

Hazırda neylon və polyester çadırlar daha yüngül, suya davamlı olması və tez qurulması ilə seçilir. Müxtəlif dizaynlı, ölçülü olması isə onlardan çeşidli məqsədlər üçün istifadəni mümkün edir.

# İlk çətirlər insanı günəşdən qoruyurdu

**Əsasən yağışlı havalarda qoruyucu vasitə kimi köməyimizə yetən çətirlərin maraqlı tarixi var. Onların icadı yağış səbəbilə deyil, günəşdən qorunmaq məqsədilə meydana çıxıb.**

Belə ki, Dəclə və Fərat çayları arasında yerləşən Mesopotamiyada yay aylarının hədsiz isti keçməsi, hətta bir çox halda temperaturun 50 dərəcəyə qədər yüksəlməsi müxtəlif əngəllər yaradırdı. Bu səbəblə 4 min il əvvəl bu bölgələrdə yaşayan insanlar çətiri yandırıcı günəşdən qorunmaq üçün icad ediblər.

Çətirlər qədim dövrlərdə həm də aristokratlıq rəmzi hesab edilirdi. Zadəgan xanımlar müxtəlif növ çətirlərdən istifadə edərək xüsusi obraz formalaşdırırdılar. Çətirlərin günəşdən və ya yağışdan müdafiəsi isə kübar cəmiyyətlərdə ikinci planda gəlirdi.

İlk dəfə suya davamlı çətirlər isə çinlilərin ixtirası ilə ortaya çıxıb. Onlar kağız çətirlərin üzərini kanifol adlanan maddə ilə boyadıqdan sonra bu nəticəni əldə etmişdilər. Bununla da onlar artıq yağışdan qorunmaq funksiyasını daşıyırdı.



Çətir Avropada XVI əsrdən başlayaraq qadın aksesuarına çevrilmişdi. Lakin bu düşüncəni ingilis səyyahı və yazıçısı Conas Hanvey XVIII əsrdə dəyişə bildi. O, 30 il ictimaiyyət qarşısında çətirdən istifadə edərək bu stereotipi qırdı və beləliklə, çətr ingilis kişilərinin də həyatına daxil olmağa başladı. Hətta məşhur ustalar yeni və özəl dizaynlı çətir tutacaqları hazırlamaq üçün qiymətli ağaclardan istifadə edirdilər.

İlk dəfə qatlana bilən çətir isə Hans Haupt tərəfindən 1928-ci ildə yaradılıb. Sonrakı vaxtlarda texnologiyanın inkişafı və modanın dəbə düşməsi ilə çətirlər müxtəlif formalarda, rənglərdə və bəzəklərdə istehsal edilməyə başlanıb. Hazırda sintetik materiallardan hazırlanan çətirlərin avtomatik açılan, olduqca kiçik ölçülü, kəskin küləyə tab gətirə bilən və digər növləri var. Qatlanan portativ çətirlər isə asanlıqla əl çantasına yerləşəcək həcmdədir. Günümüzdə günəşli havada çətir götürmək adəti geniş şəkildə qalmasa da, yağışlı vaxtlarda ciddi ehtiyaca çevrilir.




# İlk çətir dükanı

**Dünyada ilk çətir dükanı 1830-cu ildə Ceyms Smit tərəfindən Londonda açılıb. O, indiki məşhur "James Smith and Sons" şirkətinin əsasını qoyub. Çətirlər dükanın arxa tərəfində yerləşən kiçik emalatxanada hazırlanır, daha sonra mağazada müştərilərə satılırdı.**

1851-ci ildə Samuel Foks adlı ixtiraçının yüngül polad çərçivəni icad etməsi ilə müasir çətirlər yarandı. Ceyms Smit Foksun çərçivələrindən istifadə edən ilk çətir istehsalçılarından biri idi. Bu yenilikdən sonra Smitin də biznesi böyüməyə və şatışlarının sayı gündən-günə artmağa başladı. Sonrakı vaxtda "James Smith and Sons" dükanı indiki dəyişməz ünvanı olan "New Oxford" küçəsinə köçdü və Londona gələn turistlərin üz tutduqları məşhur məkana çevrildi.

# Kanat xətti ilə dağlara doğru

**Əsasən düzən yerlərdən dağlıq ərazilərə qalxmaq üçün alternativ vasitələrdən olan kanat xətləri günümüzdə rast gəlinən daşıyıcılardandır. Kanat dayaq qüllələrinin üzərindən asılmış kabellərlə dəstəklənən və hərəkətə gətirilən mexanizmdir. Mühərriklə işə salınan kabellərin üzəri ilə kabinələrin hərəkəti icra edilir.**

Kabinələr iki nəfərdən on beş nəfərə qədər sərnişin tutumuna malik olur. Onlar yaylı tutacaqlar vasitəsilə kabelə qoşulur. Bu tutacaqlar kabinəni hərəkət edən kabeldən ayırmağa və terminallarda yavaşlamağa imkan verir və bu da sərnişinlərin minib enməsinə şərait yaradır. Bu zaman kabinələrin qapıları avtomatik olaraq açılıb bağlanır.

Dünyanın ilk kanat xətti Avstriyada çəkilib. 1908-ci ildə Tirol əyalətində tikilən Kohler kanat yolu Kamperndən 1100 m yüksəklikdəki Kohler dağına qalxıb. Kabinələrdən təkcə şəhəri deyil, həmçinin bir çox yayla, eləcə də ətraf zirvələri görmək mümkündür. 2006-cı ildə Kohler kanat xətti təmir edilərək yeni kabinələr quraşdırılıb. Hazırda kabinələrlə hər yarım saatda 20 nəfər beş dəqiqə müddətində Kohlerə çatır. Dağ stansiyalarında isə ziyarətçiləri həyəcanlı və maraqlı gəzinti marşrutu gözləyir.

Kanat daşımasında xizək kanat xətləri də yer alır. Xizəkçilər üçün hazırlanmış ilk mexaniki liftlər 1900-cü illərin əvvəllərində fəaliyyətə başlayıb. Onlar atlarla və ya su çarxı ilə hərəkətə gətirilib. Xizək idman növü kimi populyarlaşdıqca yeni texnologiyalarla təkmilləşdirilib. 1930-cu illərin əvvəllərinə qədər istifadə edilən kanatlarda insanlar xizəklərində yalnız dik vəziyyətdə təpəyə qalxa bilirdilər. Bu baxımdan sistem nisbətən təhlükəli hesab edilirdi. Qalxmaq üçün nəzərdə tutulan iplər sürüşkən və ağır olduğundan bükülməyə meyilli idi.

İlk oturacaqlı xizək kanatı isə 1936-cı ildə isveçrəli mühəndis Ceyms Kurranın ixtirasıdır. Bu kanat xətti ABŞ-də yerləşən



Günəş Vadisində (Sun Valley) quraşdırılmışdı. Yan-yana iki oturacaqlı kanatlar isə 1946-cı ildə istifadəyə verilib. 1960-cı illərin əvvəllərində üçlü və dördlü modellər də təqdim edildi. Xüsusilə oturacaqlı xizək kanatlarının kəşfi ilə artıq xizəkçilər rahatlıqla zirvələrə qalxıb yüksəkliklərdən yamaclara doğru sürüşə bilirlər.

Hazırda dünyada ən uzun kanat xətti Serbiyada yerləşir. 9 kilometrlik kanat yolu Zlatibor şəhərini 1500 metrlik Tornik zirvəsindəki xizək kurort mərkəzi ilə birləşdirir. Hər biri 10 yerlik olmaqla ümumilikdə 54 ayrı kabinədə saatda 600 sərnişin tutumuna malik olan kanatla zirvəyə qalxanlar 25 dəqiqə müddətində unudulmaz mənzərəni müşahidə edir.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*




# İnsanabənzər robot

"Xiaomi" "CyberOne" adlanan insanabənzər robotu ictimaiyyətə təqdim edib. O həm proqram təminatı, həm də konstruksiya baxımından keçənilki "CyberDog" layihəsinin növbəti inkişaf mərhələsi olaraq daha təkmilləşdirilmiş modeldir. Hərəkət zamanı tarazlığını qoruya bilən "CyberOne"un intellektual bacarıqları insanların emosiyalarını təyin etməyə və üçölçülü xəritələr yaratmağa imkan verir. Onun boyu 177 santimetr, çəkisi isə 52 kiloqramdır. Güclü mühərriklərə sahib yeni məhsulun alqoritmləri daha qəlizdir.





"CyberOne" insan hərəkətlərini tamamilə imitasiya edə bilir. Robotun hərəkət sürəti saatda 3,6 kilometr təşkil edir. Onun bədəninin performans göstəriciləri hər bir mühərrikin imkanlarından asılıdır. Məsələn, robotun bədəninin yuxarı hissələrində 500 qram çəkili mühərriklər yerləşdirilib. Onlar ümumilikdə 30 Nm (Nyuton metr) fırlanmanı təmin edirlər. Robotun bədəninin aşağı hissələrində isə ümumi olaraq 300 Nm fırlanmanı təmin edən mühərriklər quraşdırılıb.

"CyberOne" bir əli ilə 1,5 kiloqram yük daşıya bilir. Robot hərəkətdə olarkən sistemindəki süni zəka alqoritmləri "Mi Sense" texnologiyasından istifadə edərək ətraf mühitin 3D xəritəsini yaradırlar. Bundan əlavə, "Mi Sense" texnologiyası insanları, jestləri və ifadələri də təyin edə bilir. "CyberOne" insanların səs emosiyalarının və ətraf mühitdəki səslərin təyini sistemləri ilə təchiz olunub. Birinci sistem 45 növ insan emosiyasını, ikinci sistem isə 85 növ ətraf mühit səsini tanıya bilir.

Sözügedən robot insanın nə zaman sevincli və ya kədərli olduğunu da anlaya bilir. O öz emosiyalarını isə üz hissəsində yerləşən OLED ekran vasitəsilə əks etdirir. Bu ekran robotun üzünü əvəz edir.

## Həm süni zəka sistemi, həm də rəhbər

Çinin mobil oyunlar hazırlayan "Fujian NetDragon Websoft" şirkətinə süni zəka rəhbərlik etməyə başlayıb. "Tang Yu" adlı süni zəka sistemi şirkətin baş direktoru seçilib. Süni zəka sisteminin köməyilə şirkət bütün biznes risklərini ölçə biləcək.



"Tang Yu" şirkətin gündəlik fəaliyyəti üzrə məsələlərin həll edilməsi öhdəliyini öz üzərinə götürəcək. Bundan əlavə, sözügedən süni zəka məlumatların emalında və şirkətin direktorlar şurası üçün analitikanın tərtib edilməsində istifadə olunacaq.

Şirkət əməkdaşları ümid edirlər ki, süni zəka sistemi bütün işçilər üçün bərabər iş şərtlərinin yaradılmasında yardımçı olacaq. Qeyd etmək lazımdır ki, "Tang Yu" öz vəzifəsinin öhdəliklərini 26 avqust tarixdən yerinə yetirməyə başlayıb.

# "Lenovo"nun smart eynəyi

"Lenovo" şirkəti "IFA 2022" sərgisində "Glasses T1" smart eynəyini təqdim edib. Yeni cihaz "Android", "iOS", "macOS" və "Windows" kimi əsas əməliyyat sistemlərini dəstəkləyir, istifadəçiyə əlavə monitordan və ya televizordan imtina etmək şəraitini yaradır.



"Glasses T1" iki ədəd kiçik ölçülü micro-OLED ekran ilə təchiz olunub. Ekranların hər biri 60 Hz-lik təsvir yenilənməsinə və 1920x1080 piksel keyfiyyətinə sahibdir. Habelə eynəyin kənar hissələrində yüksək keyfiyyətli səsgücləndiricilər və səsi tənzimləyən düymələr yerləşdirilib. Cihazı "Apple" şirkətinin mobil cihazlarına qoşmaq üçün xüsusi HDMI adapterdən, digər cihazlara qoşmaq üçün isə USB Type-C girişindən istifadə etmək lazımdır.

Sözügedən eynək kontentlərin əks olunması üçün nəzərdə tutulmuş əlavə ekran rolunda çıxış edir. Şirkətin məlumatına görə, "Glasses T1" vasitəsilə istifadəçilər özləri üçün şəxsi məkan yarada biləcəklər. Belə ki, istifadəçidən başqa heç kim eynəyin ekranında əks olunan kontentləri görməyəcək.

# Səmada sürətli internet

"SpaceX" şirkəti "Starlink" peyk internetinin yer səthindən 9000 metr hündürlükdə belə yutub və "Netflix"i əlçatan etdiyini bütün dünyaya sərgiləyib. Bunun üçün şirkət təyyarədə test uçuşunu reallaşdırıb.




Qeyd etmək lazımdır ki, "JSX" aviaşirkəti "Starlink"in peyk internetinə qoşulmuş ilk müştərisidir. Test uçuşunda "Bloomberg" saytının və digər media agentliklərinin nümayəndələri iştirak ediblər. Uçuş zamanı təyyarədəkilər problemsiz şəkildə internetdən istifadə edə bilib və hətta vatsapdan səsli zənglər də reallaşdırıblar.

"Starlink"in müsbət özəllikləri arasında siqnalın sürətlə ötürülməsi və siqnalı qəbul edən antenin ölçüsü var. Onun anteni pizza qutusu ölçüsündədir. Cihaz ölçü baxımından digər peyk provayderlərinin istifadə etdikləri hərəkətli antenlərdən daha kiçikdir və bunun hesabına təyyarədə daha az yer tutur. Bu cür özəllik öz növbəsində "JSX" kimi regional təyyarələrdən istifadə edən aviaşirkətlər üçün böyük əhəmiyyət kəsb edir.

# Yeni aksiyon kameraları

"GoPro" şirkəti yeni aksiyon kameralarını təqdim edib. "GoPro Hero 11 Black" seriyasına 2 kamera modeli daxil olub: "Hero 11 Black" və "Hero 11 Black Mini". Bundan əlavə, şirkət "Hero 11 Black Creator Edition" adlı komplekti də təqdim edib. Hər iki kameranın 27 meqapiksellik obyektivi var.

Yeni məhsul "HyperSmooth 5.0" stabilizasiya sisteminə sahibdir. Bu sistem istifadəçinin sürəti və aktivliyi əsasında düzgün stabilizasiyanı təmin edir. Şirkət "Hero 11 Black" modelini dünyanın ən universal aksiyon kamerası adlandırır. Məsələn, kamera vasitəsilə çəkilmiş görüntü sürətli şəkildə telefona ötürülür və proses avtomatik reallaşır.



"Hero 11 Black" modeli saniyədə 60 kadr sürətlə 5.3K, saniyədə 120 kadr sürətlə 4K və saniyədə 240 kadr sürətlə 2.7K keyfiyyətində videolar çəkir. Onun vasitəsilə çəkilmiş şaquli fotolar sürətlə sosial şəbəkələrdə paylaşıla bilər. Kameranın gecə çəkilişi effektləri vasitəsilə də videolar çəkmək mümkündür. 10 bitlik rəng sistemi isə real rəng çalarlarını təmin edir.

Kameranın sahib olduğu "Enduro" adlı soyuğadavamlı batareya suyun 10 metr dərinliyində və aşağı temperatur mühitində belə yaxşı çalışır. "Hero 11 Black" özündə 2 ədəd maye kristallik ekranı birləşdirir. Onlardan biri kameranın arxa, digəri isə ön hissəsində yerləşir.

"Hero 11 Black Mini" isə "Hero 11 Black"dən fərqli olaraq daha kompakt ölçüyə sahibdir və ekranı yoxdur. Kameranın aşağı və arxa hissələrində olan bərkidicilər onu müəyyən yerlərə və ya aksesuarlara sabitləmək imkanını verir. "Hero 11 Black"in idarəetməsi bir düymə ilə reallaşdırıldığı üçün istifadəsi də çox rahat olur. Kameranı obyektə tərəf yönləndirmək və çəkiliş düyməsinə klikləmək lazımdır. Bununla cihaz avtomatik olaraq 5.3K keyfiyyətində videoların çəkilişini reallaşdıracaq.

Mini modelin sahib olduğu bərk gövdə kameranın daxili detallarını yüksək səviyyədə qoruyur. Bu, şirkətin ən dözümlü kameralarından biridir. O, "Enduro" adı batareya və "HyperSmooth 5.0" stabilizasiya sistemi ilə təchiz olunub.

"Hero 11 Black Creator Edition" komplekti daha çox bloqçu və videoqraflar üçün nəzərdə tutulub. Vahid sistem rolunda çıxış edən bu komplekt yaxşı səs keyfiyyətini, güclü işıqlandırma sistemini və 4K keyfiyyətli videoçəkiliş imkanını təqdim edir. "Creator Edition" özündə "Hero 11 Black" kamerasını, kamera batareyasındakı enerji miqdarını artıran "GoPro Volta" adlı xüsusi tutacağı, işıqlandırma sistemi üçün nəzərdə tutulmuş işıq modulunu, xarici mikrofon rolunda çıxış edən mediamodulu və "Enduro" batareyasını birləşdirir.

# "Xiaomi"nin yeni məhsulları



"Xiaomi" şirkəti qatlanan "Mix Fold 2" və "Redmi K50 Ultra" smartfonları ilə yanaşı, "Mi Pad 5 Pro" planşetini, "Watch S1 Pro" smart saatını və naqilsiz "Buds 4 Pro" qulaqcıqlarını təqdim edib.

"Mi Pad 5 Pro" planşeti "Mi Pad 5"in daha böyük versiyasıdır. Yeni planşet modeli böyük ölçülü LCD ekranla yanaşı, müasir dizayn da əldə edib. Xarici görünüşcə o, "Xiaomi"nin son smartfon modellərini xatırladır. Texniki özəllikləri baxımından isə demək olar ki, "Mi Pad 5"i təkrarlayır.

Ekranətrafı çərçivələri maksimal dərəcədə nazik olan "Mi Pad 5 Pro"nun arxa panelində ikili kamera hissəsi var və o, "Xiaomi 12" smartfon seriyasının arxa kamera dizaynını xatırladır. Planşetin qalınlığı 6.66 millimetr, çəkisi isə 620 qramdır. Cihaz özündə "Dolby Atmos" dəstəkli 4 ədəd stereo səsgücləndiricini birləşdirir. Əsas texniki göstəricilərə gəldikdə isə planşet 8 nüvəli Snapdragon 870 prosessoru, 6/8/12 GB RAM, 128/256/512 GB daxili yaddaş həcmi, 50 MP + 2 MP ikili arxa kamera, 20 meqapiksellik ön kamera və 67 vatt gücündə sürətli şarj texnologiyalı və yüksək enerji tutumlu batareya ilə təchiz olunub.

"Watch S1 Pro" "Xiaomi"nin "Watch S1" seriyasının Pro versiyasıdır. Sözügedən məhsul klassik saatlar tərzində olan premium dizaynı, böyük ölçülü AMOLED ekranı, kənar tətbiqlərin quraşdırılması imkanını və çoxlu sayda idman rejiminin dəstəyini təklif edir. Onun 46 millimetrlik gövdəsi paslanmaz poladdan hazırlanıb və 5 ATM standartı üzrə sudan qorunur. Saatın ön panelini 480x480 piksel keyfiyyətli 1.47 düym AMOLED ekran əhatə edir. Bundan əlavə, ekran yaqutdan hazırlanmş şüşə material ilə qorunur. Smart saat vasitəsilə smartfondakı və ya smart səsgücləndiricidəki musiqini idarə etmək, daxil olan zənglərə cavab vermək və hətta smart ev əşyalarını idarə etmək mümkündür. "Watch S1 Pro"nun daxilində 12 nanometrlik prosessor və 500 mAh enerji tutumlu batareya yerləşir. Sözügedən batareya hesabına smart saat bir dəfə şarj olunandan sonra 15 gün ərzində avtonom rejimdə çalışa bilir.

"Watch S1 Pro" qandakı oksigen miqdarını, ürək döyüntülərinin tezliklərini ölçə və stress səviyyəsi ilə yuxu keyfiyyətinin monitorinqini apara bilir. Bundan əlavə, saatın daha bir üstün özəlliyi ondan ibarətdir ki, o, bədən temperaturunu ölçə bilir. 100-dən çox idman rejmini dəstəkləyən cihaz özündə GPS modulunu, Bluetooth 5.0 texnologiyasını və kontaktsız ödənişlər üçün NFC çipini birləşdirir.

"Xiaomi"nin digər yeni məhsulu olan "Buds 4 Pro" naqilsiz qulaqcığı 48 dB-ə (desibel) kimi ətraf səs-küyün aktiv boğulması funksiyasına sahibdir və bir dəfə şarj olunandan sonra uzun müddət ərzində çalışa bilir. 11 millimetrlik dinamik drayverlər və 12 nanometrlik prosessorla təchiz olunan "Buds 4 Pro" qulaqcığı 9 saat ərzində avtonom rejimdə çalışa bilir və şarj keysi hesabına bu göstərici 38 saat təşkil edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

*Əvvəli 1-ci səh.*

◆ Hüseyn Cavid - 140

# Cavid sözünün qüdrəti



Yaradıcılıq yoluna XX əsr Azərbaycan romantizminin təmsilçilərindən biri kimi başlamış Hüseyn Cavid həyat və yaradıcılığı ilə zamanın fövqünə yüksəlmiş, onun nəsillər üçün örnək sayılacaq ömrü, taleyi, ən ağır şərtlər qarşısında belə öz ideyalarına, prinsiplərinə sadiqliyi keçmişimizin, bu günümüzün və gələcəyimizin şərəfli salnaməsinə çevrilmişdir.

Müasirlərinin də, sonrakı nəsillərin də böyük rəğbət və ehtiram hissi ilə Cavid Əfəndi deyə xitab etdikləri bu böyük şair o sənətkarlardandır ki, onun əsərləri olmasaydı, ədəbiyyatımızda böyük bir boşluq görünərdi. Hüseyn Cavid əbədiyyət ətirli misraları, dərin hikməti və fəlsəfi poeziyası ilə bu zəngin ədəbi məkanda öz yerini şərəflə tutur. O, bütün yaradıcılıq fəaliyyəti ərzində həqiqəti, insanpərvərliyi, gözəlliyi, saf niyyətləri, xeyirli əməlləri tərənnüm etmişdir. Xeyirə nə qədər işıqlı xəyallar bəsləyirdisə, şərin və pisliyin məhvinə bir o qədər qəzəblənir və bunu aydın şəkildə əsərlərində ifadə edirdi.

Şeirlərinin böyük bir qismini təxminən bir əsr əvvəl yazıb-yaratsa da, onlar sanki şairin indicə qələmindən süzülmüş kimi canlı və hərarətlə doludur, günümüzün ən aktual problemləri ilə səsləşir, insana, onun duyğularına, bəşər övladının narahat düşüncələrinə işıq salır. Öz nəfəsi, öz səsi və öz ahəngi olan sənətkar humanist ideallar uğrunda mübarizəyə çağırış edən poemaları, tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin əsasını qoymuşdur. Müxtəlif insan xarakterlərilə zəngin olan, neçə-neçə nəslin bədii-estetik zövqünü formalaşdıran və ölkəmizdə teatr mədəniyyətinə yeni nailiyyətlər qazandıran bu dramaturgiya milli teatr salnaməsində "Cavid teatrı" kimi mühüm yer tutur. Hüseyn Cavid təkcə Azərbaycan şeirində deyil, ümumən dünya poeziyasında bir meyardır. Bu qüdrətli sənətkarın misralarını oxuyub onlardakı fikir yükünü, poetik hissləri ruhuna hopdurduqca əsl poeziyanın, əsl şairin necə olması barədə yaranan qənaətlərinlə, ədəbi zövqünlə ən ədalətli müqayisə imkanlarına malik olursan. Hüseyn Cavidin böyüklüyü də elə bundadır!

## "Məktəbi-tərbiyə" şagirdi

Hüseyn Cavid Rasizadə 1882-ci ilin 24 oktyabrında Naxçıvan şəhərində ruhani ailəsində dünyaya göz açıb. Ata-anası Naxçıvana məşhur Şahtaxtı kəndindən köçüb gəlmişdilər. Ailədə Hüseyn Caviddən başqa dörd qardaşı və üç bacısı böyüyürdü. Atası Molla Abdulla oğul övladlarını ruhani görmək istəyirdi və Hüseynin böyük qardaşları bu məqsədlə dini təhsil alırdılar. Hüseyni də mollaxanaya qoymuşdular. Amma burada tədris edilən dərslər qəlbi yaradıcılıq eşqi ilə dolub-daşan bir yeniyetmə üçün o qədər də maraqlı gəlmirdi.

Həmin vaxt Naxçıvanda "Məktəbi-tərbiyə" adlı yeni üsullu tədris müəssisəsi açılmışdı və qısa müddətdə bu təhsil ocağının şöhrəti xeyli yüksəlmişdi. Naxçıvandakı yenilikçi ailələr övladlarını əsasən bura qoyurdular. Məktəbin yaradıcısı və əsas pedaqoqlarından biri o dövrün görkəmli maarifçi-yazıçısı və şairlərindən olan Məhəmməd Tağı Sidqi idi. Hüseyn "Məktəbi-tərbiyə"də təhsil almağı çox arzulayırdı. Amma atası mühafizəkar fikirli olduğundan və oğlunu gələcəkdə ruhani görmək niyyətini qətiləşdirdiyindən onu razı salmaq o qədər də asan deyildi. Vəziyyəti belə görən Hüseyn Cavid 14 yaşında mollaxanadan qaçır və "Məktəbi-tərbiyə"yə daxil olur. Molla Abdulla oğlunun bu hərəkətindən qəzəblənir, ona məktəbə getməyi qadağan edir. Hüseyn baş verənləri sevimli müəllimi Sidqiyə danışır. Yalnız Məhəmməd Tağı Sidqinin müdaxiləsindən, Hüseyn Cavidin çalışqan, istedadlı bir şagird olmasına atasını inandırmasından sonra çətinliklə olsa belə, Molla Abdullanı inadından döndərmək mümkün olur. Gələcəyin böyük şairi təhsilini "Məktəbi-tərbiyə"də davam etdirir. Burada dünyəvi elmlərə yiyələnir. Eyni zamanda böyük qardaşı Şeyx Məhəmmədin köməyi ilə ərəb və fars dillərinə də vaqif olur.

## Yaradıcı fikrin ilk nümunələri

1898-ci ildə o, "Məktəbi-tərbiyə"ni uğurla başa vurub təhsilini davam etdirmək istəyir. Amma həmin vaxt şiddətli göz ağrısından əziyyət çəkməsi bu arzusuna mane olur. Atası onu müalicə üçün Təbrizə göndərir və tapşırır ki, orada dini təhsil alsın. Hüseyn Cavid isə müalicədən sonra Təbrizdə yaşadığı illərdə daha çox dil biliklərini dərinləşdirir, Şərq ədəbiyyatı, fəlsəfəsi ilə maraqlanır. O, həm də "Talibiyyə" mədrəsəsinin müdavimi olur.

23 yaşında ikən o, ali təhsil almaq məqsədilə İstanbula gedir. İstanbul darülfünününün dil-ədəbiyyat şöbəsinə daxil olub dörd il burada təhsil alır. Dil-ədəbiyyat dərsləri ilə yanaşı, fəlsəfə tarixi ilə də ciddi şəkildə maraqlanır. Elə Cavid təxəllüsünü də orada götürür, həmin təxəllüslə "Kiçik bir lövhə", "Şeir məftunu", "Dəniz pərisi", "Son baharda" və s. bu kimi ilk şeirlərini yazır.

Ali təhsilini tamamladıqdan sonra Naxçıvana qayıdıb müəllimlik fəaliyyətinə başlayır. Əvvəlcə Naxçıvanda, sonra Tiflisdə, Gəncədə, Bakıda müxtəlif məktəblərdə dil-ədəbiyyat fənnindən dərs deyir. Eyni zamanda bədii yaradıcılığını davam etdirir. Əgər 1910-cu ilə qədər Hüseyn Cavid əsasən lirik şeirlər yazırdısa, 1910-cu ildən sonra dram əsərləri ilə də tanınmağa başlayır. Həmin il bitirdiyi birpərdəli "Ana" və dörd pərdəli "Maral"ın ardınca "Şeyx Sənan" mənzum faciəsi üzərində işləyir. O, əlinə qələm aldığı gündən həyatın səsinə qulaq asır, kamil və təmiz bir üslubda saf insan duyğularını, fərdin arzuları ilə cəmiyyətin tələbləri arasındakı ziddiyyətləri açıb göstərir. Mübariz bir ovqat yaşayırdı onun əsərlərində. H.Cavid poeziyasında romantika ilə realizm heyrətamiz bir vəhdət təşkil edir. Professor Yaşar Qarayev yazırdı ki, H.Cavid bir şair kimi orijinaldır, təkraredilməzdir, yalnız özünə, öz sənətinə xas olan poetik ifadə və vasitələrin müəllifi kimi çox uğurlu bir dəst-xətə malikdir.

Şairin 1905-ci ildən sonra yazdığı şeirlərdən mətbuat səhifələrində ancaq bir neçə nümunə işıq üzü görmüşdür. 1913-cü ildə Hüseyn Cavid 1905-1912-ci illər arasında yazılmış şeirlərinin müəyyən bir qismini "Keçmiş günlər" adlı ilk kitabında Tiflisdə nəşr etdirir. Bundan bir neçə il sonra, 1917-ci ildə isə Bakıda şairin "Bahar şəbnəmləri" adlı ikinci kitabı işıq üzü görür. Hüseyn Cavidin narahat ruhu, ideya axtarışları bu nəşrlərdə toplanmış şeirlərində daha çox hiss olunur. Bu kitablarda şair müxtəlif mövzularda 50-yə qədər şeirini oxuculara təqdim edir.

## "Mənim Tanrım gözəllikdir, sevgidir..."

1916-1917-ci illərdə Cavid "Şeyda", "Uçurum" dramları üzərində çalışır. 1918-ci ildə Bakıya gələrək burada daimi məskunlaşır. Onun "İblis" əsərinin yaranma tarixi də təxminən bu dövrə təsadüf edir. Həmin vaxtda şair bir sıra lirik və epik şeirlərini də yaradır. Bakıda müəllim kimi fəaliyyət göstərdiyi illərdə o, bir-birinin ardınca "Afət" (1922), "Peyğəmbər" (1922), "Topal Teymur" (1925) dramlarını ərsəyə gətirir. Sonrakı dövrlərdə isə "Dəli knyaz" (1929), "Telli saz" (1930), "Səyavuş" (1933), "Şəhla" (1934), "Xəyyam" (1935), "İblisin intiqamı" (1936) və iki min misradan ibarət olan "Azər" poemasını, eləcə də başqa əsərlərini oxuculara təqdim edir.

Hüseyn Cavidin 1905-1909-cu illər arasında yazdığı şeirlərin çoxu əsasən məhəbbət lirikası olmaqla gözəllikdən, sevgidən bəhs edirdi. Bu, "gözəlliyi, sevgini özünə müqəddəs məbud seçmiş" və bütün yaradıcılığını gələcəkdə də dünyada mənəvi gözəlliklərin yaradılmasına, insanların pis əməllərdən əl çəkib, İblisin felindən qurtulub bir-birinə sevgi bəsləməsi məramına sərf etmiş şairin yaradıcılıq manifesti idi.

1909-cu ildən sonra isə Cavidin yaradıcılığında ictimai-siyasi motivlər aparıcı yer tutmağa başlayır. Bakı, Tiflis və qismən də Naxçıvanda yazdığı "Öysüz Ənvər", "Çoban türküsü", "Kiçik sərsəri", "Dün və bu gün", "Qadın", "Görmədim", "Vərəmli qız", "Məsud və Şəfiqə" kimi əsərlərində şair sadə insanların ağır, keşməkeşli həyatını, fərdi faciələrini təsvir edir, bu insan taleləri fonunda dövrün ziddiyyətli mühitini canlandırır. Bu şeirlərin, demək olar ki, hamısının lirik qəhrəmanları pərişan xəyallar, acı düşüncələr, ağır xatirələrlə yaşayan məsum insanlardır. Bu şeirlərində Cavid belə bir qənaətə gəlir ki, dəyərlərin olmadığı cəmiyyətdə namuslu insanların həyatı başdan-başa faciədir, yoxsul, məhkum fərdin rifah və səadət axtarışları əbəsdir.

## Həqiqət axtarışı

Bu şeirlərində şairin ictimai-fəlsəfi baxışlarındakı dərin ziddiyyətlər, onun tarix və cəmiyyət hadisələrinə idealist münasibəti də ilk baxışdan nəzərə çarpır. Eyni meyilləri Cavidin "Məsud və Şəfiqə" əsərində, "Ana" və "Maral" dramlarında da müşahidə edirik. Böyük şairin 1912-1914-cü illərdə müəyyən fasilələrlə qələmə aldığı "Şeyx Sənan" faciəsində isə daha bir istiqamət aparıcı xarakter daşımağa başlayır. Bu, Cavidin cəmiyyəti inkişafdan saxlayan, mütərəqqi meyillərin cəmiyyət həyatına daxil olmasına əngəllər törədən dini fanatizmə qarşı mübarizəsidir. O dövrün əksər maarifpərvərlərini birləşdirən bu mübarizə yolunda Cavid Əfəndi də öz üslubu, söz silahı, şeirinin, sənətinin özünəməxsusluğu ilə çıxış edirdi. Amma "Şeyx Sənan" əsərinin ideyası etiqadsızlıq, ateist düşüncə, Allah ideyasına qarşı inamsızlıq da aşılamırdı. Şeyx Sənan dinsiz bir qəhrəman deyildir, o, pərəstiş etmək üçün ideal bir həqiqət axtarışındadır. Elə bir həqiqət ki, insanı alçaltmasın, yüksəltsin, onları bir-birindən ayırmasın, aralarında nifaq salmasın, əksinə, bir-birinə yaxınlaşdırsın, sülhün, birgəliyin təməlinə çevrilsin, miflərə deyil, ağlın dəlillərinə əsaslansın. Qəhrəmanlarının faciəli taleyi ilə Cavid oxucusunu əsərin ümumi qayəsi barədə özü nəticə çıxarmağa səsləyir.

Şair "Şeyda" əsərində XX əsrin əvvəllərindəki neft Bakısının sosial-iqtisadi mühitini bütün ziddiyyətli məqamları ilə, insan taleləri fonunda parlaq boyalarla canlandırmışdır. Mətbəə işçilərinin həyatından bəhs edən pyesdə real mübarizə yollarını tapa bilməyən insanların faciəsi ümumiləşdirilib. 1919-cu ildə yazdığı "Uçurum" əsərində isə Hüseyn Cavidin İstanbuldakı dörd illik təhsil müddətində yaxından bələd olduğu gənc türk ziyalılarının mühitinə, düşüncələrinə, həyat və məişətinə, dəyərlərinə münasibətini görürük. Burada dramaturq süni avropalaşmanın, yad təsirlərin milli mənəviyyatla uzlaşmayan eybəcərliklərini poetik boyalarla təsvir etmişdir.

## "Əsrin müstəbid övladları"

1918-ci ildə Cavid yaradıcılığının, demək olar ki, zirvəsində qərar tutan əsərlərindən birini - "İblis" faciəsini yazır. "İblis" müharibə əleyhinə yazılmış bir əsərdir. Böyük dövlətlərin, dünyaya hakimlik iddiasında olan güclərin törətdikləri müharibələrin dəhşətləri, bu müharibələrin saysız-hesabsız sadə insanların həyatına gətirdiyi ağır faciələr Cavidi həmişə narahat edirdi. Hələ Birinci Dünya müharibəsinin ilk illərində qələmə aldığı "Məzlumlar üçün", "Qüruba qarşı", "Hərb və fəlakət" əsərlərində şair ədalətsiz müharibəyə qarşı kəskin nifrətini bildirmişdir. Bu dövrdə Cavidə bir həqiqət də bəlli idi ki, müharibələrin əsas səbəbləri üz-üzə duran fərqli dünyagörüşlərində, insanlar arasındakı irqi, dini, milli fərqlərdə deyil, öz maraqları naminə bu fərqlərdən xalqları, toplumları bir-birinə qarşı qoymaqdan ötrü istifadə edən, onlar arasında qanlı münaqişə yaradan, milyonlarla insanın faciəsinə səbəb olan güc mərkəzlərinin, böyük dövlətlərin iddialarıdır. Şairin öz təbirincə desək, əsrin müstəbid övladlarıdır.

İblis mövzusu ədəbiyyatda çox işlənmişdir. Tədqiqatçıların yazdıqlarına görə, Hüseyn Cavidin İblis surəti də ənənəvi, fantastik surətdir. Bu əsərdə İblis bir tərəfdən sərvət naminə aparılan müharibələrin məkrli niyyətlərini ifşa etmək, digər tərəfdən isə dövrün təlatümləri qarşısında özünü itirmiş insanların ağır durumunu, daxili təbəddülatlarını göstərməkdən ötrü bir vasitədir. Şair insanların bir-birinə qarşı qəddar münasibətinə son qoyması üçün yalnız bir yol bilir. O da məhəbbət fəlsəfəsidir, insanların bir-birini sevməsidir, hətta düşmənin belə öz düşmənini bağışlayıb əfv etməyə özündə güc tapmasıdır.

"İblis"in insanpərvərlik ideyalarına malik qəhrəmanları XX əsrin "müstəbid övladlarının" amansızlığına, müharibə ideyalarına qarşı çıxırlar.

## Xarakterlər dramı

"Ana", "Maral", "Şeyx Sənan" əsərləri kimi "İblis" dramı da xarakterlər, ehtiraslar dramıdır. Bu əsərdə də müsbət və mənfi obrazların qarşılaşması bir-birinə zidd görüşlərin çarpışması şəklində ortaya çıxır. Ədəbiyyat nəzəriyyəçiləri göstərirlər ki, bunların mənbəyi müəyyən ideya və anlayışlarda, həyata fərqli baxışlardadır. Hüseyn Cavidin dramaturgiyasında qədim və Orta əsrlər dramlarına xas olan xəyali ünsürlər də xüsusi yer tutur. Bu ünsürlər müxtəlifdir. Bəzən onlar mövhumi surətlər şəklində, bəzən kabuslar, ruhlar, ölülərin canlanması şəklində, bəzən də sayıqlamalar, yuxuda görülən hadisələr formasında ortaya çıxır.

Sovet hakimiyyəti illərində yazdığı "Afət" (1922) faciəsi də Cavidin yaradıcılığında xüsusi yer tutur. Burada kübar cəmiyyətinin meşşan əxlaqının mənəvi puçluğu əks olunmuşdur. Onun "Peyğəmbər" və "Topal Teymur" dramlarının özünəməxsusluğu isə ondadır ki, hər iki əsərdə Cavid ilk dəfə tarixi şəxsiyyətə, tarixdən alınmış hadisələrə müraciət etmiş və mövzuya müasir mövqedən yanaşmışdır. Orasını da qeyd edək ki, bu dramlar zamanında Cavidin ən çox hücumlara məruz qalmış və faciəli taleyində böyük rol oynamış əsərlərdir. Belə ki, bədxahları Cavid əfəndini Teymurləng kimi bir fatehi və Məhəmməd peyğəmbəri ideallaşdırmaqda günahlandırırdılar. Təhrif olunmuş şəkildə ortaya qoyurdular. Əslində isə "Topal Teymur"un qayəsi tiranlığın tənqidindən ibarətdir. "Peyğəmbər" əsərində isə insanın öz mənəvi gücü ilə müqəddəslik mərtəbəsinə yüksəlmək imkanlarına malik olması ideyası təlqin edilir.

Onun 1929-cu ildə qələmə aldığı "Knyaz" dramı müasirliyə daha yaxındır. Bu əsərdə azad sevginin və pak mənəviyyatın aparıcılığını görürük. Şərq ədəbiyyatının parlaq simalarından Əbülqasım Firdovsinin anadan olmasının min illik yubileyi münasibətilə keçirilmiş tədbirlərdə iştirak edən Hüseyn Cavid 1933-cü ildə "Səyavuş"u başa çatdırmışdır. Firdovsinin "Şahnamə" dastanının motivləri əsasında qələmə alınmış bu əsərdə insanlar arasındakı münasibətlərin yaxınlaşdırılması yollarındakı maneələrin aradan qaldırılmasından bəhs edilir. Şairin 1935-ci ildə yazdığı "Xəyyam" dramında isə Şərqin böyük şair və mütəfəkkirlərindən Ömər Xəyyamın simasında dövrünün fövqünə yüksələ bilən bir romantik qəhrəman canlandırılır. Qanlı-qadalı repressiya rejiminin başlanması ərəfəsində irəli sürülən bu ideya xeyirlə şərin əzəli-əbədi mübarizəsinin yeni şəraitdəki əks-sədası kimi səslənirdi.

Böyük şairin "Azər" poeması 1920-1937-ci illər arasında yazılmışdır. Bu epopeyada Hüseyn Cavidin fəlsəfi fikirləri bir küll halında toplanmışdır.

## Əbədiyyət ömrünün davamı

Sosializmin "nailiyyətlər"indən mənasız əsərlər yazmağı öz qələminə rəva görməyən, dövrün məqam sahiblərini mədh etməkdən qətiyyətlə boyun qaçıran Hüseyn Cavidin buna görə qəzəbə gəlməsi, repressiyaya məruz qalıb Sibir buzlaqlarına, Maqadana sürgün edilməsi və 5 dekabr 1941-ci ildə - ömrünün yaradıcılıq üçün ən kamil dövründə kimsəsiz, pasibansız bir durumda vəfat etməsi ictimai fikir tariximizin nə qədər ağır sınaqlardan keçdiyini, bu tarixi yaratmış insanların nə qədər çətin şərtlərlə üz-üzə olduqlarını, amma bütün məşəqqətlərə rəğmən yenə də prinsiplərindən geri çəkilmədiklərini göstərir.

Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətənimizə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması, adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir. Bu gün də Hüseyn Cavid kimi şəxsiyyətlərimizin xatirəsinə göstərilən ehtiram, sevgi onların yarıda qırılmış talelərinin böyük təsəllisi, əbədiyyət ömrünün davamıdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*


"AM172"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin:

"Dəniz" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarının zirzəmi mərtəbələrinin divar və tavanının emusiya ilə rənglənməsi və döşəməyə asfalt örtüyünün vurulması işlərinin (material və işçi qüvvəsi ilə birlikdə) satınalınması üçün

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət oktyabrın 31-i 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov, 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Müsabiqə komissiyası***












OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


**ALLAH RƏHMƏT ELƏSİN!**

Nadir və Feyzulla Hüseynbəyovlar İmran Tağızadəyə atası

SURXAY TAĞIZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6508
Sifariş 2970
Qiymət 40 qəpik